www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu   Gündəlik qəzet  20  aprel 2018-ci il   Cümə  № 85  (6974)  Qiyməti  60 qəpik

**Xəbər**

## Rayon maşınlarına Bakıya giriş qadağası

yazısı səh.14-də

**Gündəm**

### Amerika və Rusiya generallarının kritik Bakı görüşü



NATO və Rusiya komandanları üçüncü dəfə Azərbaycan paytaxtında bir araya gəldilər - mühüm gəlişmə; prezident İlham Əliyev generalları qəbul etdi

yazısı səh.4-də

### Şimali Koreyaya səfir təyinatı ilə bağlı ilginc iddia

yazısı səh.3-də

### Türkiyə üçün Azərbaycan ssenarisi hazırlanıbmış - təfsilat

yazısı səh.9-da

### Prezident şəhid ailələrini sevindirdi - 11 min manat ödəniləcək

yazısı səh.10-da

### "Bu, geniş islahatlar anonsudur" - ekspertlər

yazısı səh.3-də

### Avropa Birliyi ilə saziş nə vaxt imzalanacaq?

yazısı səh.11-də

### Ziya Məmmədov pullarını ölkədən çıxarır

yazısı səh.3-də

### Bayıl yamacında kompensasiya qovğası

yazısı səh.13-də

### Bakının zibilindən pul qazanmaq üstə rəqabət

yazısı səh.14-də

### İrəvan yazaq, yoxsa Yerevan - rəylər toqquşur

yazısı səh.4-də

### Vahid Ələkbərov Rusiyanın dördüncü ən zəngin adamıdır

yazısı səh.11-də

### Yaz gəlməmiş qaz zəifləyib

yazısı səh.13-də

# PREZİDENT İQTİDARI YENİLƏYİR - SENSASİON DƏYİŞİM

Böyük ehtimalla Artur Rəsi-zadəni iqtisadiyyat naziri Şahin Mustafayev əvəzləyəcək, amma daha bir namizəd də var; xarici işlər naziri Elmar Məmmədyarovun yerinə Vaşinqtondan kadr gəlir; daha iki nazir postu boşaldılır...




yazısı səh.5-də

## Falçının zorladığı qızlardan şok açıqlamalar - Bakıda dəhşətli olay

Zərərçəkənlər "Yeni Müsavat"a başlarına gələnləri danışdılar; **20 yaşlı tələbə qız:** "O zaman mənə necə yaxınlaşdığını, zorladığını hiss etməmişəm"; **18 yaşlı tələbə qız:** "Özümə gəlməyə başladım və anladım ki, məni zorlayıb"

yazısı səh.12-də



### Şeyxin seçki dövründə görünməməsinin sirri

yazısı səh.10-da



### Gülər Əhmədovadan sensasion müsahibə

yazısı səh.7-də



### Kılıçdaroğlu Azərbaycanın boykotçu müxalifətini ifşa etdi

yazısı səh.6-da



## Prezident ata Buşa başsağlığı verdi

**Prezident İlham Əliyev ABŞ-ın 41-ci prezidenti Corc Buşa başsağlığı verib. Başsağlığında deyilir:**

"Həyat yoldaşınız xanım Barbara Buşun vəfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu ağır anlarda dərdinizi bölüşür, əvəzsiz itki ilə əlaqədar Sizə, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verirəm".

## Prezident ilk səfərini bu ölkəyə edəcək

**Azərbaycan prezidenti İlham Əliyevin Türkiyəyə səfərinin vaxtı açıqlanıb.**

Axar.az xəbər verir ki, bu barədə Türkiyə mətbuatı məlumat yayıb.

Prezidentin Türkiyəyə səfəri aprelin 25-də baş tutacaq.

İlham Əliyev səfər zamanı Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan və Baş nazir Binəli Yıldırımla görüşəcək.

## Azərbaycana qaçan FETÖ üzvü hakim qarşısında

**Türkiyədə axtarışda olan Mustafa Ceyhanın öz ölkəsinə təhvil verilməsi barədə Azərbaycan Ədliyyə Nazirliyi və Baş Prokurorluğun təqdimatı üzrə məhkəmə prosesi keçirilib.**

Virtualaz.org-un xəbərinə görə, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Samir Əliyevin sədrliyi ilə keçirilən prosesdə Mustafa Ceyhanın müdafiəsinə yeni vəkillər - Elvin Səlimov və Tural Əmənovun qoşulduğu elan olunub. E.Səlimov BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyi tərəfindən işə qoşulub.

M.Ceyhan məhkəmədən bildiriş almağını və prosesin təxirə salınmasını istəyib.

Dövlət ittihamçısı qeyd edib ki, M.Ceyhanın həbs müddəti başa çatıb. O, Türkiyə vətəndaşının həbs müddətinin uzadılmasını istəyib. Bundan başqa, prokuror Azərbaycanın Dövlət Miqrasiya Xidmətinə sorğu göndərilməsini tələb edib.

Məhkəmə prosesi aprelin 20-dək təxirə salınıb.

İttihama görə, Türkiyə vətəndaşı Mustafa Ceyhan Fətullahçı Terror Təşkilatının (FETÖ) üzvü olmaqda ittiham edilərək, ölkəsində axtarışa verilib. O, ötən ilin aprel ayında Gürcüstan Respublikasından Azərbaycana qanunsuz yolla keçmək istəyən zaman həbs edilib.

Qazax Rayon Məhkəməsinin hökmü ilə Mustafa Ceyhan Azərbaycan Respublikasının sərhədlərini qanunsuz yolla keçməyə cəhd etməkdə ittiham olunaraq 1 il müddətinə azadlıqdan məhrum edilib.

Daha sonra Türkiyə Respublikası Mustafa Ceyhanın ekstradisiya olunması ilə bağlı Azərbaycana müraciət edib.

## Yanan Narkoloji Mərkəzin direktoru işdən çıxarıldı

**Respublika Narkoloji Mərkəzinin direktoru Telman Süleyman oğlu Məmmədhəsənov vəzifəsindən uzaqlaşdırılıb. Bu barədə virtualaz.org-a Səhiyyə Nazirliyi mətbuat xidmətinin mütəxəssisi Səfayə Əhmədova məlumat verib.**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**

# DİN hüquq müdafiəçisinin saxlanılmasına aydınlıq gətirdi

## "Taleh Xasməmmədov polisə müqavimət göstərib, xuliqanlıq edib"

**Hüquq müdafiəçisi Taleh Xasməmmədov saxlanılıb. Bu barədə APA-ya T.Xasməmmədovun yaxınları məlumat verib. Onların sözlərinə görə, hüquq müdafiəçisi bu gün Göyçay Rayon Polis Şöbəsi əməkdaşları tərəfindən tutulub. Onun saxlanılmasının səbəbləri hələlik məlum deyil.**

Məsələ ilə bağlı DİN-in mətbuat xidməti ilə əlaqə saxladıq. Xidmətdən "Yeni Müsavat"ın sorğusuna cavab olaraq bildirdilər ki, aprelin 19-da Göyçay Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsinin əməkdaşları xidmətdə olarkən yol-hərəkət qaydasını pozan "BMW" markalı avtomobili saxlayıblar: "Yol polisinin əməkdaşı istifadəsində olan bort-kompüterə nəqliyyat vasitəsinin məlumatlarını daxil edərkən onun barəsində həbs qərarının olması məlum olub və avtomobili qanuna müvafiq qaydada duracağa yerləşdiriblər. Bundan sonra avtomobilin sahibi, əvvəllər də məhkum olunmuş Taleh Xasməmmədov DYPB rəisinin iş otağına gələrək dərhal avtomobilin buraxılmasını tələb edib. Ona maşınının saxlanmasının səbəbləri ətraflı izah edilib və bildirilib ki, cəriməni dəbbə pulu ilə birlikdə ödədikdən sonra nəqliyyat vasitəsini duracaqdan götürə bilər. Bununla razılaşmayan T.Xasməmmədov daha da aqressivləşərək, xidməti otaqda öz xuliqanlıq hərəkətlərini davam etdirib, oradakı əşyaları dağıdaraq yararsız hala salıb. Onu sakitləşdirmək istəyən 3 polis əməkdaşına isə xəsarət yetirib ki, onlardan biri dərhal rayon xəstəxanasına yerləşdirilib. Buna baxmayaraq, onun qanunsuz hərəkətlərinin qarşısı alınıb və saxlanılıb.

Hazırda faktla bağlı Göyçay RPŞ-də müvafiq araşdırmalar aparılır. Nəticəsindən asılı olaraq müvafiq qərar qəbul olunacaq".

❑ **Musavat.com**



## Generalın oğlu yenidən məhkəmə qarşısında

**Bakı Apelyasiya Məhkəməsində general Novruzəli Orucovun oğlu, xuliqanlıqda təqsirləndirilən Rüstəm Orucov və onun dostları Kənan Vəliyevlə Pərviz Abbasov barələrindəki hökmdən verilən apelyasiya şikayəti üzrə məhkəmə keçirilib.**

"Qafqazinfo"nun verdiyi xəbərə görə, hakim Sahibxan Mirzəyevin icraatında olan prosesdə şahidlər dindirilib. Zərərçəkmiş Sənan Səmədovla eyni yerdə sürücü işləyən Elxan Xəlilov hadisəni görmədiyini deyib. Lakin məlum olub ki, o, istintaqa ifadəsində avtomobildən düşən 3 nəfərdən birinin Sənanı yumruqla vurduğunu gördüyünü deyib. E.Xəlilov belə bir ifadə vermədiyini deyib.

Digər şahid Elçin Ağayev ifadəsində Rüstəmin Sənanı vurduğunu, digər iki nəfərin isə Sənana, sadəcə, su verdiyini deyib. Onun istintaq ifadəsi elan edilən zaman şahid buna etiraz edib. Hakimin qərarı ilə şahid E.Ağayev 200 manat cərimə olunub.

Proses aprelin 24-də davam etdiriləcək.

Xatırladaq ki, bu il iyulun 3-də Bakı şəhər sakini R.Orucov sürücülük hüququndan məhrum olunmasına baxmayaraq, idarə etdiyi "BMW" markalı 10-OG-300 dövlət nömrə nişanlı avtomobillə yol hərəkəti qaydalarını pozduğuna görə ona əsaslı irad bildirmiş sürücü Sənan Səmədovun idarə etdiyi marşrut avtobusunu təqib edərək sürücünü döyüb.

Binəqədi Rayon Məhkəməsinin hökmü ilə R.Orucov 4 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Digər təqsirləndirilənlər - K.Vəliyev və P.Abbasov 1 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Onlar məhkəmə zalında həbs edilib. Hər üç şəxs apelyasiya şikayətində barələrində bəraət hökmü çıxarılmasını istəyiblər.

Qeyd edək ki, R.Orucovun atası general-mayor Novruzəli Orucov Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin həqiqi hərbi xidmətə çağırış üzrə müavini olub, bu hadisədən sonra prezident İlham Əliyevin sərəncamı ilə vəzifədən azad edilib.

❑ **Murad ƏHMƏD**



## Əhəd Abıyev hesabat verdi

**Aprelin 18-də Daşkəsən Rayon İcra Hakimiyyətinin iclas zalında "Daşkəsən rayonunda 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr"ə həsr olunmuş ümumrayon hesabat yığıncağı keçirilib.**

Yığıncağı giriş nitqi ilə Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev açaraq hesabat məruzəsi ilə çıxış edib. Ə.Abıyev deyib ki, birinci rübün yekunları müsbətdir: "Əlbəttə ki, üç ay ərzində daha bir sıra önəmli məsələlər öz həllini tapıb. 2018-ci ildə Daşkəsən şəhərində 7 çoxmərtəbəli yaşayış binasının təmiri nəzərdə tutulmuş və artıq həmin işlərin icrasına, eyni zamanda Daşkəsən şəhərində tikinti-təmir, abadlıq işlərinə başlanılıb. Qeyd etmək istərdim ki, Daşkəsən şəhərində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün yeni 36 mənzilli yaşayış binasının tikintisi üçün torpaq sahəsi ayrılmış, tezliklə həmin binanın tikintisinə başlanılacaqdır".

İcra başçısı deyib ki, Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən cari ilin keçən dövrü ərzində rayona özəl investisiyaların cəlb olunması sahəsində bir sıra işlər görülüb: "Rayona investisiya cəlb olunması məqsədilə ərazidə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, sənaye, energetika, tikinti, ticarət, nəqliyyat, telekommunikasiya və poçt, maliyyə və bank, turizm və digər xidmət sahələri üzrə mövcud vəziyyət, məlumatlar kütləvi informasiya vasitələri ilə hərtərəfli təşviq olunub.

İş adamları, sahibkarlar və aidiyyəti qurumlarla birgə investisiyaların qoyulması, müvafiq layihələrin işlənib hazırlanması məsələləri geniş təhlil edilərək tətbiq olunması daha məqsədəuyğun olan təkliflər müəyyənləşdirilərək, özəl investisiya qoyuluşu üzrə investisiya qoymaq istəyən hüquqi və fiziki şəxslərə lazımi köməklik göstərilməklə əlverişli şərait yaradılması nəzərdə tutulub".

❑ **ETİBAR**



## Bərdədə şikayət edən sakinlərin işığı kəsilib

**Bərdə Rayonu Hacılar kəndinin sakinləri işə düşüblər. Ona görə yox ki, onların kəndinin ortasından ötən əsrin 60-cı illərində çəkilmiş yüksəkgərginlikli elektrik dirəkləri artıq çürüyüb və kənd camaatını qorxu altında saxlayır. Həm də ona görə ki, Bərdə Rayon Elektrik Şəbəkəsinin rəhbərliyi onları şikayət etdikləri üçün peşman edib.**

Sakinlər "Yeni Müsavat"a göndərdikləri müraciətdə bildirirlər ki, elektrik dirəklərinin qəza vəziyyətində olması ilə bağlı hələ iki il əvvəl Bərdə Elektrik Şəbəkəsinə yazılı müraciət ediblər, ancaq heç bir tədbir görülməyib. Hər dəfə idarəyə gedən sakinlərə iki günə gəlib düzəldəcəklərini desələr də, nəticə olmayıb. Məsələ ondadır ki, sovet vaxtı çəkilmiş bu dirəklər hazırda istifadəyə yararsız olmaqla yanaşı, eyni zamanda yaşayış məntəqəsinin içərisindən keçməsi özü belə qaydalara ziddir. Üstəlik, fotolardan da göründüyü kimi, dirəklər çürüyüb və küləkli günlərin birində faciəyə səbəb ola bilər.

Bu ilin fevralında isə sakinlər redaksiyamıza müraciət ediblər. Mövzunu "Azərişıq" rəhbərliyinə bildirdik, hər halda sakinlərin şikayətin yazılması deyil, həll olunması maraqlandırırdı. Ancaq "Azərişıq" məsələyə qarışsa da, ötən iki aydan çox müddətdə problem həll olunmadı.

Ancaq martın 26-da prezident Bərdədə pambıq müşavirəsi keçirdikdən sonra Bərdə elektrikləri də narahat olub hərəkətə gəldilər. Lakin sakinlər deyir ki, Bərdə Elektrik Şəbəkəsinin işçiləri ilə kəndə gələn şəbəkənin müdiri əvvəlcə işıq dirəklərinin vəziyyəti ilə maraqlandıqdan sonra nədənsə işıq dirəklərini dəyişmək əvəzinə, sakinlərin borcları ilə maraqlanmağa başlayıb və borcu olan sakinlərin işığını kəsməyə başlayıb. Sonrakı günlərdə kənd sakinlərinin bir çoxunun borca görə işıqları kəsilib. Müdir isə kənd sakinlərinə "Müsavat"a şikayət etdikləri (!?) üçün hədə-qorxu gəlib. "Yeni Müsavat" qəzeti ilə Müsavat Partiyasını ayırd edə bilməyən müdir qəzetə şikayət yazan sakinləri cəzalandırsa da, dirəkləri dəyişməyi yenə də "unudub". Sakinlər isə, necə deyərlər, peşman olublar, nəinki dirəklər çıxarılmayıb, üstəlik, işıqları da kəsilib.

❑ **KƏNAN**

# “Bu, geniş islahatlar anonsudur”-ekspertlər

## “Ölkə başçısı nitqində, demək olar, bütün sahələri əhatə edib”

**Prezident İlham Əliyevin aprelin 18-də keçirilən andiçmə mərasimindəki nitqində ölkənin gələcəyi, nəzərdə tutulan islahatlarla bağlı mesajları cəmiyyətdə maraqla qarşılanıb və təhlil edilməkdədir. Əksər ekspertlər bu fikirdədir ki, ölkə başçısı nitqində, demək olar bütün sahələri əhatə etməklə yanaşı, çox sürətli və ciddi islahatların olacağının anonsunu vermiş olub.**

**Politoloq Qabil Hüseynli** prezidentin çıxışının bir sıra məqamlarını şərh edərkən bildirdi ki, bu çıxış prezidentin radikal islahatların tərəfdarı olduğunun aydın təzahürüdür. Nəzərdə tutulan radikal islahatlar idarəetmə aparatını sadələşdirəcək və oranı peşəkarların komandasına çevirəcək. Beləliklə də, ölkənin idarə edilməsi çox uğurla aparılacaq. Bu, iqtisadi islahatların gedişinə də müsbət təsir göstərəcək və ölkə regionun lider dövləti kimi daha sürətlə inkişaf edəcək: “Azərbaycanda siyasi islahatlara da ehtiyac var. Doğrudur, prezident çıxışında iqtisadi islahatların da adını çəkdi. Görünən odur ki, prezident siyasi islahatları daha çox diqqətə çəkib. Siyasi islahatlar dedikdə hazırda əsas məsələ kadrların seçilib yerləşdirilməsi ilə bağlıdır. Yəni burada söhbət peşəkar bir komandanın formalaşdırılmasından gedir. Bu, yalnız bacarıq və qabiliyyətinə görə proseslərə fəal müdaxilə etməyi bacaran şəxslərdən ibarət bir komanda olacaq. Prezident həcmcə şişirdilmiş aparatın təkmilləşdirməsinə diqqət çəkəcək. Azərbaycanda hələ sovet hakimiyyəti illərindən qalmış nazirlik və komitələr var. Nazirliklərin bəzilərinin olması vacib məsələdir. Amma elə komitələr var ki, büdcədən maliyyələşir, amma onların nə işlə məşğul olduğunu söyləmək çətindir. Ölkənin siyasi kursu var. Prezident İlham Əliyevin çıxışlarında, həmçinin akademik Ramiz Mehdiyevin ideoloji prinsipləri əks etdirən məqalələrində Azərbaycanın Avropa dövləti olmaq istəyi açıq şəkildə ifadə olunur. İslahatlar da bu yöndə aparılır və prezidentin dediyi kimi, bu dönəmdə daha da dərinləşəcək. Prezidentin nitqində daha bir məqam ondan ibarətdir ki, cəmiyyətdən gələn mesajlar diqqətdə saxlanacaq. Bu, həm də məmurlara bir xəbərdarlıq kimi də hesab oluna bilər”.

**Prezidentliyə keçmiş namizəd, deputat Zahid Oruc** bildirdi ki, prezidentin nitqində anonsunu etdiyi məsələlər yaxın vaxtlarda gerçəkləşəcək: “Prezident İlham Əliyev Nazirlər Kabinetinin tərkibində dəyişikliyin olacağını, həmçinin sturuktur islahatlarının, iqtisadi, siyasi islahatların davam etdiriləcəyini inauqurasiya mərasimində açıq bəyan etdi. Prezident cəmiyyətdən gələn mesajları yaxşı bildiyini bir daha bəyan etdi və gələcək siyasi gündəliyin formalaşdırılmasında bunlardan geniş şəkildə faydalanacaq. Ölkə rəhbəri fəaliyyəti üçün təkcə siyasi mədəniyyət nümunəsi kimi deyil, cəmiyyətdə barış, əməkdaşlıq, dialoq mühitinin bərqərar olması naminə seçki dönəmində namizədlər tərəfindən də irəli sürülmüş dövlət idarəçilik sisteminə, islahatlara, problemlərin aradan qaldırılmasına yönəlik baxışlardan rasional olanların nəzərə alınacağını vurğuladı. Hesab edirəm ki, bunların hamısı çox ciddi mesajlar idi və hər bir qüvvə, hərəkat, təşkilat tərəfindən rəğbətlə qarşılanır.

Struktur islahatları çərçivəsində hansı qurumların ləğv ediləcəyi, hansıların birləşdiriləcəyi müzakirə mövzusudur. Hansı strukturların birləşdiriləcəyi hazırda çox böyük aktuallıq kəsb edir. Adlar çəkmək, kimlərin yerdə qalıb, kimlərin komandaya daxil ediləcəyilə bağlı danışmağımız düzgün olmaz. Çünki bu, kompetensiya olaraq ölkə rəhbərinin xalqın iradəsilə qazandığı bir hüquqdur".

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

# Ziya Məmmədov pullarını ölkədən çıxarır

## Sabiq nəqliyyat nazirinin adamının Türkiyədə media holdinq yaratmasının pərdəarxası



**Türkiyədə Azərbaycanın ən iri media holdinqi kimi təqdim edilən “Global Media” şirkəti yaradılıb. Gələn xəbərlərdən belə aydın olur ki, İstanbulda “Cine 5" və ”Kanal 6" telekanallarının ofisinin yerləşdiyi binada bu istiqamətdə 3 aydır intensiv hazırlıq işləri aparılır. Məsələnin maraqlı tərəfi odur ki, iri layihəyə Azərbaycanda “vurulmuş” nəqliyyat naziri Ziya Məmmədovun kadrı Elnur Abdullayev rəhbərlik edir. Yayılan məlumata görə, media holdinqin sahibi bu günə qədər qurulmasına 5 milyon dollara yaxın vəsait xərcləyib. Əgər bu şəxs Elnur Abdullayevdirsə, onda bu qədər sərmayə ola bilərdimi?**

Bu suala birmənalı cavab vermək o qədər də asan deyil. Bilinən odur ki, Elnur Abdullayevlə Ziya Məmmədovu qohumluq əlaqələri bağlayır. Məlumatlara görə, Elnur Abdullayev sabiq nazirin baldızı oğludur. Onu vəzifə pillələrinə qaldıran da Ziya Məmmədov olub. Nəqliyyat Nazirliyinin tabeliyindəki müxtəlif qurumlarda çalışmış Elnur Abdullayev yaxın qohumunun himayəçiliyi ilə qısa zamanda irəli çəkilib. Nəqliyyat Nazirliyi Rabitə Naziliyinə birləşdiriləndən sonra Ziya Məmmədov postunu itirsə də, Elnur Abdullayev Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin (DANX) rəisi vəzifəsində qalırdı. DANX tabeliyində isə “Bakı Sərnişin Nəqliyyatı” MMC, “Avtomobil yük daşımalarının təşkili” MMC, “1 saylı Gəncə Regional Nəqliyyat” MMC, “2 saylı Quba Regional Nəqliyyat” MMC, “3 saylı Şirvan Regional Nəqliyyat” MMC, “4 saylı Lənkəran Regional Nəqliyyat” MMC, “5 saylı Yevlax Regional Nəqliyyat” MMC, “6 saylı Şəki Regional Nəqliyyat” MMC, “7 saylı Göyçay Regional Nəqliyyat” MMC, “8 saylı Sumqayıt Regional Nəqliyyat” MMC, “9 saylı Ucar Regional Nəqliyyat” MMC, “10 saylı Şəmkir Regional Nəqliyyat” MMC, “11 saylı Tovuz Regional Nəqliyyat” MMC, “12 saylı Beyləqan Regional Nəqliyyat” MMC, “13 saylı Cəlilabad Regional Nəqliyyat” MMC, “14 saylı Şamaxı Regional Nəqliyyat” MMC, “15 saylı Mingəçevir Regional Nəqliyyat” MMC, “Nəqliyyatservis” MMC, Tədris-Kurs Kombinatı və Respublika Texniki İdman Klubu vardı. Bundan başqa, paytaxtda fəaliyyət göstərən taksi şirkətlərindən birinin Elnur Abdullayevə məxsus olduğu haqda məlumatlar vardı. Həmin şirkətdəki taksilər əslində Ziya Məmmədovun oğlu Anar Məmmədova məxsus olduğu və şirkətin idarə edilməsi, maliyyə hesabatlarına nəzarəti Elnur Abdullayevin həyata keçirdiyi bildirilirdi. Anar Məmmədovun xalası oğlu Elnur Abdullayevlə münasibətlərinin çox yaxşı olduğu bildirilirdi. Həmçinin qeyd olunan taksi şirkətində Elnur Abdullayevin pay sahibi olduğu deyilirdi. Ziya Məmmədov onu 3 avqust 2015-ci il tarixli əmri ilə DANX rəisi vəzifəsinə təyin edənə qədər Elnur Abdullayev “Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi” MMC-nin baş direktoru vəzifəsində çalışıb. Ziya Məmmədov işsiz qalandan sonra onun kadrları da nəqliyyat sistemindən “təmizləndi”lər. Həmin günlərdə Elnur Abdullayev də vəzifəsini itirdi. Bundan sonra onun hara getdiyi, nə işlə məşğul olduğu bilinmirdi. Bir qədər əvvəl isə onun səsi Türkiyədən gəlməyə başlayıb. Türkiyədə hazırda telekanal açmaq elə də asan məsələ hesab olunmur. Həm də böyük bir layihə üçün böyük paraların olması da vacib şərtdir. DANX rəisi işləmiş birinin öz maliyyə hesabına belə bir layihənin altına girməsi inandırıcı görünmür. İndiki halda Ziya Məmmədova Türkiyədə telekanallar açmaq imkanı tanınması da inandırıcı görünmür. O da mümkündür ki, sabiq nazirin kadrları indi başqa bir məmur-oliqarxın bayrağı altına keçiblər. Türkiyədə gerçəkləşdirilən böyük layihəni də həmin məmur maliyyələşdirir. “Məqsədi, məramı nədir” sualı isə açıqdır. Hər halda yeni media holdinqin ortaya çıxaracağı məhsullar “musiqini sifariş edənin” kimliyini ortaya qoyacaq.

❑ **E.HÜSEYNOV,**
**“Yeni Müsavat”**

# Azərbaycanın Şimali Koreyaya səfir təyinatı ilə bağlı ilginc iddia

## **Elman Nəsirov:** “Şimali Koreya ilə münasibətlərimiz bu ölkənin ABŞ-la gərginliyinin aradan qaldırılmasında mühüm rol oynaya bilər”



**Azərbaycan Respublikasının Koreya Xalq Demokratik Respublikasında səfiri təyin edilib. Prezident İlham Əliyev bununla bağlı müvafiq sərəncam imzalayıb.**

Sərəncama əsasən, bundan sonra Azərbaycanın Çindəki səfiri Əkrəm Zeynallı, iqamətgahı Pekin şəhərində olmaqla, eyni zamanda Azərbaycanın Şimali Koreyada fövqəladə və səlahiyyətli səfiri olacaq.

**Rusiyadakı sabiq səfirimiz Hikmət Hacızadə** bu təyinatın o qədər də ciddiyə alınmasını doğru saymır: “Personal təyinat olmayacaq, Çindəki səfir ora da baxacaq. Açığı, Şimali Koreyada səfirliyin açılmasına bir ehtiyac da yoxdur. Amma dünya dəyişir. Rusiya və ya Çin Azərbaycana deyə bilər ki, Şimali Koreyada nümayəndəlik açın, əlaqələr qurun, münasibətləri genişləndirin”.

**Politoloq, deputat Elman Nəsirov** bildirdi ki, Azərbaycanın xarici siyasəti hər zaman müstəqil olub: “Azərbaycanla Şimali Koreya arasındakı diplomatik münasibətlər 1992-ci ilin yanvarından etibarən yaradılıb. Lakin indiyə qədər hər iki dövlətin bir-birində səfirliyi fəaliyyət göstərməyib. Azərbaycanın Çindəki səfiri həm də Şimali Koreyada akkreditə olunub. Şimali Koreyanın isə Rusiyadakı səfiri Azərbaycana akkreditə olunub. Bu təyinatın Qərblə münasibətlərimizə təsir edə biləcəyi barədə məsələyə gəlincə onu qeyd etmək istəyirəm ki, Azərbaycan tarazlaşdırılmış siyasət yürüdür. Çox sürətlə dəyişən dünyada bu gün də Azərbaycan həmin siyasəti davam etdirir. Azərbaycanın bütün dünya ölkələri ilə əlaqələri var. Amma əsas diqqət qonşu ölkələrlə münasibətlərə yönəlir. Sərəncamda Pxenyanda səfirliyimizin açılması ilə bağlı məsələ öz əksini tapmayıb. Azərbaycanın Şimali Koreya ilə münasibətlərinə gəlincə söyləmək mümkündür ki, bu münasibətlər simvolik addımlarla davam etdirilir. Qoşulmama Hərəkatının Bakı toplantısında Şimali Koreyanın xarici işlər naziri də iştirak etdi. Ticarət dövriyyəsi ilə bağlı deyə bilərəm ki, 2017-ci ilin 10 ayının nəticələrinə görə, təxminən 90 min dollarlıq məhsul Şimali Koreyadan ölkəmizə idxal olunub. Amma 2016-17-ci illərdə Azərbaycandan Şimali Koreyaya hər hansı bir məhsulun ixracı ilə bağlı Dövlət Gömrük Komitəsinin saytında heç bir məlumata rast gəlmək mümkün deyil. Şimali Koreya ilə münasibətlərimiz heç bir üçüncü ölkəni hədəfə almır. Bir faktı deyim ki, Rusiya ilə Türkiyənin münasibətlərinin ən gərgin vaxtlarında Azərbaycan hər iki ölkə ilə strateji tərəfdaşlıq münasibətlərini davam etdirməsi sayəsində ölkəmiz bir körpü rolunu oynaya bildi. Prezidentimiz barışdırıcı missiyanı ortaya qoydu. Rusiya-Türkiyə anlaşılmazlıqlarının aradan qaldırılmasında İlham Əliyevin çox böyük rolu oldu. Bu baxımdan Şimali Koreya ilə münasibətlərimiz bu ölkənin Amerika ilə gərginliyinin aradan qaldırılmasında da mühüm rol oynaya bilər. Bu məsələdə Azərbaycan öz barışdırıcı missiyasını ortaya qoyması mümkündür. Buna böyük potensialımız var”.

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 85 (6974) 20 aprel 2018



Valeri Gerasimov Kertis Skaparotti

# Amerika və Rusiya generallarının kritik Bakı görüşü

## NATO və Rusiya komandanları üçüncü dəfə Azərbaycan paytaxtında bir araya gəldilər - mühüm gəlişmə; prezident İlham Əliyev generalları qəbul elədi; ekspertlərdən maraqlı şərhlər...

**Rusiya ilə ABŞ (Qərb) arasında münasibətlər gərginləşən xətt üzrə davam edir. Ötən həftəsonu ABŞ, Fransa və Britaniyadan ibarət Qərb (NATO) "üçlüyü" Kremlin hərbi dəstək verdiyi Bəşər Əsəd rejiminin hərbi obyektlərini bombaladıqdan, ardınca Vaşinqton Moskva əleyhinə yeni sanksiyaları açıqladıqdan sonra münasibətlər bir qədər də qəlizə girib, "soyuq müharibə" daha təhlükəli fazaya adlayıb.**

Təsadüfi deyil ki, Rusiyanın xarici işlər naziri Sergey Lavrov bu arada belə bir ifadə işlədib ki, "Qərb bizimlə daha danışmaq istəmir, bütün diplomatik kanallar üzümüzə bağlanıb". Bu fonda, yəni iki geosiyasi qütb arasında təmasların deyil, qarşılıqlı sərt ittihamların çoxaldığı zamanda analitiklər hətta Rusiya və ABŞ (NATO) arasında hərbi toqquşma ehtimalından danışmağa başlayıblar.

Bu isə beynəlxalq sülhə və təhlükəsizliyə birbaşa, böyük təhlükə deməkdir. Təhlükənin qayəsində isə ilk növbədə həlli uzanan Suriya böhranı, həmçinin postsovet məkanında Moskvanın apardığı təcavüzkar siyasət, Ukrayna (Donbas, Krım) ilə bağlı ziddiyyətlər dayanır.

*****

Belə bir gərgin ortam varkən maraqlıdır ki, dünən Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov Bakıya işgüzar səfərə gəlib. "Yeni Müsavat" xəbər verir ki, Gerasimov Bakıda NATO-nun Avropadakı Birləşmiş Hərbi Qüvvələrinin baş komandanı Kertis Skaparotti ilə görüşüb (Skaparotti həm də ABŞ generalıdır).

Məlumata görə, tərəflər Avropa regionunda NATO və Rusiyanın hərbi fəaliyyəti, eləcə də Suriyadakı vəziyyəti müzakirə ediblər. Bundan qabaq isə Azərbaycan prezidenti İlham Əliyev Rusiya generalının başçılıq elədiyi nümayəndə heyətini qəbul edib (AzərTac). Ölkə başçısı ardınca NATO generalının rəhbərlik elədiyi nümayəndə heyəti ilə də bir araya gəlib.

Diqqəti çəkən birinci məqam da elə Rusiya və NATO komandanları arasında budəfəki görüşün Suriyaya hava hücumundan cəmi bir həftə sonraya təsadüf eləməsidir. Diqqəti həmçinin Gerasimovun ABŞ-ın deyil, NATO-nun generalı ilə bir araya gəlməsi çəkir.

Bu yerdə "Yeni Müsavat" xatırladır ki, keçən ilin sentyabr ayında NATO Hərbi Komitəsinin rəhbəri, general Petr Pavel Bakıda Valeri Gerasimovla görüş keçirib. 2017-ci ilin fevralında isə Gerasimov yenə məhz Bakıda ABŞ Silahlı Qüvvələrinin Birləşmiş Qərargah rəisləri Komitəsinin rəhbəri, general Cozef Danfordla bir araya gəlib.

Bu qəbildən növbəti, üçüncü görüş bu ilin yanvarında Bakıda Skaparotti ilə Gerasimov arasında planlaşdırılsa da, son anda generallar telefon əlaqəsi yaratmaqla kifayətlənmişdilər. İndi - təxminən 3 ay sonra onlar Bakıda tet-a-tet görüşmək qərarı veriblər.

Maraqlıdır ki, Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Bakıda ikən prezident Vladimir Putin Təhlükəsizlik Şurasının daimi üzvlərinin operativ iclasını çağırıb. Bu barədə informasiyanı Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov yayıb. Lakin o, görüşdə hansı məsələlərin müzakirə edildiyini açıqlamayıb. Bununla belə, gündəmdə Rusiya-Qərb (NATO) münasibətləri mövzusunun olması istisna olunmur...

*****

Şübhə yox ki, NATO və Rusiya komandanlarının görüş yeri kimi Bakını seçməsi Azərbaycanın qlobal güclər arasında apardığı balans siyasəti ilə, iki fövqəlgücün hər biri ilə normal münasibətlərdə olması və ölkəmizin regiondakı geosiyasi mövqeyi ilə birbaşa bağlıdır. Bu, habelə Bakının bölgədəki roluna verilən dəyərin, Azərbaycana etimadın növbəti təzahürü sayıla bilər.

Həm keçmiş görüşlər, həm də dünənki təmas zamanı aparılmış müzakirələrə dair geniş bilgilər verilməsə də, siyasi analitiklər hesab edirlər ki, komandanlar Qərblə, ABŞ-la Rusiya arasındakı indiki kritik durumun hərbi qarşıdurma müstəvisinə keçməməsi üçün bir daha yollar axtarıblar.

Bu mənada Bakının növbəti dəfə böyük güclər arasında dialoq körpüsü, dialoq məkanı qismində çıxış eləməsi, yaşadığımız xüsusilə mürəkkəb dönəmdə yenə regionun vacib ölkəsi kimi Azərbaycana güvənilməsi az önəm kəsb eləmir və ölkəmizi yaxşı anlamda dünyanın diqqətinə gətirməklə onun beynəlxalq imicini yaxşılaşdırır. Bu isə ərazisinin 20%-i işğal altında olan Azərbaycanın Dağlıq Qarabağ məsələsində Bakı üçün daha əlverişli manevr imkanı deməkdir. Adekvat şəkildə dünənki hadisənin işğalçı Ermənistanda qıcıq yaradacağı şübhə doğurmur.

*****

"Azərbaycanın beynəlxalq nüfuzu nəzərə alınmaqla, Bakı danışıqlar üçün əlverişli meydançadır. Azərbaycanın güclü silahlı qüvvələrinin olması da burada rol oynayır". Bu fikri APA-ya Rusiya Müdafiə Nazirliyi yanında İctimai Şuranın üzvü, tanınmış hərbi ekspert İqor Korotçenko generalların Bakı görüşünü şərh edərkən bildirib. Onun sözlərinə görə, Rusiya və NATO hərbi rəhbərliyinin Bakıda görüşməsinin əsas səbəbi Azərbaycanın beynəlxalq nüfuzunun olduqca yüksək olmasıdır: "O ki qaldı danışıqların mövzusu məsələsinə, deyə bilərəm ki, əsas müzakirə mövzusu Rusiya və NATO münasibətlərindəki ümumi gərginlikdir. Hesab edirəm ki, Gerasimov-Skaparotti görüşü hərbi-siyasi məsləhətləşmələr və 3-cü Dünya müharibəsi riskinin qarşısını almaq məqsədi daşıyır. Fikrimcə, tərəflər Ukrayna və Suriya məsələsi, habelə Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin vacibliyi kontekstində Cənubi Qafqazda təhlükəsizlik məsələlərinə də toxunacaqlar".

Öz növbəsində TASS agentliyinin hərbi şərhçisi Viktor Litovkin Rusiya və NATO generallarının ilk dəfə Bakıda görüşmədiklərinə diqqət çəkib. "Generalların Bakıda görüşməsində əsas səbəb, məncə, Azərbaycanın NATO və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı arasında yerləşməsidir. İkinci səbəb Azərbaycan paytaxtının qonaqpərvər şəhər olmasıdır. Belə yüksək səviyyədə danışıqlar aparmaq üçün Bakıda hər cür şərait var. Ona görə də, hesab edirəm ki, bu cür görüşlərin keçirilməsi Bakının haqqıdır. Həm də Rusiya və NATO generalları üçün Bakıda işləmək rahatdır", - deyə o qeyd edib.

Ekspertə görə, danışıqların mövzusu ənənəvidir: "Bu, mövcud münaqişələrdir. Ukrayna və Suriya məsələləri, alyans və Rusiya arasında toqquşma risklərinin yaranmasının qarşısını almaq, NATO-nun Rusiya sərhədlərinə yaxınlaşmasıdır. Düşünürəm ki, onlar Qarabağ probleminə toxunsunlar. Prinsipcə, nə NATO, nə KTMT-nin bu problemə aidiyyəti var. Lakin Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin vacib olması barədə danışa bilərlər. Ümumilikdə Cənubi Qafqazda təhlükəsizlik problemi danışıqlarda müzakirə mövzularından biridir".

"Azərbaycan beynəlxalq dialoq platforması kimi faktiki olaraq bütün dünyada qəbul olunub". Bu sözləri isə Axar.az-a açıqlamasında politoloq Elçin Mirzəbəyli Gerasimov- Skaparotti görüşünə münasibət bildirərkən deyib. "Yenə də iki böyük güc mərkəzinin rəhbərləri Bakıda görüşür. Şübhəsiz ki, bu, önəmli hadisədir. Xüsusilə NATO ilə Rusiya arasında ciddi ziddiyyətlərin olduğu bir zamanda belə bir görüşün növbəti dəfə Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq danışıqlar üçün ideal mərkəz olduğunun sübutudur. Bu, bir daha ölkəmizin nə dərəcədə önəmli coğrafi mövqeyə, siyasi nüfuza malik olduğunu təsdiqləyir", - deyə politoloq bildirib.

❑ **Siyasət şöbəsi, "Yeni Müsavat"**

# İrəvan yazaq, yoxsa Yerevan - rəylər toqquşur

**Azərbaycan mətbuatında, demək olar ki, hər gün Ermənistanla bağlı yazılar dərc edilir. Yerli mətbuatda paytaxt İrəvan bir çox hallarda Yerevan kimi təqdim olunur. Bəs yazılışların hansı doğrudur?**

Tarixçilərin, demək olar ki, böyük əksəriyyəti bu şəhərin əsl adının İrəvan olduğunu bildirir. Çünki, məlum olduğu kimi, həmin bölgədə uzun müddət İrəvan xanlığı mövcud olub və şəhər də bu xanlığın adını daşıyır. İrəvanın Ermənistana verilməsinə gəldikdə isə, tarixə əsasən 1918-ci ildə Azərbaycan Cümhuriyyəti digər bütün ərazilərə iddialarından əl çəkmələri şərtilə İrəvanı ermənilərə güzəştə getmişdi. Bununla bağlı F.X.Xoyski ovaxtkı xarici işlər naziri M.H.Hacınskiyə ünvanladığı məktubda yazır: "Onlar (ermənilər - qeyd) ultimatumu qəbul edirlər və müharibəyə son qoyurlar. Biz İrəvanı güzəştə getdik". Beləliklə, İrəvanı özlərinə paytaxt seçən ermənilər digər bölgələr kimi bu şəhərin də adını sonradan dəyişib Yerevan qoyub.



**Firudin Cəlilov:** "Bu, milli məsələ olduğu üçün İrəvan yazılmalıdır"



**Qulu Məhərrəmli:** "Bunun yazılma qaydası Yerevandır"

*Bəs bu gün Azərbaycanın tarixi şəhərinin adının Yerevan kimi yazılması nə dərəcədə doğrudur?*

**Filologiya elmləri doktoru, professor Firudin Cəlilov** tarix boyu bu şəhərin adının İrəvan olduğunu vurğulayıb:

"Biz həmişə İrəvan yazmışıq. Ruslar oranı işğal etdikdən sonra Yerevan kimi qeyd edib. Eləcə də ermənilər türk adı olmasın deyə Yerevan qoyub. Bu məsələ milli məsələ olduğu üçün ciddi yanaşmalı, İrəvan kimi qeyd etməliyik.

**Jurnalist, teletənqidçi, filologiya elmləri doktoru Qulu Məhərrəmli** isə məsələyə bu cür mövqe bildirib: "Bunun yazılma qaydası Yerevandır və bizim mətbuatımızda bu şəkildə yazmaq lazımdır. Bu, başqa məsələdir ki, biz İrəvan xanlığının tarixindən danışanda İrəvan kimi qeyd etməliyik. Amma indiki halda Ermənistanın paytaxtı Yerevandır və onu İrəvan yazmağın heç bir mənası yoxdur. Necə ki, uzun müddət biz Stepanakerti Xankəndi kimi yazdıq, amma onun mənası yox idi. Ona görə də bu, yersiz canıyananlıqdır, Yerevan kimi yazmaq, qaydalara əməl etmək lazımdır".

**Filologiya elmləri doktoru, professor Vüqar Əhməd** də İrəvan yazılışının doğru olduğunu deyib: "Bildiyiniz kimi, İrəvan xanlığı Rəvanqulu xanın adı ilə bağlıdır. İrəvanı şəhər kimi Səfəvilər salıb, Azərbaycanın bir hissəsi olub. Məlum olduğu kimi, ölkəmizdə indi də bəzən samitlərin əvvəlinə "i" saiti də əlavə olunur. Beləliklə, Rəvanqulu xanın şərəfinə həmin şəhəri camaat İrəvan kimi səsləndirib.

İrəvan qədim türk oylağı, torpağıdır. Hər zaman İrəvanın tərəfdarıyam. Əminəm ki, vaxt gələcək haqq-ədalət bərpa olunacaq, İrəvan da yenidən bizə qaytarılacaq".

❑ **Xalidə GƏRAY, Musavat.com**

YENİ MÜSAVAT

N 85 (6974) 20 aprel 2018

# Prezident iqtidarı yeniləyir - sensasion dəyişim

## Böyük ehtimalla Artur Rəsi-zadəni iqtisadiyyat naziri Şahin Mustafayev əvəzləyəcək, amma daha bir namizəd də var; xarici işlər naziri Elmar Məmmədyarovun yerinə Vaşinqtondan kadr gəlir; daha iki nazir postu boşaldılır...

**Aprelin 18-də İlham Əliyev rəsmən dördüncü müddətə prezidentlik səlahiyyətlərinin icrasına başladı. Xatırladaq ki, 2013-cü ilin oktyabrın 23-də Milli Məclisdə and içərək prezident səlahiyyətlərinin icrasına başlayan İ.Əliyev dərhal Nazirlər Kabinetinin yeni tərkibini elan etmişdi. Gözlənilirdi ki, bu dəfə də andiçmə mərasimi başa çatdıqdan sonra yeni kabinetin tərkibi elan olunacaq. Amma İ.Əliyev Nazirlər Kabineti üzvlərinin səlahiyyətlərini yeni hökumət formalaşanadək icra etmələri haqda sərəncam imzaladı.**




Yada salaq ki, 2013-cü ildə seçkilərdən sonra açıqlanan yeni kabinetdə müdafiə naziri Səfər Əbiyevin, əhalinin sosial müdafiəsi naziri Füzuli Ələkbərovun və kənd təsərrüfatı naziri İsmət Abbasovun adları yox idi. Müdafiə naziri postu Zakir Həsənova, əmək və əhalinin sosial müdafiəsi naziri postu isə Səlim Müslümova həvalə olundu. Heydər Əsədov isə kənd təsərrüfatı naziri vəzifəsinə təyinatı aldı.

"Yeni Müsavat"a daxil olan məlumata görə, hökumətin yaxın günlərdə elan olunacaq tərkibində bəzi sensasion təyinatlar gözlənilir.

Məlumdur ki, neçə illərdir medianın əsas diqqəti baş nazir Artur Rəsi-zadəni əvəzləyəcək namizədə dikilib. İndiyədək bu posta ən müxtəlif şəxslərin adı hallanıb. O nazirlərin bəziləri artıq hökumətdən uzaqlaşdırılıb, bəziləri isə əvvəlki qüdrətdə deyil. İkinci bir tərəfdən, 2016-cı il konstitusiya düzəlişlərindən sonra baş nazir artıq ölkənin ikinci səlahiyyətli şəxsi sayılmır. Amma bütün bunlar "Rəsi-zadə gedərsə, kim gələcək" sualı ətrafında müzakirələri səngitməyib. Həm seçki ərəfəsi, həm seçkidən ötən qısa müddətdə baş nazirlə bağlı "informasiya axını" güclənib.

"Yeni Müsavat"ın məlumatına görə, baş nazirin gedəcəyi dəqiqdir. Mənbəmiz onun ilin sonuna kimi yenidən vəzifəsinə təsdiqlənəcəyi ilə bağlı xəbərləri inandırıcı saymır. Bildirilir ki, prezident böyük ehtimalla iqtisadiyyat naziri Şahin Mustafayevin namizədliyini Milli Məclisə göndərəcək.

Şahin Mustafayev 1965-ci ildə Ermənistanın Barana (Noyemberyan) rayonunda anadan olub. M.Voznesenski adına Maliyyə-İqtisad İnstitutunun Bakı filialını bitirib. 1992-1999-cu illərdə Nəsimi rayonu üzrə Dövlət Vergi Müfəttişliyində dövlət vergi müfəttişi, böyük dövlət vergi müfəttişi, baş dövlət vergi müfəttişi və şöbə rəisi olub.

2003-2005-ci illərdə Dövlət Neft Şirkətində mərkəzi mühasibatlığın baş mühasibi, İqtisadiyyat və Uçot İdarəsinin, 2005-2006-cı illərdə Dövlət Neft Şirkətinin iqtisadi məsələlər üzrə vitse-prezidenti, 2006-2008-ci illərdə vergilər nazirinin birinci müavini vəzifələrində işləyib. 2008-ci ildən hökumətdə nazir portfelinə sahibdir. Adı korrupsiya və rüşvət qalmaqallarında hallanmayan nazir xüsusilə ölkənin qeyr-neft sektoruna keçidi dövründə hökumətdə əsas fiqurlardan birinə çevrilib. Prezident yanında güvənilən "iqtisadi komanda"ya daxildir.

Ş.Mustafayevin baş nazir təyinatı kifayət qədər uğurlu seçim ola bilər. Çünki iqtidar neçə illərdir ki, ölkənin iqtisadiyyatını neft asılılığından qismən də olsa qurtarmağa çalışır və buna müəyyən dərəcədə nail də olub. Yaxın illərdə də bu strategiya davam edəcək və bu baxımdan "işin içində olan" Ş.Mustafayev kimi kadrın baş nazir təyinatı mümkün görünür.

Digər bir ehtiyat namizəd kimi Yaqub Eyyubovun da adı çəkilir. Yaqub Eyyubov 1999-2003-cü illərdə baş nazirin müavini, 2003-cü ildən baş nazirin birinci müavinidir. Yəni Nazirlər Kabinetində işlədiyi müddətin davamlılığını nəzərə alsaq, onun baş nazir postuna gətirilməsində problem yoxdur. Ən azından uzun illərdir ki, ayrı-ayrı zamanlarda Artur Rəsi-zadəni əvəzləyib.

Yaqub Eyyubov 1945-ci ildə Mingəçevir şəhərində anadan olub. İxtisası inşaat mühəndisidir, texnika elmləri doktoru, professordur.

Hökumət tərkibində gözlənilən daha bir sensasion dəyişiklik xarici işlər naziri Elmar Məmmədyarovun istefaya göndəriləcəyidir. E.Məmmədyarovun istefaya gedə biləcəyi ilə bağlı xəbərlər yeni deyil. Təcrübəli diplomat olan E.Məmmədyarov, təəssüf ki, illərdi XİN-i "hücum diplomatiyası"na kökləyə bilməyib. Son illər "DQR"ə qanunsuz səfərlərin artması, qondarma qurum rəhbərliyinin xarici ölkələrə dəvəti də XİN-in xarici siyasət kursunda "dişsiz siyasətinin" nəticəsi hesab olunur. Azərbaycan iqtidarına Qərb dairələrindən hücumlarda da E.Məmmədyarovun fəaliyyətsizliyinin müəyyən rolu olduğu da deyilir. Xüsusən siyasət və informasiya texnoloqları belə hesab edirlər ki, nazir diplomatların seçimində də peşəkar deyil. Bu səbəbdən də son illər səfirliklərlə bağlı korrupsiya faktları hallarına rast gəlinir. Bu da idarəetmədə ciddi nöqsanlar olduğu barədə rəyləri möhkəmləndirir.

Hökumətə yaxın mənbələrdən əldə etdiyimiz bilgiyə görə, E.Məmmədyarovla bağlı qərar verilib. Məlumatlı mənbə iddia edir ki, 2004-cü ildən nazir işləyən Məmmədyarov müəyyən müddət istirahət arzusundadır, bundan sonra o, BMT-də Azərbaycanın daimi nümayəndəsi təyin edilə bilər.

E.Məmmədyarovu əvəzləyəcək diplomat isə Vaşinqtondan gələcək. Mənbənin iddiasına görə, Azərbaycanın xarici siyasət nazirliyinə başçılıq ABŞ-dakı səfirimiz Elin Süleymanova həvalə oluna bilər.

Elin Süleymanov uzun illər Azərbaycanın Los-Ancelesdəki konsulu işləyib. 2011-ci ilin oktyabrından isə ölkəmizin ABŞ-da fövqəladə və səlahiyyətli səfiridir.

Qeyd edək ki, mediada müdafiə sənayesi naziri Yavər Camalovun da yeni hökumətdə təmsil olunmayacağı ilə bağlı iddialar var. Onun səhhətində problemlər olduğu deyilir. Kənd təsərrüfatı naziri Heydər Əsədov da hökumətdən uzaqlaşdırıla bilər. Bu məsələdə qudası Ziya Məmmədov faktorunun olduğu da istisna edilmir, amma iddialar var ki, iqtidar onun 5 illik fəaliyyətindən razı deyil.

Təhsil nazirinin kim olacağı ilə bağlı hətta ən ağlagəlməz versiyalar var. Ekspertlər bu məsələdə "baş sındırmağı" heç kimə məsləhət görmür. Çünki prezident İlham Əliyev 15 illik hakimiyyəti dönəmində işdən çıxardığı hansısa nazirin yerinə kimin təyin ediləcəyi məsələsində mediaya hər zaman "qalib gəlib".

Bu dəfə yanılıb-yanılmayacağımızı çox gözləmək lazım gəlməyəcək...

❑ **"Yeni Müsavat"**

# "Komandanı təkmilləşdirməyə böyük ehtiyac var"

## Politoloq: "İndiki dövrdə dövlətin inkişafı uğurlu kadr siyasətindən asılıdır"

**Prezident Administrasiyasının (PA) rəhbəri Ramiz Mehdiyevin "Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri" adlı məqaləsi cəmiyyətdə geniş rezonans doğurub. Məqaləni İlham Əliyevin yaxın 7 illik hakimiyyət dönəmi üçün nəzərdə tutduğu "yol xəritəsi" hesab edənlər az deyil.**



Xatırladaq ki, R.Mehdiyevin məqaləsində yeni mərhələdə həyata keçiriləcək kadr, struktur islahatları ilə bağlı ciddi siqnallar əksini tapıb.

PA rəhbərinin üzərində dayandığı vacib məqamlardan biri struktur islahatlardır: "Dövlət idarəetmə sistemində islahatlar ağrılı və çətin prosesdir. Lakin siyasi hakimiyyəti güclü və sabit olan ölkələrdə iqtisadi islahatlar və struktur dəyişiklikləri rəvan bir şəkildə həyata keçirilir. Çünki hakimiyyətin siyasi gücü həmin islahatların aparılması yolunda qarşıya çıxan "maneələri" asanlıqla dəf etməyə imkan verir".

Qeyd edək ki, PA rəhbəri barəsində çoxdan danışılan iqtisadi sferadakı bir-birini təkrarlayan dövlət qurumlarının ləğv ediləcəyinin anonsunu da verib. Məqalədə deyilir ki, iqtisadi yönümlü dövlət orqanlarının bir çoxunun fəaliyyətində bir-birini təkrarlayan funksiyalar və vəzifələr mövcuddur. R. Mehdiyevin məqaləsində struktur islahatlarında büdcəyə daxilolmalara ciddi önəm veriləcəyinə mesajlar var.

Administrasiya rəhbərinin ciddi siyasi platforma xarakterli məqaləsini dəyərləndirən **politoloq Qabil Hüseynlinin** fikrincə, məqalədə Azərbaycan dövlətçiliyinin gələcək inkişaf yolları əsasən 3 istiqamətdə cəmləşdirilib. Bunlar kadr siyasəti, struktur islahatları və dövlət vəsaitlərinin qənaətlə xərclənməsi, onlardan səmərəli istifadə məsələləridir. Doğrudan da, ölkədə prezident İlham Əliyevin vahid komanda prinsipi ilə işləyən komandası formalaşıb. Lakin bu komandanın təkmilləşməyə, gəncləşməyə, yeni təcrübəli, savadlı, gözü-könlü tox adamlarla zənginləşdirilməsinə böyük ehtiyac var. Ramiz Mehdiyev də öz fikirlərini bu istiqamətdə cəmləşdirib. Doğrudan da, bütün dövrlərdə hər şeyi kadrlar həll edir. İndiki dövrdə də kadr siyasətindən dövlətin uğurlu inkişafı asılıdır. Bu nöqteyi-nəzərdən düşünürəm ki, yeni formalaşdırılacaq kadr korpusu günün tələblərinə, beynəlxalq ölçülərə, əsas standartlara cavab verəcək, əqli-mənəvi cəhətdən təmiz və öz dövlətini sevən, vətənpərvər insanlardan ibarət olacaq".

R.Mehdiyevin məqaləsində vurğulanan ikinci məqama-struktur islahatlarına gəlincə, Q.Hüseynlinin sözlərinə görə, onların aparılması zəruridir: "Çünki keçmiş sosialist respublikalarının bir çoxunda sovet dövründən qalma idarəçilik təcrübəsi, idarəetmə metodları, eləcə də bu metodları həyata keçirən idarəçilik strukturları qalmaqdadır. Müstəqil dövlətin öz müstəqil dövlətçilik prinsipləri olmalıdır. Bu prinsiplər idarəetmə aparatının, bürokratiyanın bütün istiqamətlərinə öz təsirini göstərməlidir. Zənnimcə, struktur islahatlarına artıq İlham Əliyev tərəfindən başlanılıb. Yenidən seçildikdən sonra bu islahatların daha dəqiqliklə, son məqama qədər, riskli addımlar atılmaqla həyata keçirilməsi, fikrimcə, idarəetmə aparatının sadələşdirilməsi, ucuzlaşdırılması, həm də idarəetmənin keyfiyyətinin yüksəldilməsinə gətirib çıxara bilər".

Politoloq onu da deyir ki, dövlət vəsaitlərindən qənaətlə və səmərəli istifadə məsələsi də hazırda Azərbaycan üçün aktual istiqamətlərdən biridir: "Bu, çox ciddi əhəmiyyət kəsb edən məsələdir. Belə ki, artıq neft erasının elə bir mərhələsinə gəlib çatmışıq ki, dövlət vəsaitlərinə, büdcə pullarına ciddi qənaətlə yanaşmalı, hər qəpiyin qədrini bilməliyik. Xüsusən də bu sahədə olan dələduzluq, talançılıq, dövlət vəsaitlərinin mənimsənilməsi kimi hallara yol verilməməlidir. Bu prinsiplərin Ramiz Mehdiyev tərəfindən önə çəkilməsi mühüm məsələdir".

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 85 (6974) 20 aprel 2018

**Prezident İlham Əliyevin aprelin 18-də keçirilən inauqurasiya mərasimində seçkidə iştirak edən namizədlərlə bağlı dedikləri ciddi maraq doğurub.**

# Seçkidəki rəqiblərindən prezidentin çıxışına reaksiya

## Sərdar Cəlaloğlu: "İqtidar-müxalifət münasibətləri xalqın maraqları istiqamətində qurulanda bundan xalq udur"

## Razi Nurullayev: "İstərdim ki, YAP görüş təyin etsin..."

"Namizədlərin çıxışlarında kifayət qədər kəskin tənqidi fikirlər səslənib, mən bunu alqışlayıram, müsbət hal kimi qiymətləndirirəm. Onların qaldırdıqları məsələlərə diqqətlə baxılacaq və dəyərli təkliflər nəzərə alınacaqdır. Fürsətdən istifadə edərək, seçkilərdə iştirak etmiş bütün namizədlərə öz təşəkkürümü bildirirəm, onlara gələcək fəaliyyətlərində uğurlar diləyirəm", - deyə dövlət başçısı bildirib.

Qeyd edək ki, seçki debatlarında ən çox təkliflərlə müxalif namizədlər çıxış etdilər.

**ADP sədri Sərdar Cəlaloğlu** prezidentin çıxışını belə dəyərləndirdi: "Təcrübə göstərir ki, iqtidar-müxalifət münasibətləri xalqın maraqlarına xidmət etmək istiqamətində qurulanda bundan xalq udur, hər iki düşərgənin də nüfuzu qalxır. Amma bir yerdəki iqtidar-müxalifət münasibətlərində əsas hədəf hakimiyyət olur, o zaman hər iki cəbhə bir-birinə düşmən olur, bundan da xalq itirir".

ADP sədrinin sözlərinə görə, iqtidar seçkilərdən sonrakı davranışlarına uyğun addımlar atacaqsa, qısa müddət ərzində cəmiyyəti ciddi narahat edən problemlərdən azad ola biləcəyik: "Bu da bizim milli nailiyyətimiz olacaq".


Sərdar Cəlaloğlu


Razi Nurullayev

S.Cəlaloğlu dedi ki, artıq iki təklifini hökumət həyata keçirib: "Şəhid ailələri ilə bağlı birdəfəlik yardım məsələsini qaldırmışdım. İlham Əliyev tərəfindən fərman imzalandı və 11 min manat veriləcək. Bu, çox müsbət bir haldır. Çünki şəhid ailələrinə bu yardımın verilməsi çox vacibdir. İkincisi, 90-cı illərin əvvəllərində vətəndaşların "Kapital Bank" da əmanətləri var idi, bunlar vətəndaşlara qaytarılmırdı. Rəsmi şəkildə olmasa da, qeyri-rəsmi şəkildə vətəndaşlardan mənə zəng edən oldu ki, bankdan zəng edib deyiblər ki, gəlin əmanətlərinizi alın. Türk Konfederasiyasının yaradılması, uşaq pullarının verilməsi və digər bu kimi ciddi məsələlər qaldırmışam. Kadr islahatlarının aparılması təklifim də var. Azərbaycanda sədaqət adı altında vəzifələrə şəxslər təyin olunurlar. Onlar da nə xalqa, nə dövlətə, nə də prezidentə sədaqətli olurlar. Üzdə ölkə başçısına sədaqətli görünməyə çalışırlar, amma korrupsiya, rüşvətxorluq və digər bu kimi hallarla xalqı hökumətə qarşı qaldırırlar. Ona görə kadr islahatlarına böyük ehtiyac var. Çox güman ki, təkliflərimin bəziləri ilə bağlı hökumət müsbət addımlar atacaq. Əgər bu addımlar atılacaqsa, hökumətə şəxsən təşəkkür edəcəm".

**Yeni AXCP-nin sədri Razi Nurullayev** müstəqillik illəri ərzində ilk dəfə olaraq prezidentin iştirakçı namizədlərə təşəkkür etdiyini bildirdi: "Düşünürəm ki, Azərbaycanda iqtidar-müxalifət münasibətlərinin normallaşması və hazırkı vəziyyətə gəlməsi, dialoq üçün normal ab-havanın yaranmasında mənim də xidmətlərim kifayət qədərdir. Bütün televiziya çıxışlarımı demək olar bu məsələyə həsr etmişdim".

R.Nurullayev dedi ki, Azərbaycanın Türkiyə və Pakistanla çox real nəticələrə söykənən hərbi-texniki-siyasi əməkdaşlığı gerçəkləşdirmək təklifi irəli sürüb: "Bu gerçəklikdən irəli gələn məsələ bu olmalıdır ki, Azərbaycan ərazisinə hər hansı bir təcavüz olarsa, yaxud ölkəmiz ərazisində antiterror əməliyyatları keçirərsə, hər iki ölkənin ordusu bizimlə birlikdə hərəkət edəcək. Eləcə də Türkiyə və Pakistanla bağlı eyni hadisələr baş verərsə, Azərbaycan bu cür etməlidir".

Partiya sədri kadr islahatları ilə bağlı təklifini də xatırlatdı: "Ölkəmizdə ciddi kadr islahatlarına ehtiyac var. Xaricdə beş mindən çox oxuyan tələbəmiz var. Onlar dövlətin pulları ilə oxuyublar. Öz hesabları ilə təhsil alanları da nəzərə alsaq, 15 minə yaxın kadr var. Bu kadrların hamısının dövlət vəzifələrinə çəkilməsinin tərəfdarıyam. Əsas məsələlərdən biri də sosial ədalətin təmin olunmasıdır. Bunun da ilk nümunəsi, debatda da dediyim kimi, Xəzər dənizinin ətrafındakı hasarların sökülməsidir. Müxtəlif rayonlar da hasarlara bürünüb. Bunu edənlərin cəzalandırılması lazımdır. Çox istərdim ki, prezidentin ilk addımlarından biri bu olsun ki, Xəzər dənizini hasara alanlar, orada qanunsuz villa tikənlər cəzalandırılsın. Bu zaman xalq prezidentin arxasında daha çox sıxlaşacaq, ətrafında birləşəcək.. İstərdim ki, YAP görüş təyin etsin, bütün namizədləri dəvət etsin, onlar da proqramları ilə gəlsinlər, ekspertlər də dəvət olunsun. Birlikdə müzakirələr nəticəsində problemləri çox tezliklə həll etmək mümkündür".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Kılıçdaroğlu Azərbaycanın boykotçu müxalifətini ifşa etdi

## Erkən seçki qərarına "hazırsız, qalib gələcəyik" reaksiya verən qardaş ölkə müxalifəti və boykotçular...

**Türkiyədə 24 iyuna növbədənkənar prezident və parlament seçkilərinin təyin edilməsinə müxalifətin sərgilədiyi mövqe Azərbaycanda da maraq doğurub. Qardaş ölkənin demokratik düşərgəsi bu qərarı dəstəklədiyini bəyan edib.**

Ana müxalifət partiyası olan CHP-nin sədri Kamal Kılıçdaroğlu seçkilərə tam hazır olduqlarını, hətta qələbə qazanacaqlarını bildirib. MHP-dən ayrılaraq İyi Partiya quran xanım Meral Akşener də eyni mövqe sərgiləyərək, 100 min imza toplayaraq namizəd olacağını elan edib. M.Akşener qələbə şanslarının da az olmadığını qeyd edib.



24 iyuna seçkilərin təyin edilməsindən sonra hər kəs Türkiyə müxalifətinin Azərbaycan müxalifəti kimi müxtəlif bəhanələr önə çəkəcəyini, iqtidarın onları hazırlıqsız yaxalamaq üçün qəfil seçkilər təyin etdiyi barədə fikirlər səsləndirəcəyini, hətta seçkiləri boykot edəcəyini gözləyirdi. Amma tam əks proseslər qardaş ölkədə yaşanır. Belə ki, əsas müxalif qurumlardan sayılan MHP-nin sədri Dövlət Baxçalının təklifi əsasında 24 iyun seçkiləri təyin olundu. Eləcə də CHP və İyi Partiya elə bir mövqe ortaya qoyublar



ki, sanki bu seçkiləri iqtidardan daha çox istəyirlər.

Prezident seçkilərində namizədliyi qeydə alınmayan **AĞ Partiya başqanı Tural Abbaslı** bildirdi ki, növbədənkənar seçkilər dünya siyasətində adi hallardan hesab olunur: "Növbədənkənar seçkilər siyasi mübarizənin metodlarından biri hesab oluna bilər. Əgər belə seçkilərin təyin olunması zamanı yerli qanunvericiliyə əməl olunubsa və heç bir qanun pozuntusuna yol verilməyibsə, mən bunu tam normal qəbul edirəm. Türkiyənin müxalif partiyaları da sübut etdilər ki, struktur olaraq siyasi səhnədə baş verə biləcək istənilən fövqəladə hala hazırdırlar. Zatən partiyaların işi də budur. Onlar siyasi tələtümlərə və dəyişikliklərə hazır olan çevik təşkilat olmalıdırlar. İnanmıram ki, Türkiyə müxalifəti növbədənkənar seçkilərin olacağını gözləyirdi deyə hazır idilər. Ümumən isə partiyaların "biz hazırlıqsız yaxalandıq" arqumenti ciddi və peşəkar hesab oluna bilməz. Çünki partiyaların işi hər an siyasi proseslərin içində və hətta önündə olmaqdır. Yeni məsələlər bu qədər aydındır. Bizim köhnə müxalifət xalqın inamını itirdiyi üçün yeganə çıxış yolu təslimiyyətə bərabər boykot taktikası olur".

Seçkilərdə qeydə alınmayan daha bir namizəd, **VİP sədri Əli Əliyev** məsələyə bu cür şərh verdi: "Azərbaycan müxalifətinin bir hissəsi, o cümlədən VİP-in seçkidəki mövqeyi Türkiyə müxalifətinin mövqeyi ilə eynilik təşkil edib. Müxalifətimizin bir hissəsi, ola bilər daha çoxsaylı təşkilat seçkilərdə boykot qərarı verib. Lakin biz o qərarı düzgün saymadığımızdan seçkiyə qatılmış, prosesdə bacardığımız və gücümüz qədər iqtidara "zərbə" vurmaq fikrində olmuşuq. Bizim qərarımızın yetkin siyasi sistemə malik Türkiyə partiyaları ilə üst-üstə düşməsi bizim müxalifət daxilində daha haqlı olduğumuzu ortaya qoydu. Normal toplumlarda siyasi sistemin elementi olmağa iddialı olan partiyalar, keçirilmə vaxtından asılı olmayaraq, seçkilərdə iştirakı öz vəzifəsi bilirlər. Bu yerdə cəmiyyətimizin siyasi baxımdan anormallığını qeyd etməyə bilmirsən. Dediklərim dövlət adına haqq edən siyasi coğrafiyalara aiddir. Təəssüf ki, Azərbaycanı, hələlik, yürüdülən siyasət səbəbindən, bu sıraya qoymaq olmur. Türkiyə müxalifətinin seçkidə iştirak istəyi və iddiası buradan qaynaqlanır. Həm də ədalət xatirinə deməliyik ki, Türkiyədə etimadlı seçki sistemi mövcuddur. Vətəndaş siyasi həyatın onun səsindən asılılığını duyur. Cəmiyyət oyaq və rəngarəngdir. Saxtakarlıq, amansız siyasi mübarizə, haramçılıq fəvvarəsi Türkiyə üçün xarakterik deyil. Bu yerdə bizim boykotçuları başa düşməyə bilmirsən. Biz ötən seçkilərdə prosesdə olardıqsa, inanıram ki, hakimiyyət daha çətin, bəlkə də çıxılmaz durumda olacaqdı. Meydanı iqtidara güzəştlə verməklə, passiv pozisiyaya keçməklə, iqtidara sərbəstlik yaratdıq. Düşünürəm ki, bu seçki hamımıza dərs olmalıdır. Qarşıdan parlament seçkiləri gəlir. Bu seçkilərdə fəal olmaq, bizim üzərimizə könüllü şəkildə çəkdiyimiz siyasi müxalifət statusumuzdan irəli gəlir. Hakimiyyətə qarşı fəal mübarizə, bütün hallarda qeyri-fəal davranışdan üstündür. Hərəkət canlıların yaşam formasıdır. Proseslər və təcrübə göstərir ki, YAP könüllü şəkildə hakimiyyəti xalqa qaytarmayacaq. Belə olduğu təqdirdə, onları təhvil-təslimə vadar etmək bizim görəvimizdir. Çətin olsa da, bunu etməliyik".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 85 (6974) 20 aprel 2018

# “Məndən “imtahan” verənləri hələ çox sınaqlar gözləyir!” - sensasion müsahibə

## Gülər Əhmədova: “Məni müdafiə edən olmadı...”



**“Elşad Abdullayevin ifadəsi alınmadı, üzləşdirmə olmadı. O deyir mən vermişəm, mən də nəsə almamışdım. Buna üzləşdirmə olmadan hüquqi qiymət vermək olmaz”**

**“Mənim qarşıma seçim qoyulmuşdu, ya övladlarımı qurban verməli idim, ya da susmalı”**

**Siyasətə atılanın cinsi olmur. Qadınsan, ya kişi, fərq etməz, siyasətçisən, siyasətdəsənsə, deməli, varsan və ictimai fiqursan. Girişi olub, çıxışı olmayan oyundasan. Bir məqam da olur ki, alət eləyirlər səni. Daha böyük hədəfləri vurmaq üçün silah olursan. Təzyiqə də, tərifə də rast gəlirsən, xəyanətə də uğrayırsan, rəzalət də yaşayırsan. Sonra hamı üzünə gülümsəyir.**

Rəzaləti yaşadanlar da, səni alət edənlər də. Heç bəlli də olmur ki, günahın nə qədər idi. Ya da elə yaşadıqlarının hamısı qədər idi. Yəni talehin bu idi. Yenə də susursan, kimin səni hədəf seçdiyini də bilirsən. Bilə-bilə gülümsəməli olursan. Oyunların içindəsən, “mətbəxindəsən” deyə. Bəzən öz mətbəxində “vurulursan”. Məqsəd təkcə səni yıxmaq deyil. Hədəfə alan adamlar üçün sən ən xırda fiqursan. Əslində məqsəd daha böyük maraqları və fiqurları hədəfləməkdir. Sadəcə, hədəfdə daha kiçik fiqur görünməlidir ki, mahiyyəti aydın bəlli olmasın oyunların. Bir az belə idi onun situasiyası. Amma qəfil dəyişdi vəziyyət. Əslində qəfil olmadı bəlkə, adamlara qəfil olduğunu göstərdilər. İndi azadlıqda, amma bütün “qalaları” əldən vermiş təsiri bağışlayır. Olsun, əsas odur ki, ayağını yerə basa bildi o boyda siyasi skandalın ardından. Bəzən məəttəl də qalırsan, həmin hadisələrdən, sağlam çıxmağın sirri nədə idi? Doğrudanmı, ayaq üstədir ətrafındakı qalmaqaldan, skandallardan və həbs həyatından sonra keçmiş deputat Gülər Əhmədova? Elə bundan başladıq, mən daxil çoxuna maraqlı sualdan...

***- Doğrudanmı ayaq üstəsiniz?***

- Düzü yıxılmamışdım ki, ayağa da duram.

***- Həbsiniz yıxılmamış halınız idi?***

- Bəli. Həm də yıxılanın belə durmaq hüququ var. Mənə görə “necə durdu?” təlaşını yaşayanlar bunu bilməlidir: Bütün yıxılanlar, bir gün ayağa durur. Düzü, mənəvi yıxılsaydım, ağır gələrdi. Şükürlər olsun, elə yıxılmadım. Adamı güllələmək də olar, asıb edam eləyə də bilərlər, hər şeyini ala da bilərlər, hətta yandırarlar da, amma bu onun yıxılması anlamına gəlməz. Bu, öldürməkdir, yıxmaq yox.

***- Bəlkə “öldürüblər” deyək o zaman...***

- İkisi də Allahın işidir. Allah öldürməsə öldürmək, yıxmasa yıxmaq olmur. Bir də adamın özü var. Özünü ölmüş, yıxılmış bildinsə, məsələ bitmişdir.

***- Onda belə çıxır ki, Allah həm də adam haqda qərar verəndə, özünün özüylə bağlı qənaətinə baxır...***

- Birmənalı belə olduğunu düşünürəm. İnsanı yıxan da, qaldıran da özüdür. Kimsə kimsəni özü kimi “vura” bilməz. İnsanlar bir-birilərinə fiziki varlıq kimi baxırlar. İnsan həm də fiziki varlıqdır, təkcə fiziki varlıq deyil.

***- Çox maraqlı, zəngin çevrən olur. Düşünürsən, çoxlu sadiq dostlar, yaxşı insanlar, bir sözlə, hər şeylə əhatə olunmusan. Birdən ayılırsan ki, belə deyilmiş. Sizdə buna yaxın bir şey oldu, məncə. Bunu yaşamaq nə deməkdir?..***

- Heç vaxt heç kimdə yanılmamışam. Kimdə nə hiss eləmişəmsə, o adam həmin şeyi edib. Yəni əslində çevrədə kimin necə ola biləcəyini, necəliyini bilmişəm. Gözlədiyim adamlardan aşağı yuxarı, azca fərqlə elə gözlədiyim şeyləri gördüm.

***- Bunları əvvəlcədən bilə-bilə gülümsəmək nəyə lazım idi onda?***

- İndi də bilə-bilə gülümsəyirəm. Normal reaksiyadır. Mənim içimdə qəzəb, nifrət yoxdur. Avropa Məhkəməsini də, AŞPA-nı da yaxşı tanıyıram. AB-nin də işində iştirak etmişəm. AŞPA-nın iki il Azərbaycanda qadın hüquqları ilə bağlı milli koordinatoru da olmuşam. Hamısı boş şeydir. Bu ölkədəki hüquq müdafiəçilərini də tanıyıram. Fransa - Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri olmuşam zamanında. Sadalayıram ona görə ki, indi bunlar yoxdur. İndi mən burdayam, yerimdə, mövqeyimdə, əqidəmdə, həmənki adamam. Məndə nəsə dəyişməyib. Düzünü deyim adamlara baxırdım, bilirdim dar məqam olsa kim qaça bilər, kim qala bilər, kim üzə durar, kim eləmədiyim işə şahidlik eləyər. Yəni insanları proqnozlaşdırmaq mümkündür.

***- “O hadisələrdə” deyirəm bayaqdan. Yəni əslində sizə toxunmasını istəmirəm sözlərimin, amma daha əvəzləyici qalmadı, içəridə ixisasınız sizə nə qədər yardım edə bildi?***

- Çox. Bəzən bilirsinizmi necə olurdu? Bəzilərinin çıxışlarını eşidəndə gülürdüm. Soruşurdular nəyə gülürsən? Sən nə vəziyyətdəsən ki, gülürsən? Yəni hansı gününə gülürsən deyirdilər mənə. Deyirdim, vallah, ona gülürəm ki, mən bunun haqqında da düz fikirləşirəmmiş. Ona görə rahatam və gülürəm. Bəlkə bütün bildiklərimə görə rahat idim. İnsanların sənə nə eləməsindən asılı olub yerini dəyişməməlisən. Yerin günahı yoxdur. İşləri quran da, icra edən də insandır. Bir də konkret mənimlə bağlı bir məsələ var. Həmişə yerimi bilirdim. İnsan yerini biləndə, mövqeyi ona bəlli olanda heç vaxt dəyişmir. Nə olur-olsun, qaldığı yerdə qalır. Mən yerimi də, kimliyimi də bilən adam olmuşam həmişə.

***- Kimdir Gülər Əhmədova?***

- Əvvəla, hamı kimi Allahın yaratdığı bəndəyəm. Heç kimin qarşısında mənəm - mənəmlik etməmişəm. Bilirsiniz niyə? İnsan mənəm-mənəm deyəndə bitir. Mənim üçün özünü bitirmək qəbul olunmazdır. Tanıyanlar bilir ki, inanclı adamam. O üzdən Tanrı nə yaradıbsa, mən həm də onun yaratdığıyam.

***- Son zamanlar çox Tanrı, Allah deyirsiniz. Adama elə gəlir həbsdən qatı dindar Gülər Əhmədova çıxıb qarşımıza. Nədir bu din həvəsi?***

- Həmişə ibadət də eləmişəm, namaz da qılmışam. Sadəcə, bunu nümayiş etdirməmişəm. Həbsin bir tərəfi də bu oldu ki, bəzi görünməsini istəmədiyim tərəflərim ortaya çıxdı.

***- Baş verənlər sizin üçün nə idi əslində?***

- İmtahan.

***- Öz imtahanlarınızdan necə çıxdınız?***

- Mənə tərbiyə verənlər, formalaşdıranlar sağ olsun. Mən imtahanlardan yaxşı çıxmışam. Əslində yaxınlarım zaman-zaman belə əziyyətləri görüb. Ana qohumlarım 1937-ci ildə qolçomaq kimi repressiyalara məruz da qalıb, ölkədən də çıxarılıb, hər şeyi əllərindən də alınıb. Qohumları, sevdikləri gəlib üzlərinə də dayanıb. Yəni mənim başıma gələnlər gen olaraq nəslimdə qalan mirasımdır həm də. Təsəvvür edin evimizə gəlirdim. Görürdüm Şamaxıdan qonağımız gəlib, süfrə açılıb. Baxırdım bu adam nənəmin ailəsinin məhkəmələrdə üzünə duranlardan biridir. Amma qadın onunla elə gözəl söhbət eləyir ki, elə bilirsən heç bu qədər zülmü görən o olmayıb. Qonaqlar gedəndən sonra etiraz eləyirdim ki, bəs bunlara niyə süfrə açıb, yemək verirsən. Deyirdi bala dinmə, onu Allah ayağımıza gətirib. Mən ona nə lazımdırsa ürəyimdə deyirəm.

***- Nənənizi təkrarlayırsınız? Yəni indi siz də çox şeyi ürəyinizdə deyirsiniz?***

- O mənada demədim, yəni bu da bir taktikadır. Əslində söyləmək istədiyim bu idi ki, yaxşı böyükləri olmaq çox gözəl bir şeydir.

***- Sizin həbsinizin təkcə ictimai, siyasi yox, həm də mənəvi zərbələri var idi. Siz ən çox bu tərəfdən danışmaqdan qaçırsınız. Mən o üzdən əvvəldən soruşdum ki, gerçəkdən ayaq üstəsinizmi? Yəni gerçəkdən ayaq üstə olan adam danışmaqdan da imtina eləməz məntiqlə...***

- İmtina eləmirəm, danışıram. Amma bəzi şeylər var ki, təkrarlayanda yaxınlarım da görür, bilir. Onlara görə çox detallara varmıram.

***- Bir Elşad Abdullayev mübahisəsi var idi sizinlə bağlı. Yəni sözünü demişdi, ittihamlar səsləndirmişdi. Hədəfi siz idiniz. Niyə? Bu sualı sizə illər sonra verməyimin səbəbi bilirsinizmi nədir? O zamanlar sizin danışmaq imkanlarınız məhdud idi...***

- Məhdud deyildi, yox idi.

***- Necə yox idi?***

- Yəni bu o demək deyildi ki, kimsə əli ilə ağzımı qapamışdı. Sadəcə, situasiya elə idi ki, danışmamaq daha məqbul variant sayılırdı.

***- Niyə?***

- Övladlarımla təhdid olunurdum. Mənim qarşıma seçim qoyulmuşdu, ya övladlarımı qurban verməli idim, ya da susmalı. Övladlarımı seçdim, susdum, danışmadım.

***- Axı indi danışırsınız? Təhlükə sovuşubmu?***

- Hə, danışa bilərəm. O vaxt deməliydim ki, şərdir, deyə bilmirdim. Şər olduğunu sübut eləmək üçün minlərlə fakt var idi, açıqlaya bilmirdim. Mənimlə bağlı sübutlar hələ üzə çıxarılmayıb. Nədənsə çox əminəm, günlərin birində bütün bağlı qutular açılacaq. Çünki məni təhdid edənlərin hər biri cəza almış vəziyyətdədir.

***- Elşad Abdullayev məsələsinin üstündən keçdik axı deyəsən...***

- Yox keçmirəm, sadəcə, boş ittihamlar idi. Bilirsinizmi, mənim işimdə çoxlu epizodlar var ki, sübuta yetirilmədi, amma araşdırılmadı da. Konkret olaraq, Elşad Abdullayevin ifadəsi alınmadı, üzləşdirmə olmadı. O deyir mən vermişəm, mən də nəsə almamışdım. Buna üzləşdirmə olmadan hüquqi qiymət vermək olmaz. Bu epizod üzrə zərərçəkən yox idi. Məntiqlə zərər vuran də yox idi. Və dələduzluq maddəsi bura tətbiq olunmamalıydı. Sonra cinayətin törədildiyi məkan, yəni pulun verildiyi yer məlum olmadı. Eləcə bildirildi ki, Bakı şəhərində olub. Halbuki konkret ünvan da, dəqiq zaman da qanuna görə mütləq göstərilməli idi. Bu da yoxdur. Yəni ümumiləşdirilmiş məsələlər idi. Detallar nə izah olundu, nə də göstərildi. Əslində özləri ittihamı bu cür yazmışdılar. Çünki bütün mobil operatorlardan alınan hesabatlarda göstərilən müddətdə cinayətdə adıçəkilən tərəflərin eyni zamanda və eyni məkanda görüşlərinin olduğu təsdiqlənməmişdi. Ona görə ümumiləşdirilmiş bir şey yazıb vəziyyətdən çıxmaq lazım idi. Bir kəsişmə nöqtəsi tapa bilmədilər. Mənim cinayət işimdə zaman, məkan və saatla bağlı ciddi uyğunsuzluqlar var idi. Heç biri bu günə qədər araşdırılmayıb. Sonra demişdim çəkiliş montajdır, əsli gətirilsin, gətirilmədi. Dedilər guya söyüş var, ona görə montaj olunub. Mən də, ailəm də dedik ki, biz o söyüşü qəbul eləyirik, açın eşidilsin, gətirmədilər, çünki elə bir şey olmamışdı. Düzü, heç olub-olmadığını da araşdırmadılar. Axırda özləri əmin oldular, bildilər ki, kimisə “vurmaq” üçün qurulan siyasi oyun idi. Amma bunu etiraf eləmədilər. Yəni mən nə demişəmsə, bu gün də onu deyirəm. Dörd şahidini çağırdılar Elşadın, biri təsdiqləmədi ki, belə şeyə şahid olub. Nə isə başdan ayağa düzüb-qoşulmuş oyun idi.

***- Kimlər üçün qurulmuşdu bu oyun?***

- Dövlət adamları üçün.

***- Bir az da konkretləşdirsək...***

- Ad çəkmək istəmirəm. Böyük nüfuz sahibləri üçün, dövlətin rəhbərliyi üçün, həm də dövləti sarsıtmaq məqsədilə qurulmuşdu. Bu gün görün nələr baş verir. İndi baş verənlərin kökü Elşad Abdullayevdən başladı. Məhkəməm olmamış ATƏT məsələmlə bağlı rəsmi bəyanat yaydı. Bəzi müxalifətçilər də o bəyanata uyğun çıxışlar edib adamları çaşdırdılar. Bu gün həmən oyunları daha yüksək səviyyədə aparırlar.

***- Yəni belə çıxır ki, o oyunun ən kiçik fiquru siz olduğunuz üçün sizi qurban verib situasiyanı tənzimlədilər?***

- Söhbət kiçik və ya böyük olmaqdan getmir. Mən daha müdafiəsiz idim. Məni müdafiə edən olmadı. Məni eşidən olmadı. Mənim həqiqətlərimə qulaq asan olmadı. Bəlkə də həmin dövrdə bu oyunun xaricdən idarə olunduğu o qədər görünmürdü. Ancaq bu, Azərbaycan dövlətçiliyi üçün qurulmuş oyunun başlanğıcı idi. Şantajlara boyun əysəydim, oyun daha sürətli inkişaf edərdi. Ancaq dözməklə oyunu xeyli ləngitdim.

***- Bəlkə lazımi qədər demirdiniz?***

- Deyirdim. Çəkinmirdim, sadəcə, başa düşürdüm ki, elə vəziyyətlər var, orda danışmaqdan çox, susmaq lazımdır. Bəzi həqiqətləri zamanı gəlincə üzə çıxarmaq mümkün olur, anında bu, qeyri-mümkün bir şeydir. Düzdür, bu, son dərəcə ağır və ağrılı prosesdir, amma başqa yol yoxdur. Ona görə necə bilirdilər elə elədilər. Eləmək istədikləri də həbsimi reallaşdırmaq idi. Sizə bir söz də deyim. O vaxt mən Avropa məhkəməsinə müraciət etsəydim, çoxdan bəraət almışdım. Bu qədər müddət içəridə qalmağıma da ehtiyac olmazdı onda.

***- Edəydiniz, nə mane olurdu ki?***

*(davamı var)*

❑ **Jalə Mütəllimova**



# Nikbin cümə axşamı

Zamin HACI
zaminhaci@gmail.com

*“Pessimist və optimist söhbətləşir. Pessimist deyir: Belə də həyat olar? Hər səhər oyanırsan, orda terror, burda yanğın, filan yerdə təyyarə düşdü, yol qəzası oldu, behmənkəsi öldürdülər...*

*Optimist:*

*Sən şükür elə, bəziləri heç səhər oyanmır".*

*(lətifə)*

**Necə deyərlər, müsbət şeyləri də görməliyik, hazırda azı 2 müsbət hadisə baş verməkdədir. Torpaq uğrunda ölən əsgərlərin ailəsinə ödənməli 11 min manatın, nəhayət, verilməsi haqda sərəncam çıxdı. Bu, o qədər çoxdandan qalmış sığorta puludur ki, hətta artıq mənası da bir qədər azalmış kimi görünür. 1997-ci ilədək ölən əsgərlərin ailəsindən kim sığorta almayıbsa, bu pulu alacaqdır. Lakin, deyinmək olmasın, 11 min manat indi həyat sığortası, əsgərin qan pulu kimi balaca rəqəm deyilmi? Bəlkə o zamanlar, iki devalvasiyadan, iki rəqəmlik inflyasiyadan qabaq verilsəydi, önəmi çox olardı. Ancaq buna da şükür, dövlət verən atın dişinə baxmazlar. Verməsələr, neyləyəcəkdik? Necə ki, indiyə qədər vermirdilər.**

İkinci müsbət hadisə, nəhayət, ölkəmizin plastik və metal su qabları zibilindən qurtulması ehtimalıdır. Bir şirkət Almaniyadan qurğular gətiribdir, boş su qablarını ora atıb əvəzində pul almaq mümkün olacaqdır. Çox sevindirici haldır. Çünki şəhəri zibildən təmizləmək üçün insanlarda nəsə maddi maraq oyatmaq da vacibdir - hər kəsin mədəni səviyyəsi, ictimai şüuru, ekoloji qanacağı eyni olmur. Napoleon demişdir: “İnsanları hərəkətə gətirən iki şey vardır. Maddi maraq və şöhrət hissi”. Bizimki şöhrətdən keçib, heç olmazsa maddi maraq lazımdır. Avropada bu cür zibil qabları çoxdan, uğurla tətbiq olunmaqdadır.

Avropa demişkən, “Yeni Müsavat”da Danimarkada yaşayan azərbaycanlı həkim Məsud müəllimin intervüsünü oxudum, orada həmyerlimiz də Azərbaycanın çağdaş dünyaya inteqrasiyası baxımından ümidli olduğunu açıqlamışdı və belə maraqlı bir fikir işlətmişdi: “Azərbaycanlılar tədricən daha mütəşəkkil olurlar. Hətta avtobuslar cədvəl üzrə hərəkət edəndə beyinlərdə inqilab baş verir. Addım-addım, 10-20 il sonra azərbaycanlılar tam başqa, yəni daha yaxşı olacaqlar”.

Tamamilə doğru fikirlərdir. Əgər fikir versəniz, son illər bir çox avtobus marşrutlarının dəqiq qrafikə keçməsi, ancaq dayanacaqlarda saxlamaq sistemi bir növ cəmiyyətdə intizamı artırır. Bundan narazı olan, sürücülərlə dava edənlər tapılsa da, beləlləri gündən-günə azalır. Qanunlara aşağıdan əməl etməyə başlamaq, sosiallığın istər-istəməz artması yuxarılarda da dəyişikliyə gətirəcəkdir. Biz neçə illər qabaq “Qloballaşma sunamidir, dünyanın inkişafı məcburən bizi də qabağına qatıb tərəqqiyə aparacaqdır” deyərkən elə bunları nəzərdə tuturduq. Bu gün avtobusun vaxtında gəldiyini görən, boş butulkanı isə zibil qabına atmağa öyrəşən adam sabah bələdiyyəni də özü seçmək istəyəcəkdir, çünki onun artıq “icra hakimiyyəti”, “dövlət aparatı”, “uçaskovi, JEK”, nə bilim, “rəisin şoferi” tipli mexanizmlərə, alətlərə ehtiyacı olmur.

Sözgəlişi, yuxarıda adını çəkdiyimiz doktorun Beynəlxalq Baş ağrıları Cəmiyyətinin sədri seçilməsi də, ironiya ilahəsi deyir ki, elə bizim dünyada daim başımızdan ağrının əskik olmaması ilə əlaqəlidir. Biz bu işin bilicisiyik (Hərçənd, dəli şeytan da bu biri yandan dürtmələyir, deyir, həkim qarın ağrısı cəmiyyətinə sədr seçilsə, o zaman da yazacaqdın, bizim qarnımız daim ağrıyır. Lənət şeytana, məncə o, haqlıdır). Tarixən başımız bəlalar içərisində olmuşdur, heç indi də bir düz-əməlli qonşu sarıdan yarımamışıq. Örnək üçün, Avropadan mədəniyyət gözlədiyimiz anda cənubdan səhra qəbilələri gəlirlər və sanki özləri ilə qum fırtınası gətirirlər. Dünən Ekologiya Nazirliyi deyirdi ki, Bakıda havada 30 faiz toz vardır. Tozanaq bəlkə də seçkilərin tozanağıdır, hələ indi qalxmışdır.

Ermənilər isə üzərimizdə qazandıqları Pirr qələbəsinin meyvələrini yeməkdədirlər - neçə illərdir öz aralarında boğuşmaqdadırlar. Bu da bir daha isbat edir ki, başqasının faciəsi üzərində xoşbəxtlik qura bilməzsən (Cümə axşamının təsiridir, adamda hər cür mistik-fatalist duyğular oyanır).



# İrəvanda nə baş verir: “məxməri inqilab”, yoxsa tamaşa?

## Ermənistan hakimiyyətinin davranışları, “demokratiya” görüntüsü yaratmaq cəhdləri şübhələr yaradır; **ermənişünas alim:** “Qərbin Ermənistanda rəngli inqilab etmək kimi bir fikri yoxdur”

**Aprelin 19-da səhər saatlarından etibarən İrəvanın Respublika meydanında etiraz aksiyalarına yenidən start verilib. Bundan əvvəlki gün keçirilən aksiyalar isə gecə yarısına qədər davam edəndən sonra etirazların başında dayanan Nikol Paşinyan “evə” komandasını vermişdi.**

N.Paşinyan jurnalistlərə açıqlama verərək, polisin etirazçılara qarşı silahdan istifadə etmək haqqının olmadığını bildirib. Qeyd edək ki, Rusiya mediası şəhərə Dağlıq Qarabağdan tanklar gətirildiyi haqqında məlumat yayıb. Serj Sərkisyan bu etirazların ölkə iqtisadiyyatına mənfi təsir etdiyini bildirib (Axar.az).

İrəvan polisi mitinq iştirakçılarının gözlənilməz istiqamətlərdə hərəkətlərilə bağlı bəyanatını “ciddi təhlükə” adlandırıb. Polisdən bildirilib ki, dövlət idarələri xüsusi qorunan obyektlər hesab olunur və polislərin də vəzifəsi həmin obyektləri təhlükə olacağı təqdirdə, silah gücünə də olsa, qorumaqdır:

“Vətəndaşları, aksiyalarda iştirak edən yeniyetmələri, onların valideynlərini ayıq-sayıq olmağa, aksiya təşkilatçılarının çağırışlarına məhəl qoymamağa çağırırıq”. Paşinyan və tərəfdarları yürüş zamanı “Surmalu” və “Petak” ticarət mərkəzinə daxil olub. Polis kardonunu yararaq içəri girməyə nail olan Paşinyan tacirləri tətilə çağırıb və Respublika meydanında növbəti böyük mitinqin olacağını bildirib. Həmçinin etirazçılar Qaregin Njde meydanına gəliblər. Onlara avtomobil sürücüləri dəstək veriblər. Aksiya iştirakçıları Serj Sərkisyanın üstünə qara lent bağlanmış portretini də qaldırıblar. Sərkisyanın portreti etirazçılar tərəfindən tərsinə tutulmuş vəziyyətdə daşınıb.

Bütün bu gərginliklərin fonunda Ermənistan hakimiyyətinin özünü “təmkinli” aparması ciddi şübhələr doğurur. Üstəlik, Ermənistanın yeni prezidenti Armen Sərkisyanın da aksiyaları, sadəcə, müşahidə etməsi maraqlıdır. Bəzi ekspertlər baş verənlərin arxasında Kremlin dayandığını güman etsə də, Putinin S.Sərkisyan baş nazir seçiləndən bir neçə saat sonra ona telefon açıb təbrik etməsi, üstəlik, “Rusiyanın adamı” Karen Karapetyanın S.Sərkisyanın birinci müavini təyin edilməsi və s. müşahidələr səslənən versiyada o qədər də həqiqət payının olmadığını ortaya çıxartdı.

Belə olan təqdirdə Ermənistan müxalifətinin arxasında Qərb dairələrinin dayana biləcəyi ehtimalını səsləndirmək mümkündür, amma müşahidələr burada da şübhəli məqamların olduğunu deməyə əsas yaradır. Məsələ burasındadır ki, ABŞ başda olmaqla, Qərbdən İrəvandakı aksiyalara birmənalı dəstək yoxdur. Üstəlik, ABŞ öz vətəndaşlarına Ermənistanda baş verənlərlə bağlı xəbərdarlıq edib.

Hakim Respublika Partiyasının deputatı Qaqik Minasyanın açıqlaması Ermənistandakı etirazların ssenariləşdirilmiş teatr olduğunu söyləməyə əsas verir. O, Sərkisyana qarşı etiraz aksiyalarının ölkənin beynəlxalq imicinə müsbət təsir göstərdiyini deyib (Modern.az). “Paytaxtdakı aksiyalar, əgər qanun pozulmursa, Ermənistanın beynəlxalq imicini yüksəldir”. Onun fikrincə, aksiyaların zorakılığa keçməsi arzuolunmazdır. Elə aksiyaların keçirildiyi günlərdə prezident Armen Sərkisyanın Ermənistanla Avropa İttifaqı arasında müqaviləni imzalaması da maraqlı gedişdir. Ermənistan hakimiyyəti fasiləsiz aksiyalarla “demokratiya” görüntüsü yaratmaq, eyni zamanda “müsbət imicə malik ölkə” kimi Avropanın gözünə girmək istəyir.

Düzdür, Paşinyan ölkədə “məxməri inqilab”ın başlandığını elan edib. Lakin S.Sərkisyan kimi qaniçən məxməri inqilabın real olduğunu bilsə, günlərlə davam edən aksiyalara dözməzdi. Rus tarixçisi Andrey Zubov kimiləri də “Ermənistanda bir inqilab var. Serj Sərkisyan erməniləri öz yalanları, ”əbədi hakimiyyəti" və kriminal avtoritetlərlə əlaqələri ilə bezdirib"-kimi statuslar yazırlar. Lakin S.Sərkisyanın hətta 2016-cı ilin aprel döyüşlərindən sonra erməni xalqının qəzəbini səngitmək üçün polis alayını ələ keçirən “silahlı qiyamçılar”la bağlı hazırladığı tamaşanı heç kim unutmayıb. Tamamilə mümkündür ki, keçmiş məhbus, indiki deputat, İcevan ermənisi N.Paşinyan özü də bu tamaşada baş rol alıb, yaxud, sadəcə, onun bu tamaşanı oynamasına müəyyən dövr üçün şans yaradılıb. Xatırladaq ki, N.Paşinyan S.Sərkisyanın əzəli rəqibi Levon Ter-Petrosyanla yollarını ayıran birisidir. Belə ki, o, 2013-cü ildə Ter-Petrosyanla aralarında yaranmış mübahisə nəticəsində Konqresi tərk edib və “Vətəndaş razılaşması” Partiyasına üzv olub.

2016-cı ildə isə “Vətəndaş razılaşması”da daxil olduğu “Yelk” (Çıxış) blokunun tərkibində parlamentə seçilib. O da ola bilər ki, Paşinyan elə Sərkisyanın əlinə oynasın. Ümumiləşdirsək, 2008-ci ildə qanla hakimiyyəti qəsb edən Serj Sərkisyanın “məxməri inqilab” edənlərə tab gətirməsi inandırıcı görünmür. Deməli, bu hadisələr onun özü üçün də lazımdır.

**Ermənişünas alim Qafar Çaxmaqlı** “Yeni Müsavat”a bildirdi ki, Serj Sərkisyan qan tökməklə də olsa, bu aksiyanın iğtişaşlara dönməsinin qarşısını alacaq: “Əks təqdirdə aksiya böyüyəcək və ölkənin bütün regionlarını əhatə edəcək. Aksiyaların daha da genişlənməsi hakimiyyəti istər-istəməz sərt qərarlar qəbul etməyə sövq edəcək. Serj Sərkısyan qan tökməklə də olsa, bu iğtişaşları yatırmaq istəyəcək”.

Q.Çaxmaqlının fikrincə, Ermənistan paytaxtındakı hadisələr oyuna bənzəmir və “Yelk” Partiyası özünü müxalifət kimi təsdiq etmək üçün münasib fürsəti dəyərləndirir: “Ermənistanda Raffi Hovvanisyan və Ter-Petrosyanın başında dayandığı Ermənistan Milli Konqresindən sonra ortada xalqı öz arxasınca aparacaq və onu devirmək gücündə olan bir qüvvə, hələ ki, yoxdur. Paşinyan 2008-ci ildə həbs olunandan sonra qəhrəmana çevrilib, Qərb də onu əsas dirənişçi güc olaraq hazırlayır. Amma Qərbin Ermənistanda rəngli inqilab etmək kimi bir fikri yoxdur, inqilabın olmasına da yardım etmək imkanı məhduddur”.

Ekspert təsdiqlədi ki, Moskva Serj Sərkisyanın arxasında olduğunu Putinin təbriki ilə bir daha təsdiqlədi: “Ermənistanda hakimiyyət dəyişikliyi Rusiyanın icazəsi olmadan mümkün deyil. Heç şübhəsiz ki, bunun qarşılığında Sərkisyan Rusiyanın siyasəti nədirsə, onu da həyata keçirəcək. Rusiyanın siyasəti Ermənistanla bağlı nədir? Ermənistan Yaxın Şərqə ən yaxın ölkə olaraq Rusiyaya, hələ ki, lazımdır. Burada Rusiyanın hərbi bazası var və bundan sonra da qalacaq. Deməli, Moskva Ermənistanı özünün strateji ortağı olaraq görəcək”.

Q.Çaxmaqlı əlavə etdi ki, Rusiya Dağlıq Qarabağ məsələsinin həllini ermənilərin istəyindən kənarda heç zaman görmür. Üstəlik, özünün mənafeləri baxımından bəzi dəyişikliklərə gedə bilər: “Azərbaycanın ərazi bütövlüyü çərçivəsində məsələnin həllinin başqa alternativinin olmamasını irəli sürən Rusiyadır, eyni zamanda xalqların öz müqəddəratını təyinetmə haqqını da önə sürən və Minsk Qrupunun digər həmsədrləri ilə birlikdə buna çalışan Rusiyadır. Bu iğtişaşların böyüməsi təqdirində Rusiya özü müdaxilə edəcək. İğtişaşların böyüməsi və Dağlıq Qarabağda olan texnikaların, tankların Ermənistana göndərilməsi təqdirində, əlbəttə, Azərbaycanın öz torpaqlarını işğaldan azad etmək imkanı yarana bilər, amma mən buna az ehtimal verirəm. Çünki Rusiya bizim arzu etdiyimiz qədər zəif deyil, hələ Yaxın Şərqdə başı o dərəcədə qarışmayıb. Hər halda bu olayları ciddi izləməli, ondan necə yararlanacağımızı yaxşı oxumalıyıq və münasib məqamı gözləməliyik. Artıq bir çox səviyyələrdə də səsləndirilir ki, məsələnin sülh yolu ilə həll edilmə perspektivi azalmaqdadır. Dünyada gedən proseslər də göstərir ki, hər şeyi silah və güc həll edir”.

❑ **E.PAŞASOY,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 85 (6974) 20 aprel 2018

**İki ay sonra, iyunun 24-də Türkiyədə növbədənkənar parlament və prezident seçkiləri təyin edilməsi qardaş ölkənin siyasi səhnəsində zəlzələ effekti verib və ortaya çoxsaylı suallar çıxarıb. Bəs, Ərdoğan iqtidarının növbədənkənar seçkilərə getməsi hansı zərurətdən yaranıb?**



# Türkiyə üçün Azərbaycan ssenarisi hazırlanıbmış

## Sülhəddin Əkbər: "Türkiyəyə müdaxilə etməyə hazırlaşan xarici güc mərkəzləri fors-major vəziyyətinə düşdü"

**Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər** bildirdi ki, Türkiyədə 2016-cı ildə baş vermiş 15 iyul hadisəsindən sonra çox ciddi proseslər gedir və növbədənkənar seçkilər qərarında bu proseslərin də rolu var. Türkiyə "dərin dövlət"i, nəhayət ki, Türkiyədə, sözün həqiqi mənasında, müstəqil milli dövlət qurulması işinə start verib. AKP ilə MHP-nin yaxınlaşması da, məncə, "dərin dövlət"in tövsiyəsi ilədir. Xatırlayırsınızsa, 15 iyul hadisələrindən sonra MHP ilə AKP arasında çox sıx yaxınlaşma başladı. Ardınca Dövlət Baxçalı tərəfindən prezident üsul-idarəçiliyinə keçidlə bağlı təklif ortaya çıxdı, sonra referendum keçirildi. Referendumdan sonra növbədənkənar seçkilərin ola biləcəyi gözlənilirdi. Regionda ciddi hadisələr baş verdi, əvvəlcə Türkiyənin "Fərat qalxanı" əməliyyatı, ardınca "Zeytun budağı" əməliyyatı həyata keçirildi. Türkiyəyə qarşı iqtisadi-maliyyə sahəsində hücumlar olurdu və bir qeyri-müəyyənlik yaradılması istənilirdi. Mənə belə gəlir ki, erkən seçki qərarı "dərin dövlət" tərəfindən əldə MHP-AKP razılaşmasına dayanır. Necə ki, prezident üsul-idarəsinə keçid MHP tərəfindən təşəbbüs olaraq irəli sürülmüşdü, erkən seçimlər təşəbbüsü də MHP lideri tərəfindən irəli sürüldü. Başlıca məqsəd həm Türkiyə daxilində, həm də Türkiyə ətrafında sabitliyə nail olmaqdır. Ölkə daxilində möhkəm sabitlik əldə olunarsa və bu, AKP-MHP ittifaqına, millətçi və islamçı kəsimin geniş tabanına dayanarsa, Türkiyə həqiqi dövlətçilik, quruculuq istiqamətində daha irəli gedər. Xüsusən sosial-iqtisadi, hərbi, kəşfiyyat təhlükəsizlik sahəsində çox ciddi işlərin görülməsinə ehtiyac var".

**"Bəzi təhlilçilər isə iddia edir ki, Türkiyə iqtidarı ölkədə iqtisadi, sosial durumun getdikcə ağırlaşmaqda olduğunu və 2019-cu ilin noyabrına qədər onun üçün əlverişsiz vəziyyətin yarana biləcəyi ehtimalını göz önünə alaraq erkən seçimlərə getdi. Bu iddialar nə dərəcədə əsaslıdır"** sualına S.Əkbər belə cavab verdi: "Bu iddia həqiqətdən uzaqdır. Çünki Türkiyədə iqtisadi böyümə gözlənilənin də üzərindədir. Ona görə də burada sosial-iqtisadi səbəblər axtarmaq yanlışdır. Türkiyə maliyyə-iqtisadi hücumları çox uğurla dəf edə bilib".

**"Eyni vaxtda iki mühüm seçkinin keçirilməsi Türkiyə siyasi həyatını gərginləşdirə bilərmi"** sualını isə AzDP sədri belə cavablandırdı: "Ölkədə gərginliyin yaranmasında xarici qüvvələr həmişə maraqlıdırlar. Türkiyənin daxilində gərginliklər yaranmasına ciddi hazırlıq gedirdi və hədəf kimi 2019-cu ilin noyabrında keçiriləcək prezident seçkiləri dövrü seçilmişdi. Türkiyə "dərin dövləti", AKP-MHP ittifaqı erkən seçkilərə getməklə bu planı qurarnları, Türkiyəyə müdaxilə etməyə hazırlaşan xarici güc mərkəzlərini və onların daxildəki uzantılarını fors-major vəziyyətinə saldı. Onlar xüsusi uzunmüddətli və hərtərfli hazırlıq görmək imkanlarından məhrum oldular". *Yada salaq ki, Azərbaycanda seçkinin vaxtının irəli çəkilməsi bu kimi "xarici faktorlarla" izah edilirdi.*

S.Əkbər bildirdi ki, istənilən halda həm prezident, həm də parlament seçkilərini AKP-MHP ittifaqı qazanacaq: "Prezident seçkilərində ən şanslı Ərdoğan görünür. Ən son rəy sorğularında Ərdoğan 55 faizlə yenə irəlidə idi. AKP-MHP ittifaqının namizədi kimi Ərdoğanın qalib gələcəyini düşünürəm. Parlament seçkilərində AKP-nin birinci yerdə olacağını, MHP-nin yaxşı nəticə göstərəcəyini, CHP-nin səslərinin azalacağını düşünürəm. Meral Akşenerin yeni yaratdığı İyi Partiyanın seçkiyə buraxılıb-buraxılmayacağı hələ sual altındadır. Əgər onlar hər hansı bir ittifaqla seçkiyə gedərlərsə, bu onlar üçün daha uğurlu olar. Prezident seçkiləri o halda hakimiyyət üçün gərgin keçə bilər ki, bütün müxalifət birləşib keçmiş prezident Abdullah Gülün namizədliyini irəli sürmüş olsunlar. Kürd faktoruna gəlincə, məncə, AKP-yə səs verən kürdlərin sayı artacaq. Bu, HDP-nin effektli siyasi qüvvə kimi sıradan çıxması, PKK-ya qarşı effektiv mübarizə ilə, digər tərəfdən də Türkiyənin cənub-şərqində görülən sosial-iqtisadi tədbirlərlə bağlıdır".

**"Türkiyəni istəməyən xarici güclər və onların daxildəki uzantıları seçki dönəmində ölkədə terror dalğası başlada bilərlərmi?"** sualına isə S.Əkbər belə cavab verdi: "Buna ən azı cəhd edəcəklər. Terror hadisələrinə də, sosial sahədə gərginlik yaratmağa da cəhd edəcəklər, maliyyə və kiber hücumlar ola bilər. Amma cəhdlərin nəticə verəcəyini düşünmürəm".

**Politoloq Şahin Cəfərli** isə hesab edir ki, erkən seçkilərə gedilməsinin bir neçə ciddi səbəbi var: "Açıq görünür ki, ölkədə iqtisadi böhran dərinləşərək davam edəcək. İqtidarın müttəfiqi olan Baxçalı açıq söylədi ki, Türkiyənin seçkilərin normal vaxtına-2019-cu ilin noyabrına qədər davam gətirməsi mümkün deyil. Ona görə də Ərdoğana sərf edirdi ki, vəziyyət daha da pisləşmədən, ən qısa müddətdə seçki keçirib, daha 5 il müddətinə iqtidarını qorusun. Seçkiyə qədər, yəqin ki, əldə olan qaynaqlardan maksimum istifadə olunaraq vəziyyətin ağırlaşmasının qarşısı alınacaq və seçkilərin nisbətən əlverişli durumda gerçəkləşməsi təmin olunacaq.

İkinci səbəb prezident və parlament seçkilərinin 31 mart 2019-cu il bələdiyyə seçkilərindən sonra keçirilməsinin iqtidar üçün daşıdığı risklərlə bağlıdır. Bələdiyyə seçkilərinə AKP ilə MHP ayrı-ayrılıqda gedəcək, yeni rəqib olacaqlar. Bu isə yerlərdə iki partiyanın namizədləri, fəalları arasında gərginlik yaradacaq. Prezident və parlament seçkiləri öncəsində ittifaqda çat, sosial bazada narazılıq, demotivasiya yarada biləcək belə bir rəqabət arzuolunan deyil.

Üçüncü səbəb İyi Partiya amili ilə bağlıdır. İyi Partiyanın seçkiyə qatılmaqla bağlı probleminə gəldikdə isə, özlərinin dediyinə görə, ilk qurultay 10 dekabr 2017-ci ildə keçirildiyi üçün belə bir problem yoxdur. Qanunun tələb etdiyi 6 aylıq müddət iyunun 24-nə qədər tamamlanmış olur. Hətta partiya seçkiyə buraxılmasa belə, bu qadağanı aşmaq üçün imkanlar var. Başqa partiyanın tərkibində (məsələn, Səadət və ya Demokrat partiyaları) seçkiyə qatılmaq mümkündür. Böyük ehtimalla bu 3 partiya ittifaq yaradacaq və güclü sağ alternativ kimi AKP-MHP ittifaqının qarşısına çıxacaq".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

---

# Müasir qəbilələrin yaşam savaşı



**Xalid KAZIMLI**

**Azərbaycan o tipli ölkələrdəndir ki, dövlət postu, böyük vəzifə tutmaq hər şey deməkdir.**

Belə ölkələrdə vəzifə maddi rifahın, komfortun, kalorinin, sərvətin açarıdır.

Böyük vəzifən varsa, güclü biznesin, böyük hörmətin, geniş nüfuzun olacaq.

Adamın tək özü, ailəsi yox, yaxın qohum-əqrəbası, dost-tanışı, həmkəndliləri, hətta doğulduğu mahalın adamları da o vəzifədən yararlanacaq.

Bu, vəzifənin böyük-kiçikliyinə bağlıdır. Kiçik vəzifələr bir ailə, qohum-əqrəba, kənd-kəsək üçün faydalıdırsa, böyük vəzifələr (məsələn, nazir, komitə sədri) bütöv bir mahal üçün faydalı olur.

Hansısa bir dövlət strukturunda adi gözətçidən tutmuş ta komitə sədrinin müavinlərinə, sədrin özünə qədər yüzlərlə eloğlunun yerləşdirilməsinin başqa izahatı yoxdur. Bu lüksü onlar məhz bir yerlipərəst vəzifəli şəxs yaradıb və bu, ənənəyə çevrilib.

Yüksək vəzifə həm də toxunulmazlıq deməkdir. Ali rütbəli, böyük vəzifəli şəxs ağzını dövlət büdcəsindən çıxan krantların birinə dayayıb sorduqca sora, sümürdükcə sümürə bilər, heç kəs ona "dur" deməyəcək.

Əgər adam ağıllıdırsa, vaxtında özü dayana bilərsə, yaxud da şişmiş halıyla daha böyük krantlara iştahla baxmayacaqsa, başına zaval gəlməyəcək. Ancaq özünü yığışdırmasa, bir gün başına qapazı çəkəcək, yediklərinin hamısını olmasa da, çoxunu qusduracaqlar.

Təcrübə göstərir ki, bu aqibət hər beş şişmişdən birinin başına gəlir, qalan dördü özünü ağıllı aparır, bir küncə, guşəyə çəkilib yığdığı milyonları incik-incik sinirməklə məşğul olur.

Onlar ona görə incik düşürlər ki, artıq qurub-yaratmış olduqları saray öz əyan-əşrəfi ilə birlikdə əllərindən çıxıb, milyonlarını artıra bilmirlər, pul üstünə pul gəlmir, ya da az gəlir, bizneslərində çöküş və əlqoyma proseduru başlayıb, təntənəli qəbullara dəvət olunmurlar və s.

Bax, buna görə belə ölkələrdə yüksək vəzifənin qədir-qiyməti başqadır. O varsa, hər şeyin var, yoxdursa, çox şeyin olsa da, sabah onların əlində qalacağına təminat yoxdur.

Neçə vaxtdır izləyirik, vəzifədən çıxarılan nazirlərlə bağlı mediada bu cür, heç də əsassız olmayan xəbərlər yayılır: "Sabiq nazirin obyektləri əlindən alınır"; "Keçmiş nazir 10 milyonluq mülkünü satlığa çıxarıb"; "Məmmədovun bahalı maşınları (yaxtaları) satılır" və sair və ilaxır.

Ancaq vəzifəyə yeni təyin olunanlarla bağlı durum başqadır. Dünənə qədər, xüsusilə də kasıb tələbə olanda özünü kimsəsiz yetim kimi hiss edən bugünkü nazirin qohumları, dost-tanışları, orta məktəb, universitet, əsgərlik yoldaşları, çaydan keçəndə onunla yüngül təmaslarda olmuş yüzlərlə adam səfərbər olunur, onun ətrafında sıx birləşməyə çalışır.

Əlbəttə, gecikən, bəxti gətirməyib qıraqda qalanlar da olur, ancaq əksəriyyət cənab nazirlə şəxsi tanışlıqlarından bəhrələnə bilir, onun başçılıq etdiyi iyerarxiya pilləsində öz yerlərini tutur, dövlətçiliyə, daha dəqiqi, şəxsi var-dövlətçiliyə xidmətə başlayırlar.

Bəs onlar kimlərin yerini tutur? Təbii ki, sabiq nazirin rəhbərlik etdiyi klana məxsus kadrların.

Bir klan gedir, yerinə başqa klan gəlir.

Bu ölkədə nazir (komitə sədri, rəis və s.) dəyişikliyi sırf bu üzdən şövqlü, maraqlı, eyni zamanda ağrı-acılı hadisədir.

Bu, çox şeyini itirmək istəməyənlərlə, çox şey əldə etmək istəyənlərin məxməri savaşıdır. Heç kəs əlinə silah götürüb düşmən qəbilənin üstünə hücum etmir, amma bir-birinə ölüm də arzulayırlar, hər cür pislik də. Əllərindən gəldiyi qədər də mərdiməzarlıq edirlər - mediaya ifşaedici xəbər ötürməkdən tutmuş torba tikməyə qədər.

Neçə gündür sosial şəbəkədə və mediada istefaya çıxmış nazirlərin hansının öz köhnə vəzifəsinə təyin ediləcəyi, hansının təyin edilməyəcəyi məsələsinin müzakirə olunması, bu müzakirələrin bunca maraqlı olması məhz yuxarıda bəhs etdiyimiz səbəblərə bağlıdır.

Bu, nazir olub da dövlətə, xalqa xidmət etməklə bağlı məsələ deyil, bu, klanlar arasındakı "yaşayış uğrunda gedən ibtidai mübarizə"nin müasir təzahürüdür.

YENİ MÜSAVAT
N 85 (6974) 20 aprel 2018

# Şeyxin seçki dövründə görünməməsinin sirri

## QMİ sədri kimdən və niyə incikdir...

**Aprelin 18-də, prezidentin andiçmə mərasimində QMİ sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə də iştirak edib. Milli Məclisdə Şeyxülislam ön sırada olub. Bu hadisə ona görə diqqətimizi çəkdi ki, hörmətli Şeyx son zamanlar, ümumiyyətlə, “göz önündə” olmur. Göründüyü zaman isə verdiyi açıqlamalar, bir qayda olaraq narazı və əsəbi tonda olur. QMİ-dəki son tədbirdə olduğu kimi.**



Xatırladaq ki, martın sonlarında dini idarədə keçirilən tədbirdə Şeyx sükutu pozub və özü haqda yazılan yazılara və söylənən ittihamlara münasibət bildirib. Çünki prezident seçkiləri kampaniyasında namizədlərdən bəziləri, konkret olaraq Hafiz Hacıyev ittiham etdiyi rəsmilər arasında Şeyxin də adı olub. Hacıyev Şeyxin Çexiyadakı mülklərindən danışıb.

Ancaq Şeyx QMİ-dəki çıxışı zamanı, təbii ki, ad çəkməyib. QMİ sədri deyib ki, onun 150 hektar torpağı, xaricdə və ölkədəki villaları ilə bağlı yayılan məlumatlar iftiradır, nəzir qutuları ilə bağlı yayılan məlumatlar da həqiqəti əks etdirmir. O, nəzir qutuları ilə hər hansı əlaqəsinin olmadığını da deyib. Eyni zamanda şikayətlənib ki, niyə yalnız onu hədəfə alırlar? Bildirib ki, bununla bağlı ölkə başçısı ilə də söhbəti olub: “Gizlətmirəm, mənim prezidentlə söhbətlərim olur. Onda da heyrətimi gizlətmirəm ki, bu qədər iftiranın səbəbi nədir. Deyirlər, şeyxin xaricdə, ya da burda çoxlu mülkü var. Bunların hamısı təxribatdır. Əvvəla, sevinin ki, sizin şeyxiniz bu cür güclü olsun. İkincisi isə, xaricdən onsuz da dini liderə qarşı iftira var, bunu daxildə də davam etdirməklə nə əldə edirsiniz? Xaricdən həm prezidentimizə, həm də mənə - şeyxülislama qarşı belə çirkin təxribatlar törədilir”.

Doğrudur, bu çıxışdan sonra televiziya debatlarında Şeyxi ittiham edən açıqlamalar olmayıb, ancaq eyni zamanda QMİ sədrinin özü də efirdə görünməyib. Əvvəlki illərdə seçkilərdə aktiv iştirak edən Şeyxülislam bu il seçki prosesinə yaxın düşməyib. Bəlkə də yaxınlaşa bilməyib, ya da buna gərək duyulmayıb.

“Gərək duyulmur” deməkən, seçkinin sabahı günü prezident xanımı ilə birlikdə Yasamal rayonunda “Hacı Cavad” məscidinin açılışını edib. Maraqlıdır ki, orda da Şeyxülislam olmayıb. Məscidin iki ruhanisi, icma sədri, ağsaqqallar, bir də Yasamalın icra başçısı iştirak edib. Halbuki məscidin açılışında adətən Şeyx iştirak edir. Üstəlik, açılış günü simvolik idi, prezident seçkilərinin sabahı günü ölkə başçısı ilk iş olaraq məscidin açılışını edirdi. Belə bir mərasimdə adətən Şeyxülislam da iştirak edir. Amma, qəribə də olsa, Şeyxi dəvət etməmişdilər. Üstəlik, məhz “Hacı Cavad” məscidinin ərsəyə gəlməsi, xüsusən də “Sovetski” ərazisində sökülən köhnə məscidin sökülməsi ilə baş verən hadisələr bütün ölkədə səs salıb. Nəhayət, prezidentin işə qarışması ilə köhnə məscidin əvəzinə Yasamalda yeni məscidin tikilməsi barədə qərar qəbul olunub. Və bu prosesdə Şeyxülislam yaxından iştirak edib, bir növ dövlətlə dindarlar arasında vasitəçi kimi çıxış edib.

Yeri gəlmişkən, dünən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib ki, maddi dəstək alacaq din xadimlərinin siyahısı Mənəvi Dəyərlərin Təbliği Fonduna təqdim olunub və hazırda maddi dəstək alacaq din xadimlərinin siyahısı ilə bağlı məsələ dəqiqləşdirilir. **Sitat:** “Fondla QMİ bu istiqamətdə fəaliyyət göstərir. Himayəçilər Şurasında da bu məsələ müzakirə edilib. Bu dəstək maaş formasında deyil, maddi dəstək formasında din xadimlərinə veriləcək”.

Məsələ ondadır ki, ötən ilin oktyabrında yaradılmış Mənəvi Dəyərlərin Təbliği Fondu DQİDK-nin tərkibində fəaliyyət göstərir. Ancaq qurumun fəaliyyəti əsasən QMİ-nin fəaliyyət istiqamətləri ilə eynidir. Yəni DQİDK-nin etməsi qanunla mümkün olmayan. Bu günə qədər QMİ-nin üzərində olan dini icmaların maliyyələşməsi, din xadimlərinə maddi yardım və ya maaş verilməsi, dini maarifçilik, dini təhsil, təbliğat və digər dini fəaliyyətləri məhz bu Fond tərəfindən həyata keçiriləcək. Bu, təxminən Türkiyədəki dini idarəçilik modelinin oxşarıdır. Yəni mərkəzi dini qurum Diyanət İşləri Başkanlığıdır, Diyanət Vəqfi isə daha çox mədəni, təbliğat, təhsil və sair fəaliyyətləri həyata keçirir. Əlbəttə, yaxşı addımdır, uğurlu olacağına inanırıq.

Amma bu həm də QMİ-nin bir qurum olaraq əhəmiyyətini azaldır. Bir zamanlar QMİ-nin gördüyü və ya görməli olduğu işləri artıq Mənəvi Dəyərlərin Təbliği Fondu, yəni birbaşa dövlət qurumu həyata keçirəcək. QMİ isə getdikcə daha çox formal bir quruma çevrilməkdədir. Bəlkə də Şeyxi daha çox narazı salan, qəzəbləndirən də odur.

❑ **Kənan RÖVŞƏNOĞLU, “Yeni Müsavat”**

# Prezident şəhid ailələrini sevindirdi- 11 min manat ödəniləcək

**Prezident İlham Əliyev Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında fərman imzalayıb.**





**Etimad Əsədov:** “Bütün şəhid ailələri, Qarabağ müharibəsi əlilləri sevinirlər ki, bu problem həll oldu”
**Rey Kərimoğlu:** “Uzun illərdir ki, qan pulunun verilməsini gözləyirdik”

Fərmanda bildirilir ki, 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə bu Fərmanla müəyyənləşdirilmiş qaydada 11.000 (on bir min) manat məbləğində birdəfəlik ödəmə verilir.

Fərmanda qeyd olunub ki, birdəfəlik ödəmə bu Fərmanın 5-ci hissəsində nəzərdə tutulmuş ümumi siyahıdakı hərbi qulluqçuların Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq müəyyən edilən vərəsələrinə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən verilir.

Birdəfəlik ödəmə bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulmuş şəxsin müraciəti və notariat qaydasında təsdiq olunmuş aşağıdakı sənədlər əsasında verilir:

Hərbi qulluqçunun ölümü haqqında şəhadətnamə, hərbi qulluqçunun ölmüş elan edilməsi haqqında məhkəmə qərarı, birdəfəlik ödəməni almaq üçün müraciət etmiş şəxsin vərəsəlik hüququnu təsdiq edən sənəd, birdəfəlik ödəməni almaq üçün müraciət etmiş şəxsin bank hesabı nömrəsinə dair arayış.

Uzun müddət idi ki, şəhidlərin qan pulunun verilməmədiyindən narazılığını bildirən qazilər, şəhid ailələri bu fərmanı gözləyirdilər. Nəhayət, prezident gözlənilən fərmanı imzaladı.

**Məsələ ilə bağlı “Yeni Müsavat”a danışan Qarabağ Qaziləri İctimai Birliyinin sədri Etimad Əsədov** bildirib ki, xəbəri eşidib, çox seviniblər:

“Xüsusilə də xalq arasında qan pulu deyilən vəsaitin ödənilməsini çox istəyirdik. Bununla bağlı aidiyyəti qurumlarla görüşlər keçirib, məsələni tez-tez ictimailəşdirirdik. Bildirirdik ki, heç olmasa bizim şəhid ailələrinin qan pulu verilsin, müharibə əlillərinin pulunu sonra versələr də olar. Yaxud da təklif edirdik ki, heç olmasa bu vəsait hissələrə bölünsün, elə verilsin. Biz də bilək ki, proses başlayıb və şəhid ailələri həmin vəsaiti alırlar. Prezident tərəfindən fərmanın imzalanmasını çox yüksək qiymətləndirirəm. Bu, mənim üçün xoş oldu. Çox sevindik ki, həqiqətən də şəhid ailələrinin qan pulu birdəfəlik olaraq 11 min manat olmaqla, hesablarına köçürüləcək. Düşünürəm ki, bunu bütün şəhid ailələri, Qarabağ müharibəsi əlilləri, müharibə veteranları çox yüksək qiymətləndirir və sevinirlər ki, bu problem həll oldu. Onların da övladları böyüyüb, xeyir işləri var ki, bu vəsaiti belə işlər üçün sərf edəcəklər. Bu məsələni cənab prezidentə çatdıranlara da təşəkkür edirəm. Düşünürəm ki, bu günlərdə ağır durumda olan müharibə əlilləri ilə bağlı da fərman imzalanar, onların da qan pulu verilər. Fərmanda 1997-ci ilə qədər şəhid olanlar nəzərdə tutulub. Bu ildən sonra şəhid olanlara qan pulu verilib. İndi də verilməyənlərə ödəniləcək. Şəhid ailələri qan pulu ilə bağlı mütəmadi olaraq bizimlə əlaqə saxlayıb, vəsaitin nə zaman köçürüləcəyini soruşurdular. Biz də aidiyyəti qurumlarla, millət vəkilləri ilə görüşüb, məsələni onlara çatdırırdıq. Deyirdilər ki, məsələnin üzərində iş gedir və yaxın gələcəkdə pul köçürüləcək. Şəhid ailələri də sağ olsunlar ki, səbirlə gözlədilər və dövlətimiz də onlara çatacaq vəsaiti ödədi”.

**Qarabağ qazisi, jurnalist Rey Kərimoğlu** da mövzu ilə bağlı “Yeni Müsavat”a danışaraq fərmanı yüksək qiymətləndirdiyini bildirib:

“Uzun illərdir ki, qan pulunun verilməsini gözləyirdik. Nəhayət ki, prezident fərman imzaladı və bu vəsait köçürüləcək. Sevinirik ki, nəhayət, şəhid ailələrinin bizə ünvanladıqları sualın cavabı var. Şəhid olan döyüş dostlarımızın yaxınları hər zaman soruşurdular ki, bu vəsait nə üçün ödənilmir. Biz həmin sualların qarşısında aciz qalırdıq. Hərbi qulluqçuların şəxsi icbari sığortası ilə bağlı Azərbaycan Respublikasının qanunu var. Orada qeyd olunur ki, hərbi qulluqçu şəhid olarsa 11 min manat, 1-ci, 2-ci, 3-cü qrup əlil olarsa həmin vəsaitin 80, 60, 40 faizi verilməlidir. Yəni 8800, 6600, 4400 manat ödənilməlidir. Hələlik fərmanla şəhid ailələrinin problemləri həll edildi. Yaxın zamanlarda digər vəsaitlərin də ödənilməsi ilə bağlı ümid edirik ki, fərman olacaq. Əsas şəhidlər elə 1997-ci ilə qədər olmuşdu. Bu vaxta qədər təxminən 12-15 min arası şəhid vermişik. Bu da kifayət qədər böyük rəqəmdir ki, uzun illərdir vəsait ödənilmirdi. Deputatlar, media sağ olsun ki, bu işdə bizə kömək oldu. Xüsusilə də ”Yeni Müsavat" qəzeti daim bu problemləri qaldırıb. Bu işdə bizə dəstək olan, problemi prezidentə çatdıran hər kəsə təşəkkürümü bildirirəm".

❑ **Əli RAİS, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 85 (6974) 20 aprel 2018

# Avropa Birliyi ilə saziş nə vaxt imzalanacaq?

## "Avropa Birliyi maraqlıdır ki, Azərbaycanla münasibətlər zəifləməsin, əksinə, inkişaf etsin"

**Azərbaycandakı növbədənkənar prezident seçkilərindən sonra rəsmi Bakı ilə Avropa İttifaqı arasında münasibətlərin necə olacağı müzakirə mövzularından biridir.**



Xatırladaq ki, ötən ilin sonlarından başlayaraq, Avropa İttifaqının nümayəndə heyəti bir neçə dəfə ölkəmizə səfər edib və dövlət başçısı ilə əməkdaşlığın perspektivlərini geniş müzakirə edib. Bu ilin əvvəllərində isə prezident İlham Əliyev bu beynəlxalq qurumla münasibətləri inkişaf etdirməyə maraqlı olduğunu növbəti dəfə bəyan etmişdi. Ölkə rəhbəri "Hazırda Avropa İttifaqı ilə biz yeni saziş üzərində iş aparırıq və danışıqlar çox uğurla davam etdirilir", - deyə bildirmişdi.

ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun mənfi rəyini çıxmaq şərtilə, Avropanın aparıcı qurumları, o cümlədən Avropa İttifaqı, AŞ rəhbərliyi prezident seçilməsi ilə bağlı İlham Əliyevi təbrik edib. Avropa İttifaqı Şurasının prezidenti D.Tusk və Avropa Şurasının baş katibi T.Yaqland təbrik məktubunda əməkdaşlığın davam etdirilməsinin zəruriliyindən bəhs olunur.

**Politoloq Şahin Cəfərli** də "Yeni Müsavat"a açıqlamasında əməkdaşlığın davam etdiriləcəyini vurğuladı: "ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun rəyi ABŞ və Avropa Birliyi üçün önəmlidir. Onlar fərdi şəkildə müşahidə aparmış ayrı-ayrı müşahidəçilərin rəyləri ilə deyil, məhz bu qurumun rəyi əsasında seçkilərə qiymət verirlər. Digər tərəfdən, ATƏT DTİHB-nin mənfi rəyi o demək deyil ki, Qərb Azərbaycan hökuməti ilə əlaqələrini kəsəcək və ya hansısa sanksiya xarakterli addımlar atacaq. Ötən dövrə nəzər salsaq, eyni qurumun Azərbaycandakı seçkilərə dair dəfələrlə bənzər rəylərlə çıxış etdiyini görərik, lakin bu, heç də münasibətlərə neqativ təsir göstərməyib. Çünki Qərb praqmatik siyasət yeridir və reallığı qəbul edir. Bu dəfə də eynisi olacaq və artıq verilən ilkin açıqlamalar da bunu göstərir. Ümumiyyətlə, Qərbdə belə bir baxış hakimdir ki, Azərbaycan kimi ölkələri təcrid etmək və ya onlara təzyiq göstərməkdənsə, onları dialoqa, əməkdaşlığa cəlb etməklə daha çox nəticə əldə etmək olar".

Politoloq bildirdi ki, bu baxış hələlik dəyişməyib: "Digər tərəfdən, Qərb ehtiyatlanır ki, Azərbaycan hakimiyyətinə təzyiq göstərmək Bakını Moskva ilə indikindən daha çox yaxınlaşmaq məcburiyyətində qoya bilər, bu isə arzuolunan deyil. 2016-cı ilin iyununda Avropa Birliyinin açıqladığı yeni xarici siyasət və təhlükəsizlik strategiyasında AB-nin postsovet məkanında təsirinin gücləndirilməsi vəzifəsi əksini tapıb. Azərbaycanın da iştirak etdiyi "Şərq Tərəfdaşlığı" proqramı məhz bu məqsədə xidmət edir. Düzdür, proqram üzvü olan ölkələrin AB-yə üzvlüyü, hələ ki, planda yoxdur, amma Brüssel tədricən bu tərəfdaşlarla siyasi, iqtisadi, mədəni-humanitar sahələrdə əlaqələri genişləndirmək xətti götürüb. Bu xəttin və ümumən strategiyanın mənası budur ki, "biz postsovet məkanını Rusiyanın nüfuz zonası kimi tanımırıq." Hesab edirəm ki, bu, Azərbaycanın da maraqlarına uyğun olan siyasətdir".

Bütün bunlara görə, Ş.Cəfərli hesab edir ki, Azərbaycan və Qərb dövlətləri, institutları arasında əməkdaşlığın davam edəcəyinə şübhə yoxdur: "Avropa Birliyi Azərbaycanın ən böyük xarici ticarət tərəfdaşıdır, ixracımızın təxminən yarısı AB-nin payına düşür. Hazırda Azərbaycanın həyata keçirdiyi yeni enerji layihəsi - TANAP məhz Avropaya istiqamətlənib və istər AB, istərsə də ABŞ tərəfindən dəstəklənir. İndi AB-Azərbaycan əlaqələrində əsas mövzu yeni ikitərəfli sazişin imzalanmasıdır. Bu saziş münasibətləri yeni səviyyəyə çıxaracaq bir sənəd olacaq. Yeni Avropa Birliyi maraqlıdır ki, Azərbaycanla münasibətlər zəifləməsin, əksinə, inkişaf etsin. Hazırlanan və müzakirəsi gedən sazişin mətnini hələ görməsək də, güman ki, orada bu istiqamətdə də əməkdaşlıq nəzərdə tutulub".

Politoloq Avropa Şurasının baş katibi T.Yaqlandın məktubundakı bəzi məqamlara da diqqət çəkdi: "Bu məktubda da qeyd olunur ki, "Avropa İnsan Hüquqları Konvensiyasına əsaslanan, insan hüquqları, demokratiya və qanunun aliliyi standartlarının üstünlüyünün Azərbaycanda təmin olunması istiqamətində Sizinlə sıx işləmək niyyətindəyəm". Bu, o deməkdir ki, AŞ siyasi məhbus saydığı şəxslərin həbsdən buraxılması, eləcə də Azərbaycanın üzərinə götürdüyü öhdəliklərin icrası məsələlərini gündəmə gətirməyə davam edəcək, lakin bu məqsədlərə nail olmaq üçün də Azərbaycan hökuməti ilə əməkdaşlığı zəruri sayır".

Yaxın zamanlarda ölkədə böyük əfv fərmanının imzalanacağı və bir sıra tanınmış şəxslərin həbsdən azad olunacağı barədə gözləntilər var. Bu addımın atılması isə Bakı ilə Avropa arasında əməkdaşlıq imkanlarını daha da artıracaq və ölkəmizə qarşı qara qüvvələrin apardığı kampaniyaları gündəmdən çıxaracaq.

❑ **Cavid TURAN,**
**"Yeni Müsavat"**



# Bakı-Vaşinqton münasibətləri gərginləşəcək, yoxsa...

## Ekspert: "ATƏT də, ABŞ da bilirdi ki, seçkinin favoriti İlham Əliyevdir"

**İrəvanda son günlər keçirilən mitinqlərə güc tətbiq edən, yüzlərlə müxalif fəalı həbs edən Ermənistan hakimiyyətinə loyal münasibət ortaya qoyan ABŞ Dövlət Departamentindən Azərbaycanda keçirilən seçkilərlə bağlı ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) ilkin rəyini bölüşdüyü barədə açıqlama verilib.**

ABŞ Dövlət Departamentinin nümayəndəsi "Turan"ın Vaşinqtondakı müxbirinin sorğusuna cavab olaraq bildirib ki, ABŞ Azərbaycanda növbədənkənar prezident seçkilərinin ilkin qiymətləndirilməsi üzrə ATƏT missiyası ilə razıdır. "Turan" agentliyinin xəbərində deyilir: "Birləşmiş Ştatlar prezident Əliyev və Azərbaycan xalqı ilə bəzi mühüm ikitərəfli və regional məsələlər, o cümlədən insan hüquqlarına və azadlıqlara hörmətin təşviqində, iqtisadi islahatların və çiçəklənmənin dəstəklənməsində, terrorizmə qarşı mübarizədə əməkdaşlığa, həmçinin ATƏT-in Minsk Qrupu ilə fəal əməkdaşlıq vasitəsilə Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizamlanmasına ümid edir. Biz Azərbaycanda seçkilərin müşahidəsi üzrə ATƏT-in ilkin qiymətləndirmə missiyası ilə razıyıq. İlkin hesabatda bəzi çatışmazlıqlar qeydə alınıb. Bura əsas azadlıqların məhdudlaşdırılması, həqiqi rəqabətin olmaması daxildir. Seçki administrasiyası resurslarla təmin edilsə də, DTİHB şəffaflığın olmadığını, çoxsaylı ciddi pozuntuların olduğunu, səsvermə zamanı qutulara topa ilə bülletenlərin atıldığını bildirib. Biz prezident Əliyevi və administrasiyasını bu problemlərin operativ həllinə çağırırıq".

*ABŞ Dövlət Departamentindən belə bir mövqenin bəyan edilməsi Azərbaycanla ABŞ arasında münasibətləri yenidən gərginləşdirə bilərmi?*

**Politoloq Qabil Hüseynli** "Yeni Müsavat"a bildirdi ki, Vaşinqton seçkilərin favoritinin İlham Əliyev olduğunu öncədən bilirdi və ATƏT DTİHB-nin rəyinin Dövlət Departamenti tərəfindən əsas götürüldüyünün bəyan edilməsi ənənəvi rast gəldiyimiz haldır. Bu, iki ölkə arasında münasibətləri gərginləşdirməyəcək: "ATƏT də, ABŞ da bilirdi ki, seçkinin favoriti İlham Əliyevdir və o, haqlı olaraq qalibdir. Sadəcə olaraq, bildirilən iradlar seçkilərin təşkilinə, texniki tərəflərinə, bir sözlə, ikinci dərəcəli məsələlərə aiddir. Yəni qeyd edilən tənqidlər seçkilərin nəticələrinə qətiyyən kölgə sala bilməz və salmır. ABŞ-ın bu məsələyə münasibətdə ATƏT DTİHB-nin ilkin rəyini dəstəkləməsi də o demək deyil ki, Dövlət Departamenti seçkinin nəticələrini şübhə altına alır. ABŞ Dövlət Departamentinin ATƏT DTİHB-nin hesabatını əsas kimi götürməsi ABŞ-la Azərbaycan arasında ciddi problem yaradası deyil. Ola bilsin ki, qısa müddət üçün Bakıdan Vaşinqtona fərdlərin mövqeyi səviyyəsində etirazlar ifadə olunacaq. Vaşinqton isə "ATƏT DTİHB-nin rəyini bölüşürük" bəyanatından o tərəfə Bakını narahat edəcək praktiki addım atmayacaq. Hakimiyyətlə həmişəki formada əməkdaşlıqda davam edəcəklər.

Seçkilər barədə sözügedən rəydə əksini tapan fikirlərin əksəriyyəti subyektiv fikirlərdir. Bu, Azərbaycanın nə Avropa ilə, nə də ABŞ-la münasibətlərinə hər hansı bir gərginlik gətirməyəcək. Avropa İttifaqından, Avropa Şurasından Azərbaycan prezidentinə yüksək səviyyədə təbriklər və o təbriklərdə "Sizinlə işləməyi səbirsizliklə gözləyirik" fikirləri də bunu deməyə əsas verir. Azərbaycan Qərbə inteqrasiya yolunu davam etdirəcək.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Vahid Ələkbərov Rusiyanın dördüncü ən zəngin adamıdır

**"Forbes Russia" 15-ci dəfə Rusiyanın ən zəngin iş adamlarının reytinqini açıqlayıb. 2017-ci il ərzində 200 rusiyalı biznesmenin sərvəti 25 mlrd. dollar artaraq 485 mlrd. dollara çatıb. Ümumilikdə rusiyalı milyarderlərin sayı 96-dan 106-ya yüksəlib.**



Təhlil göstərir ki, 2016-cı ildə olduğu kimi, ötən il ərzində də ən çox metallurgiya sahəsində fəaliyyət göstərən iş adamları varlanıb. Bu dəfə reytinqə Novolipetsk Metallurgiya Kombinatının sahibi Vladimir Lisinin başçılıq edir. Onun sərvəti 19,1 mlrd. dollara çatıb. "Severstal"ın sahibi Aleksey Mordaşov isə 18,7 mlrd. dollarla ikinci pillədə qərarlaşıb.

Bundan əvvəlki reytinqdə lider olan "Novatek" və "Sibur" şirkətlərinin həmtəsisçisi Leonid Mixelsonun sərəti 400 mln. dollar azalıb. Bununla da L. Mixelsonun 18 mlrd. dollarlıq sərvətlə reytinqin 3-cü pilləsinə yiyələnib. 2016-cı ilin yekunlarına əsasən, 14,5 mlrd. dollarlıq sərvətlə 5-ci pillədə yer alan həmyerlimiz "Lukoil" Neft-Qaz Şirkətinin rəhbəri Vahid Ələkbərov 2017-ci ildə sərvətini 16,4 mlrd. dollara çatdıraraq 4-cü pilləyə yüksəlib. Qeyd edək ki, Ələkbərov həm "Lukoil" şirkətinin prezidenti, həm də səhmdarıdır (23%). İl ərzində sərvətini artıra bilməyən Gennadi Timçenko reytinqin 5-ci pilləsindədir. Qeyd edək ki, Mixelson kimi Timçenko da "Sibur" Neft-Kimya Kompleksinin səhmdarıdır.

Vahid Ələkbərovla yanaşı, digər həmyerlilərimiz də həmişə olduğu kimi, reytinqdə yer alıblar. Belə ki, Rusiyanın "daşınmaz əmlak kralları"ndan hesab olunan Zarax İliyev və Qod Nisanov 3,3 mlrd. dollarla 36 və 37-ci pillələri paylaşıb. "Crocus Group" Şirkətlər Qrupunun təsisçisi və rəhbəri Araz Ağalarov 2017-ci ildə sərvətini 1,8 mlrd. dollara çatdıraraq 54-cü pillədə yer alıb. Fərhad Əhmədovun sərvəti isə dəyişməyib. Bununla o, 1,4 mlrd. dollarlıq sərvətlə 67-ci pillədən 69-cu pilləyədək geriləyib.

YENİ MÜSAVAT
N 85 (6974) 20 aprel 2018



# Müflis olmuş "Hafka" məhkəməni uddu

**Bakı Apelyasiya Məhkəməsində ləğv prosesində olan "Bank of Azerbaijan" ASC-nin "Baghlan Group" FZCO şirkətinin Azərbaycan Respublikasındakı nümayəndəliyinə qarşı məhkəmə qərarından verilən apelyasiya şikayətinə baxılıb.**

"Report"un məlumatına görə, hakim Elmira Nağıyevanın sədrliyi ilə keçirilən prosesdə qərar elan olunub.

Qərara əsasən, bankın apelyasiya şikayəti təmin edilib, birinci instansiya məhkəməsinin çıxardığı qətnamə ləğv olunub. Məhkəmə ASC-nin iddiasının təmin edilməsi barədə qərar çıxarıb.

Qeyd edək ki, ləğv prosesində olan "Bank of Azerbaijan" ASC "Baghlan Group" FZCO şirkətinin Azərbaycan Respublikasındakı nümayəndəliyini məhkəməyə verib. 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinə müraciət edən bank kredit müqaviləsi üzrə borcun qaytarılması barədə tələb irəli sürüb.

Məhkəmə iddianı təmin etməyib.

Qərardan narazı qalan bank apelyasiya şikayəti verib.

Onu da əlavə edək ki, "Baghlan Group"un sahibi "Hafka" kimi tanınan iş adamı Hafiz Məmmədovdur.

Xatırladaq ki, 2016-cı ilin yanvar ayında Azərbaycan Mərkəzi Bankının İdarə Heyətinin qərarı ilə məcmu kapitalın minimum məbləği tələbinə əməl etmədiyinə, məcmu kapitalının adekvatlıq əmsalının 3%-dən az olduğuna, kreditorları qarşısında öhdəliklərini icra edə bilmədiyinə, cari fəaliyyətini etibarlı və prudensial qaydada idarə etmədiyinə görə "Bank of Azerbaijan" ASC-nin bank lisenziyası ləğv edilib. "Banklar haqqında" qanuna uyğun olaraq banka müvəqqəti inzibatçı təyin edilib. Həmin bank H.Məmmədovun oğullarına məxsusdur.

# "Çudo Peçka" işində 13 milyon hara yoxa çıxıb?




**"Çudo Peçka" və "ÇP Aqro" MMC-nin təsisçisi Çingiz Cəlilovun cinayət işi üzrə məhkəmə prosesi davam edib. Lent.az-ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əhməd Quliyevin sədrliyi ilə keçirilən prosesdə şahid qismində Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertiza Mərkəzinin eksperti qismində Elvin Səfərov dindirilib.**

Şahid təqsirləndirilən Çingiz Cəlilovun vəkili Janna Bağırovanın vəsatəti əsasında məhkəməyə dəvət edilib.

Ekspertizanın rəyinə əsasən, ümumilikdə 13 milyon manat çatışmazlıq olub.

Janna Bağırova ekspertə 5 sualının olduğunu deyib və cavabların yazılı şəkildə verilməsi ilə bağlı vəsatət qaldırıb.

Ekspert bildirib ki, yazılı şəkildə hazırda mümkün deyil: "Belə anladım ki, siz yenidən ekspertiza təyin etmək istəyirsiniz. Yazdığım rəyə cavabdehəm. Lakin burda elə suallar var ki, mən yenidən həmin iş materiallarına baxandan sonra sizin suallarınıza cavab verə bilərəm. Bu o deməkdir ki, iş idarəyə qaytarılmalıdır".

Vəsatət təmin edilməyib. Hakim bildirib ki, ekspert suallara şifahi cavab verməlidir.

Hakim ekspertə vaxt verib. Proses aprelin 26-da davam edəcək.

Qeyd edək ki, ittihama görə, Çingiz Cəlilov "Bank Standart"ın idarə heyətinin sədri Səlim Krimanla cinayət əlaqəsinə girərək 14 milyona yaxın məbləği mənimsəyərək öz aralarında bölüblər.

Çingiz Cəlilov və yaxınları aid olan 7 milyon manatlıq əmlakın üzərinə həbs qoyulub.

Səlim Kirman və Çingiz Cəlilova Cinayət Məcəlləsinin 179.3.2-ci (külli miqdarda mənimsəmə), 308-ci ( vəzifə səlahiyyətlərini aşma) maddələri ilə ittiham verilib.

Səlim Kriman Azərbaycandan qaçdığı üçün barəsində interpol xətti ilə axtarış elan edilib. Çingiz Cəlilov isə həbs olunub.

# Falçının zorladığı qızlardan şok açıqlamalar - Bakıda dəhşətli olay

**Bakıda tələbə, yetkinlik yaşına yenicə çatmış qızları sosial şəbəkələr üzərindən "ov"layan falçı peyda olub. Pessimist ruhda statuslar yazan 18-20 yaşlı qızlara bir xanım profil üzərindən köməklik təklif olunub. Qızlar Yasamaldakı evə dəvət edilib. Orada bihuşedici maddə qatılmış çay, su verilib. Qızları yuxuya verib bakirəliklərini pozublar. Özlərini də təhdid edib, bu haqda heç kimə məlumat verməməyi tapşırıblar.**

## Qurbanlar "Yeni Müsavat"a başlarına gələnləri danışdılar; 20 **yaşlı tələbə qız:** "O zaman mənə necə yaxınlaşdığını, zorladığını hiss etməmişəm"; **18 yaşlı tələbə qız:** "Özümə gəlməyə başladım və anladım ki, məni zorlayıb"



"Yeni Müsavat"ın redaksiyasına falçının qurbanına çevrilmiş 46 qızdan 2 nəfəri müraciət edib. Onlar başlarına gələn dəhşətli, iyrənc olayı anladıblar. 18 və 20 yaşlarında olan qızlar falçının özünü onlara Mirseymur Mirkamil oğlu Seyidov kimi təqdim etdiyini bildiriblər. Qızlar bildirir ki, əslində o özü haqda ilk gündən qurbanlarına yalan məlumat verib. Buna baxmayaraq, onun kimliyi haqda müfəssəl məlumat ala biliblər.

Redaksiyamız müraciət edən qızların kimliyi haqda ətraflı bilgilərə malikdir və baş vermiş iyrənc olay haqda hüquq mühafizə orqanlarına, "Təmiz Dünya" İctimai Birliyinə də məlumat vermişik.

**"Quran"da görünür ki, sən əməliyyat olunarkən bakirəliyini itiribsən"**

20 yaşlı Ə.A-nın dedikləri: (Redaksiya bəzi məqamları nəzərə alaraq zərərçəkənlərin adlarını şərti verir)

"Ötən ilin noyabr ayında "İnstagram"da bir qızla tanış olmuşdum. Qız biləndə ki, mənim təhsilim, işim, özümlə bağlı bəzi problemlərim var, məni bir falçıya yönəltdi. Həmin falçı özünü Mirseymur kimi təqdim etdi. Dedi ki, seyiddir. Sonradan bildik ki, onun əsl adı Ramil Durduxan oğlu Talıbovdur".

Ə.A-nın dediyinə görə, falçı həmin vaxt Rusiyada yaşadığını deyib və ona göstərəcəyi "köməkliklərə" görə alacağı pulu bank hesabı ilə ödəməyi tələb edib:

"Üst-üstə məndən 900 manat pul aldı. Pulu müxtəlif vaxtlarda bank hesabı ilə ona ödədim. Həmin zaman o, Rusiyada olduğu üçün pulu Anna adlı bir qadının adına göndərmişdim. Bir ay sonra, yəni dekabr ayında isə Bakıya döndü. Mənə dedi ki, gəl "işi" davam etdirək. Bir müddət əvvəl böyrəyimdən əməliyyat olunmuşdum. Bu haqda ona demişdim. Yanında getdikdə dedi ki, "Quran"da görünür ki, sən əməliyyat olunarkən bakirəliyini itiribsən. Bununla məni qorxutdu ki, "həkimə müayinəyə getsən biabır olacaqsan, polisə xəbər verəcəklər, əngələ düşəcəksən, cavan qızsan, həyatını məhv etmə. Gəl, mən özüm sənə bu barədə köməklik edim, yoxsa səni pisliklər gözləyir, sən bədbəxt olacaqsan, pis yola düşəcəksən. Sənə bir dərman verəcəm, 28 gün ərzində yuyunarsan, sonra həkimə gedərsən".

**"Çayı içəndə hiss etdim ki, huşum özümdə deyil, heç nəyi hiss etmirəm"**

Əvvəl razı olmadım, həkimə getmək istədiyimi dedim. Onda mənə dedi ki, "effekti olmasa, sənin pullarını geri qaytaracam". Onun evinə getdim. Bir qədər aramızda pul söhbəti ilə bağlı mübahisə yarandı. Pulumu geri istəyirdim, bildirdim ki, həkimə gedəcəm. Lakin o məni sakitləşdirməyə çalışdı və mənə çay verdi. Çayı içəndə hiss etdim ki, huşum özümdə deyil, heç nəyi hiss etmirəm. O zaman mənə necə yaxınlaşdığını, zorladığını hiss etməmişəm. Bir müddət sonra yavaş-yavaş özümə gələndə anladım ki, artıq "iş işdən keçib", bakirəliyim pozulub. Məni qaldırıb hamama aparanda onun üstünə atılıb qışqırmağa başladım. O isə mənə dedi ki, "sənə əvvəldən demişdim ki, bakirə deyilsən, indi isə "aybaşı" olmusan. Daha sonra məni evdən qovdu. Bildirdim ki, bu barədə polisə xəbər





verəcəm. Dedi ki, "həyatının məhv olmasını istəmirsənsə, bu addımı atmayacaqsan. Özün də universitetdə tələbəsən, gedib dekanına, ailənə, anana bu haqda deyərəm. Arxanda atan və ya başqa dayağın yoxdur, sənə heç kəs kömək etməyəcək".

**"Hər dəfə onun evinə gedəndə gizlincə sənəd axtarmağa çalışırdım ki..."**

Ə.A-nın sözlərinə görə falçı sonradan dəfələrlə müxtəlif şantaj və təhdidlərlə onu evinə gətirib və cinsi əlaqədə olmağa məcbur edib:

"Hər dəfə onun evinə gedəndə gizlincə sənəd axtarmağa çalışırdım ki, əsl adını öyrənə bilim, polisə müraciət edim. Sonra onun qurbanlarından olan bir xanım mənimlə əlaqə saxladı. Bildirdi ki, ailəlidir, lakin 3 ildir ki, onun toruna düşüb. Mənə köməklik etməyə çalışdı".

Ailəsinin yeganə övladı olan Ə.A. başına gələn olaylara görə 3 dəfə intihara cəhd etdiyini deyib:

"Çox ciddi psixoloji problemlərim yaranıb. Mart ayında artıq dözməyib DİN-in 102 xidmətinə zəng vurdum, başıma gələnləri dedim. Həmin şəxsin ev ünvanını, haqqında bildiyim bütün məlumatları versəm də, bu günə qədər heç bir nəticəsi yoxdur. Əksinə, həmin adam və onun əlaltıları məni hər gün təhdid edir, telefonla zəng edib, məcburən məni görüşə çağırırlar. Hətta bir qadın özünü onun keçmiş həyat yoldaş kimi təqdim edib, məni təhdid edir. Zorlanmağımla bağlı ekspertiza nəticələri də var. Lakin bu günə qədər məsələyə hüquqi qiymət verilməyib, həmin şəxs hələ də azadlıqdadır".

**"Bu günə qədər 46 nəfərin başına bu cür oyun gətirmişəm..."**

Bir dəfə onunla mübahisə edəndə dedi ki, "bu günə qədər 46 nəfərin başına bu cür oyun gətirmişəm, amma onlar sənin kimi hay-küy salmır". Məsələ araşdırılsa, yəqin ki, həmin qurbanlar da ortaya çıxacaq. Aidiyyəti qurumlardan, hüquq-mühafizə orqanlarından xahiş edirəm, bu məsələdə mənim və digər qurbanların haqqı yerdə qalmasın, cinayətkar öz cəzasını alsın".

**"Bir saatdan sonra özümə gəlməyə başladım və anladım ki, məni zorlayıb"**

Falçının qurbanı olduğunu bildirən digər tələbə, B.İ. isə bunları söylədi:

"2000-ci il təvəllüdlüyəm, 18 yaşım təzə tamam olub. Bəzi problemlərim var idi. Bir xanımla "İnstagram"da tanış olmuşdum. O mənə dedi ki, bir falçının nömrəsini verəcək, köməklik edəcək. Onun verdiyi nömrəyə zəng elədim. Özünü Mirseyid Seyidov kimi təqdim edən falçı ilə tanış oldum. Telefonla danışan zaman mənə dedi ki, "Yasamalda qalıram, gəlib falına baxdıra bilərsən". Bu söhbət yanvarın 19-da olub. Elə həmin gün evinə getdim. Məni qapıda 19-20 yaşında bir qız qarşıladı. Sonradan bildim ki, həmin qız Ə.A-dır. Beləliklə, falçı görəcəyi iş üçün məndən 500 manat istədi, əvəzində isə mənim problemlərimə, o cümlədən xəstə ata-anama yardım edəcəyinə söz verdi. Ayın 19-da məndən pulu götürdü, sabahı gün məni yenə evində qarşıladı. Mənə evdə sakitləşdirici çay verdi. Çayı içdikdən sonra özümü çox pis hiss etməyə başladım. Onun evində təxminən saat 5-6 radələrində olmuşam. Bir saatdan sonra özümə gəlməyə başladım və anladım ki, məni zorlayıb. Mən onun üstünə qışqırmağa başlayanda dedi ki, "sən uşaq ikən yıxılmısan, zədə almısan, o vaxt bakirəliyini itirmisən. İndi isə səndə soyuqdəymə olub, gedə bilərsən. Qışqıranda isə dedi ki, "məni şərləmə, get evimdən!" Qorxumdan bu haqda heç kəsə bir söz deyə bilmədim. Bir neçə gün sonra zəng edib dedi ki, mənə bu məsələdə köməklik edəcək, yenidən evinə çağırdı. Mən onun evinə getdim. Bu dəfə isə mənə su içirtdi. İkinci dəfə məni belə zorladı. Bu haqda heç kəsə deməməyim üçün məni şantaj, təhdid edirdi. Olanlardan şoka düşmüşdüm. Onun təhdidlərinə dözməyib aprel ayında polisə müraciət etdim. Lakin o, yenidən məni qorxutmağa, "ailənizi dağıdaram, sən mənə heç nə edə bilməzsən, polislər mənim əlimdədir, onların işi məndən keçir" və sairə bu kimi təhdidlər etməyə başladı. Bu haqda polisə müraciət etdim. Onu polis bölməsinə aparıb, sorğu-sual etdilər. Lakin o, məni tanımadığını, ilk dəfə gördüyünü söylədi".

**"Cinayətkar cəzasız qalmasın"**

B.İ. çıxılmaz vəziyyətdə qaldığını, buna görə aidiyyəti orqanlardan köməklik istədiyini deyib:

"Mənim əsas istəyim budur ki, bizim işimizə baxılsın. Cinayətkar cəzasız qalmasın".

*Məsələ ilə bağlı qarşı tərəfin də rəyini öyrənməyə çalışsaq da, zənglərimiz cavabsız qaldı. Bunula belə, qarşı tərəfin də mövqeyini dərc etməyə hazırıq.*

**Xalidə GƏRAY, Musavat.com**

YENİ MÜSAVAT
N 85 (6974) 20 aprel 2018



# Bayıl yamacında kompensasiya qovğası

## Əhali kirayə pulundan imtina edib evlərinə qayıtmaq istəyir

**Bayıl yamacında sürüşmə zonasında yaşayan əhalinin narazılıqları davam edir. Sakinlər bu ilin yanvar ayından kəsilmiş kommunal xətlərinin bərpa olunmasını istəyirlər. Onlar bildirirlər ki, dövlət ya normal kompensasiya verib əhalini ərazidən birdəfəlik köçürsün, ya da kommunal xətləri bərpa etsinlər ki, insanlar evlərində yaşaya bilsin.**

Məlumat üçün qeyd edək ki, Bayıl yamacında, Bakı Televiziya Qülləsinin yaxınlığında sürüşmə bu ilin yanvar ayında aktivləşməyə başladı. Nəticədə müvafiq qurumların, eləcə də Səbayel Rayon İcra Hakimiyyətinin müdaxiləsi ilə əhali ərazidən köçürülüb. Öncə yaxınlıqdakı məktəb binalarına yerləşdirilən sakinlərə kirayə pulu verilib. Sakinlərin bir qismi kirayə pulunu alıb, evlərini tərk etsələr də, məbləğlə razılaşmayıb, ərazidə qalanlar da az olmayıb.

Hazırda isə kirayə pulunu alıb çıxanlar da, ərazidə yaşayanlar da etiraz edib, dövlətdən kömək istəyirlər.

Bu ilin fevral ayında Bayıl sürüşmə zonasındakı vəziyyətlə bağlı Nazirlər Kabineti müvafiq sərəncam imzalayıb.

Həmin sərəncama əsasən, Bayıl yamacında sürüşmə təhlükəsi ilə bağlı ərazidən köçürülən 98 ailənin 11 ay ərzində müvəqqəti yerləşdiyi mənzillər üçün kirayə haqqının ödənilməsi məqsədilə 2018-ci il dövlət büdcəsinin Ehtiyat Fondundan Səbayel Rayon İcra Hakimiyyətinə müvafiq vəsait ayrılıb. Eyni zamanda bildirildi ki, 10 fevral 2018-ci il tarixində həmin ərazidə tam dağılmış 90-cı illərdə tikilmiş 4 fərdi yaşayış evinin sahiblərinə kompensasiya ödənilməsi üçün tələb olunan vəsaitin məbləğinin 10 gün ərzində hesablanıb Nazirlər Kabinetinə təqdim olunması Fövqəladə Hallar Nazirliyi və Səbayel Rayon İcra Hakimiyyətinə tapşırılır.

Ötən həftə məlum oldu ki, ümumi sahəsi 306 kvadratmetr olan 4 fərdi yaşayış evinin, həmçinin bir hissəsi dağılaraq yaşayış üçün yararsız vəziyyətə düşmüş ümumi sahəsi 182 kvadratmetr olan 2 fərdi yaşayış evinin sahiblərinə evin bir kvadratmetri üçün 700 manat və hər bir evdə yararsız vəziyyətə düşmüş ev əşyaları üçün 1500 manat olmaqla birdəfəlik maddi yardım ödənilməsi qərara alınıb.

Ərazidə olan digər mənzillərin sakinləri isə bildirirlər ki, əgər dövlət onlara hər kvadrat üçün 700 manat ödəyəcəksə, bununla razılaşmayacaqlar.

"Yeni Müsavat"a Bayıldakı hazırkı vəziyyətlə bağlı danışan sakin Eldar Muradov bildirib ki, əhali çətin durumda gözləyir: "Biz ötən günlərdə etiraz aksiyası keçirdik ki, əgər 700 manat kompensasiya veriləcəksə, bu, bizə sərf etmir. Hələ ki, heç bir müvafiq qurumdan əraziyə gəlib bizimlə maraqlanmayıblar. İnsanların yenə də bir qismi kirayələrdə, bir qismi də Bayıldakı evində qalmaqda davam edir. Düşünürəm ki, bu vəziyyətdə dövlət vətəndaşın xeyrinə olan qərar verməlidir. Hazırda ərazidə kompensasiya ödənilən 6 evin sahibləri mənzillərini sökürlər. Yəqin ki, 2-3 günə tamamilə söküb bitirəcəklər. Digər evlərlə bağlı isə heç nə dəyişməyib. Sürüşmə ərazisində heç bir tərpəniş yoxdur. Günlərdir yağış yağır, nəmişlik olur, ancaq yenə də sürüşmə sahəsində təhlükə yoxdur. Sağ olsunlar ki, qış aylarında camaatı buradan köçürdülər. Ancaq indi sürüşmə sahəsinə aidiyyəti olmayan yerdə yaşayanlar nə üçün kirayədə qalmalıdır? Nə üçün bizim kommunal xətlərimiz bərpa olunmur? Yanvar ayında bizi didərgin salıblar. Evləri uçanların içərisində elələri vardı ki, kompensasiya xatirinə yüngülvari, dözümsüz, kiçik ev tikmişdilər. İndi həmin adamların hesabına bu qədər camaatı nə üçün küçəyə tökürlər?"

Sakin bildirib ki, kirayə pulunu almayıb, evində yaşayanlarla da kimsə maraqlanmır: "Əvvəl dedilər ki, buradan mütləq çıxmalısınız. Hətta qarşıdurma da yaranmışdı. Lakin hazırda kimsə gəlib evində qalanları məcbur etmir ki, burada yaşamaq təhlükəlidir. Heç, ümumiyyətlə, əraziyə gələn yoxdur. Deməli ki, onlar da başa düşürlər ki, artıq təhlükə sovuşub. Madam belədirsə, o zaman dövlətin pulunu xərcləyib insanları nə üçün kirayədə saxlayırlar? Deyiblər ki, hələ 11 ay camaat kirayədə qalacaq. Kirayə pulunu da elə məbləğdə veriblər ki, bu ətrafda ev tuta bilmirik. Məcbur qalıb camaat şəhərin digər başından ev tutub. Üstəlik, mən verilən pulun üzərinə 50 manat qoymuşam ki, kirayə mənzil tuta biləm. Bunun üstünə marşrutlara xərclədiyimiz pulu da gəlsək, xeyli maddi zərər olur. Burada ailəsində xəstə olanlar da var ki, onlar da çox əziyyət çəkirlər. Camaatın taleyi naminə buradan insanları çıxarıblar. Çox sağ olsunlar. Ancaq artıq torpaq yerində oturub. Heç bir təhlükə yoxdur. Bizi geri qaytarsınlar".

Məsələ ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Geoloji Kəşfiyyat Xidmətinin Geoloji Planlama Ekspedisiyasının rəisi Əziz Qaralov "Yeni Müsavat"a bildirdi ki, Bayıl ərazisində sürüşmə zonasında vəziyyət sabit olaraq qalır. Heç bir aktivlik müşahidə olunmur.

**❑ Əli RƏİS,**
**"Yeni Müsavat"**

# Yaz gəlməmiş qaz zəifləyib

## "Azəriqaz" rəsmisi "tələbat nə qədər olsa, həmin tələbata uyğun qaz veriləcək" deyir, amma...

**Yazın gəlməsi Bakı şəhərində qaz təchizatı sahəsində problemləri aradan qaldırmayıb: paytaxtın bir çox ərazilərində əhali qazın təzyiqinin aşağı olmasından narazılıq edir. Bu vəziyyət insanlarda ölkədə əhalini təchiz etmək üçün yetərincə qaz olmadığı rəyini formalaşdırır. Bundan əlavə, qeyd olunur ki, aprelin 15-dən etibarən "Azəriqaz" şəbəkəsində yay rejiminə keçildiyi üçün qazın təzyiqi azaldılıb.**



Doğrudanmı, Azərbaycanda əhalinin tələbatını tam qarşılayacaq həcmdə qaz yoxdur? **SOCAR "Azəriqaz" İstehsalat Birliyinin İctimaiyyətlə Əlaqələr Şöbəsinin müdiri İbrahim Kərbəlayevin** "Yeni Müsavat"a dediyinə görə, hazırda Azərbaycan əhalisinin qazla tam təchizatı sahəsində hansısa problem yoxdur: "Yay-qış rejiminin istehlakçılara aidiyyəti yoxdur. Yayda da, qışda da əhali tələbata uyğun şəkildə qazla təmin olunur. Yayda ölkə üzrə gündəlik sərfiyyat 10 milyon kubmetr olursa, qışın soyuq, qarlı günlərində 30 milyona qədər yüksəlir. Ötən günlərə nəzər salsaq, srağagün şəbəkəyə 15 milyon 214 min kubmetr verilibsə, dünən sərfiyyat 16 milyon 687 min kubmetrə çatıb. İki gündə fərq 1 milyon 473 min kubmetr olub. Hansı ərazidən təzyiqin azalması ilə bağlı müraciət daxil olursa, əməkdaşlarımız orada verilişi tənzimləyirlər".

Onu da qeyd edək ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən havaların soyuqlaşacağı ilə bağlı xəbərdarlıq yayılıb. "Azəriqaz" rəsmisi bildirir ki, tələbat nə qədər artsa, şəbəkəyə o qədər də qaz veriləcək: "Tələbat nə qədər olsa, həmin tələbata uyğun qaz veriləcək, bu sahədə heç bir problem yoxdur".

**Ekspert, Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şabanın** dediyinə görə, Azərbaycan 1-ci rüb ərzində Gürcüstana 832 milyon kubmetr qaz ixrac edib: "Yanvar-mart aylarında Türkiyəyə qaz ixracımız 1,6 milyard kubmetrdən bir qədər artıq olub. Yəni ümumilikdə xaricə qaz ixracımız 2,430 milyard kubmetr təşkil edib. Birinci rübdə Azərbaycan Rusiya və İrandan 970 milyon kubmetrə yaxın qaz idxal edib. Bildiyiniz kimi, İrandan idxalımız 2016-cı ilin oktyabrından, Rusiyadan idxalımız isə 2017-ci ilin noyabrından başlayıb. Rusiya ilə bağlanan müqaviləyə əsasən, 2018-ci ildə onlardan 1,6 milyard kubmetr qaz almalıyıq. Birinci rübdə bunun 800 milyon kubmetrə yaxınını - yəni yarısını artıq idxal etmişik. Dövlət Statistika Komitəsinin məlumatına görə, Azərbaycanda əmtəəlik qaz hasilatı 5 faizdən çox azalıb. Bu da onunla bağlıdır ki, "Azəri-Çıraq-Günəşli" yatağından alınan səmt qazının həcmi azalıb. Belə ki, 2016-cı ildən etibarən səmt qazının daha çox hissəsi laylarda təzyiqi saxlamaq üçün neft quyularına vurulur. Hansı ki, bunun sayəsində də neft hasilatını artırmaq mümkün olur. Nəticədə daha çox neft ixrac edib daha çox qazanca sahib olunub. Ötən ilin eyni dövrü ilə müqayisədə Dövlət Neft Fonduna neft ixracından 2 milyard dollar çox vəsait daxil olub. Təkcə mart ayında 791 min barel neft hasil edilib".

Ekspertə görə, qazın təzyiqinin aşağı olması bir neçə amillə bağlıdır: "Bu bir reallıqdır ki, hətta yumşaq keçən bu qış aylarında qazın təzyiqi aşağı oldu. Bir qədər havalar soyuyan kimi problem daha da kəskinləşdi. Burada birinci amil ondan ibarətdir ki, ötən il biz 2,1 milyard kubmetr qaz idxal etmişdik. Bu qış isə idxalımız az olub. Burada obyektiv amil var ki, ötən ilə nisbətən bu qış havalar mülayim keçib. Mən diqqət yetirmişəm, bu rüb elektrik enerjisi istehsalında da azalma qeydə alınıb. Lakin burada bir məsələ var ki, elektrik enerjisinin istehsalında stansiyalarda mazutdan qaza böyük keçid baş verib. Yəni hökumət idxal etdiyi qazın böyük əksəriyyətini elektrik stansiyalarına yönəldib.

Gələk digər amilə. Təkcə bu il qaz istehlakçılarının sayında 23 min artım baş verib. Şəhərin hər yerində yeni tikintilər gedir, çoxsaylı yüksəkmərtəbəli binalar, fərdi evlər verilir istifadəyə. Amma gəlin görək, təchizat infrastrukturunda bu tikintilərin həcminə uyğun yenilənmə aparılırmı? Bir Babək prospekti istisna olmaqla, Bakının harasında belə bir yenilənmə var? Aydın məsələdir ki, istehlakçı çoxalıb tələbat yüksəlirsə və əvəzində təchizat imkanları genişlənmirsə, təzyiq aşağı düşəcək. Hava soyuq olanda tələbat daha da artır, təzyiq daha da aşağı düşür. Eyni vəziyyət su təchizatında da baş verir. İnfrastruktur adekvat olmayanda, istəsələr belə, tələbata uyğun qaz-su vermək mümkün deyil".

Ekspertin dediyinə görə, havalar soyuyan günlərdə qaz təchizatında yaranan problemlərin kökündə dayanan daha bir amil texniki baxımdan qeyri-adekvatlığın olmasıdır: "İnfrastruktur elə qurulmalıdır ki, havanın temperaturu aşağı düşüb tələbat artan kimi şəbəkədə qazın təzyiqi avtomatik artsın, daha çox qaz verilsin. Bizdə isə belədir ki, kimsə yazır birinə, o da digərinə, bir neçə mərhələdən sonra qərar verilir - onda isə artıq hava qayıdıb istiləşmiş olur. Yəni bizdə reaksiya qeyri-adekvatdır".

**❑ Dünya SAKİT,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 85 (6974) 20 aprel 2018

# Bakının zibilindən pul qazanmaq üstə rəqabət

## Dövlət qurumu özəl şirkətlərdən gileylidir

**Bakı şəhərində zibilin toplanması və daşınması sahəsində özəl şirkətlərlə dövlət qurumu arasında ciddi rəqabət yaranıb. Bu rəqabətdə isə paytaxtda tullantıların daşınması ilə məşğul olun yeganə dövlət qurumu - Bakı Şəhər İcra Hakimiyyətinə məxsus "Kommunal Xidmət" MMC geridə qalır.**

**MMC-nin hüquqşünası Yalçın Məhərrəmovun** "Yeni Müsavat"a dediyinə görə, Bakı şəhərində onlardan əlavə, zibilin daşınması ilə məşğul olan 7-8 özəl şirkət var: "Biz bütün zibili Balaxanı poliqonuna daşıyaraq orada "Təmiz Şəhər" ASC-yə təhvil veririk. Bütün maşınlarımızda GPS sistemi quraşdırılıb, hər birinin hərəkətini izləmək mümkündür. Daşıma və təhvil verməni Tarif Şurası tərəfindən təyin olunan tariflə həyata keçiririk. Əldə olunan vəsaitdən "Təmiz Şəhər"ə utilizasiya haqqı ödəyirik. Özəl şirkətlərin isə əksəriyyəti zibili yığıb "Təmiz Şəhər"ə təhvil vermirlər. Aparıb qeyri-qanuni zibil poliqonlarına tökürlər. Çünki "Təmiz Şəhər"ə verdikdə utilizasiya üçün pul ödəməlidilər. Bundan yayınırlar, əvəzində zibili daşımaq haqqını Tarif Şurasının müəyyənləşdirdiyi qiymətdən aşağı təklif etməklə qeyri-sağlam rəqabət mühiti yaradırlar. Bizim işlədiyimiz özəl qurumların bir çoxunu bu yolla əlimizdən alıblar. Bu isə bizə maddi problemlər yaradır. 2013-cü ilin martından bizə dövlət büdcəsindən dotasiya ayrılması dayandırılıb. Tam təsərrüfathesablıyıq. Bizim də işimiz olmalıdır ki, xərclərimizi qarşılaya bilək. İşimizi də özəl şirkətlər əlimizdən çıxardırlar - sırf qeyri-sağlam rəqabətlə. Dəfələrlə şəkillərini çəkib Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təqdim etmişik, göstərmişik nə qədər zibil daşıyırlar, hara aparıb tökürlər, amma qarşısı alınmır".

Y.Məhərrəmov onu da bildirdi ki, hər gün səhər saat 6-dan etibarən 80-100 maşın çıxaraq şəhər ərazisindən zibilləri toplamağa başlayır: "Zibil konteynerləri gündə bir dəfə boşaldılır. Bundan əlavə, əhali sıxlığından asılı olaraq hər rayonda 4-5 maşın gün ərzində dolan konteynerlərdən zibili daşıyır. Biz əslində yalnız konteynerlərdə olan zibilləri daşımalıyıq. Konteynerdən kənarda olan zibili aparmamaq haqqımız var. Lakin əksər hallarda işçilərimiz məcbur olub konteynerlərin ətrafına tökülən zibili də yığırlar. Bir çox ərazilərdə konteynerlər az olduğuna görə zibili ətrafa da tökürlər".

MMC yetkilisi yeni tikilən binaların idarəçiləri olan MTK-lardan ciddi narazılıq edir: "Nazirlər Kabinetinin 74 saylı qərarı var ki, hər yeni tikilən bina üçün mütləq zibil konteynerlərinə yer nəzərdə tutulmalıdır. Amma baxaq görək hansı MTK belə yer nəzərdə tutur? Bu gün Bakı şəhərində inşa olunan bir bina üçün də belə yer ayrılmır. Bu isə bizə ciddi problemlər yaradır".

Onu da qeyd edək ki, "Kommunal Xidmət" MMC Bakı Şəhər İcra Hakimiyyəti başçısının 2012-ci ilin avqustunda imzaladığı sərəncamla Bakı Şəhər Mənzil - Kommunal Təsərrüfatı Departamentinin tabeliyinə verilib. Departament




sədrinin sərəncamı əsasında Bakı şəhərinin ərazisində əmələgəlmə mənbəyindən asılı olmayaraq bütün bərk məişət tullantılarının mərkəzləşdirilmiş qaydada yığılması, daşınması və zərərsizləşdirilməsi üçün müvafiq müəssisəyə təhvil verilməsi, bu xidmətlərlə bağlı fiziki və hüquqi şəxslərlə müqavilələrin bağlanması və sanitariya-təmizlik tədbirləri çərçivəsində digər işlərin görülməsi MMC-yə həvalə olunub.

Bu məqsədlə dövlət tərəfindən kommunal təyinatlı "MAN", " MERCEDES BENZ " (Almaniya), "MİTSUBİSHİ" "İSUZİ" Yaponiya və "İVECO" (İtaliya) markalı, 7 m3, 18 m3, 22 m3 tutumlu avtomaşınlar alınaraq müəssisənin balansına verilib. Bunun üçün prezidentin sərəncamı ilə BŞİH-ə 25 milyon manat ayrılıb.

MMC-nin göstərdiyi xidmətin dəyəri " Məişət tullantılarının yığılması , daşınması və zərərsizləşdirilməsi xidmətləri tariflərinin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Tarif (Qiymət) Şurasının 24 noyabr 2011-ci il tarixli 05 nömrəli qərarı əsasında müəyyənləşdirilib. Qərara görə, 1 ton məişət tullantısının daşınma tarifi ƏDV ilə birlikdə10 (on) manat müəyyən edilib.

Şuranın hesablamasına görə, hər vətəndaş il ərzində 1,53 kub/metr tullantı yaradır. Bir çox mütəxəssislər bununla razılaşmırlar, hesab edirlər ki, bu rəqəm reallıqda daha yüksəkdir. Şuranın qərarına əsasən, hər bir vətəndaş ayda 30 qəpik olmaqla, ildə 3,6 manat tullantının yığışdırılıb zərərsizləşdirilməsi üçün haqq ödəməlidir. Həmn ödənişin 1,84 manatı standart olaraq tullantının zərərsizləşdirilməsi üçün "Təmiz Şəhər" ASC-yə ödənilir. Yerdə qalan 1,76 manat isə tullantının yığışdırılmasına və daşınmasına xərclənməlidir.

Onu da qeyd edək ki, 2009-cu ildən Dünya Bankının maliyyə dəstəyi ilə Bakı şəhərində "Bərk məişət tullantılarının kompleks idarəçiliyi" layihəsinin həyata keçirilməsinə başlanıb. Bu layihədə Dünya Bankının tərəfdaşı İqtisadiyyat Nazirliyi olub. Layihənin məqsədi bərk məişət tullantılarının yığılması və utilizasiyası əməliyyatlarını davamlı və səmərəli sistemə çevirmək üçün aparılan islahata yardım etmək idi. Ümumi dəyəri 41,5 milyon dollar olan layihədə Dünya Bankının kredit məbləği 29,5 milyon dollar, Azərbaycan hökumətinin qoyuluşları isə 12 milyon dollar təşkil edirdi . Layihə 5 komponentdən ibarət idi ki, bunlardan biri də, Balaxanı istisna olmaqla, digər poliqonların bağlanması və idarə edilməsi (Bakı şəhəri ərazisindəki icazəsiz zibilliklərin bağlanması və təmizlənməsi, digər poliqonların idarəçiliyinin təkmilləşdirilməsi və ya bağlanması) idi. Görünür, layihə çərçivəsində nəzərdə tutulan fəaliyyətlərin heç də hamısı tam icra olunmayıb...

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**




# Rayon maşınlarına Bakıya giriş qadağası

## Şəhərin giriş hissələrində mühafizə olunan ödənişsiz duracaqlar təşkil edilib

**Baş Dövlət Yol Polisi İdarəsi paytaxtda nəqliyyat sıxlığının azaldılması ilə əlaqədar məlumat yayıb. Lent.az-a daxil olan məlumatda bildirilir ki, keçiriləcək növbəti «Formula 1» Azərbaycan Qran Prisi yarışları ilə əlaqədar olaraq, Nazirlər Kabinetinin Yol Hərəkəti Təhlükəsizliyi Komissiyasının müvafiq 2015-ci ilin protokoluna uyğun olaraq Bakı şəhərində nəqliyyat sıxlığının azaldılması məqsədilə xüsusi təyinatlı, o cümlədən qəza-bərpa və xilasedici, həmçinin kənd təsərrüfatı məhsullarını daşıyan bütün növ nəqliyyat vasitələrinin hərəkəti istisna olmaqla, Bakı şəhərində qeydiyyatda olmayan minik və yük avtomobillərinin paytaxta girişinə aprel ayının 23-dən məhdudiyyət tətbiq ediləcək.**

Bununla əlaqədar Baş Dövlət Yol Polisi İdarəsi paytaxtda piyadaların və nəqliyyat vasitələrinin şəhər daxilində rahat və fasiləsiz hərəkətinin təşkili ilə bağlı paytaxta gəlmək istəyən rayon sakinlərinə tövsiyə edir ki, respublikanın digər regionlarında qeydiyyatda olan fərdi minik avtomobillərinin Bakı şəhərində əlavə nəqliyyat sıxlığı yaradacaqlarını nəzərə alaraq paytaxta gəlmək üçün müasir və komfortlu avtobuslardan, Sumqayıt sakinləri isə avtobuslarla yanaşı, Bakı-Sumqayıt marşrutu üzrə fəaliyyət göstərən sürətli elektrik qatarlarından istifadə etsinlər.

Bakı şəhərinə girişi məhdudlaşdırılan nəqliyyat vasitələri ilə gəlmək məcburiyyətində qalan sakinlər üçün isə, ötən illərdə olduğu kimi, şəhərin giriş hissələrində hər bir lazımi şəraitlə təzhiz olunmuş mühafizə olunan ödənişsiz duracaqlar təşkil edilib ki, sakinlər həmin duracaqlarda öz avtomobillərini saxlamaqla xüsusi marşrutla işləyən avtobuslarla ən yaxın metro stansiyasına gedə, habelə taksi xidmətlərindən istifadə edə bilərlər.

Paytaxtda yol infrastrukturunun yenidən qurulması ilə bağlı olaraq aparılan təmir-tikinti işləri çərçivəsində 20 aprel 2018-ci il tarixində gecə saatlarından isə Heydər Əliyev prospektinin "Sabunçu yol qovşağı"ndan "Böyükşor yol qovşağı"nadək (mərkəz istiqaməti) olan hissəsində hərəkət qısa müddətlik qismən məhdudlaşdırılacaq.

Sürücülərdən qeyd olunan tarixlərdə alternativ yollardan istifadə etmələrinə üstünlük vermələri tövsiyə olunur və sözügedən ünvanlarda hərəkətdə olarkən diqqətli olmaları, ərazidə yerləşdiriləcək müvəqqəti yol nişanlarının tələblərinə riayət etmələri xahiş olunur.

# Qış "təslim olmur"

**Aprelin 20-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, gecə və axşam bəzi yerlərdə qısamüddətli yağış yağacağı gözlənilir. Səhər zəif duman olacaq. Mülayim cənub-qərb küləyi əsəcək, gündüz şimal-qərb küləyi ilə əvəz olunacaq, arabir güclənəcək.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Lent.az ttp://lent.az/-a verilən məlumata görə, havanın temperaturu Abşeron yarımadasında gecə 7-10, gündüz 14-18, Bakıda gecə 8-10, gündüz 15-17 dərəcə isti olacaq.



Azərbaycanın rayonlarında aprelin 20-də qərb rayonlarından başlayaraq şimşək çaxacağı, arabir yağış yağacağı, ayrı-ayrı yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 5-10, gündüz 18-23, dağlarda gecə 0-5, gündüz 6-9 dərəcə isti olacaq.

Aprelin 20-si gündüz qərb rayonlarından başlayaraq 23-ü axşamadək ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçəcəyi, şimşək çaxacağı, arabir yağış yağacağı, bəzi yerlərdə intensiv olacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu tədricən 4-8 dərəcə aşağı enəcək. Çaylarda suluğun artacağı ehtimal olunur.

**Elan**

**«Sericovia Lojistik» şirkətinin VOEN itib, tapan şəxslər zəhmət olmasa +994 51 387 77 99 nömrəli telefonla Yusif bəylə əlaqə saxlasınlar.**

YENİ MÜSAVAT
N 85 (6974) 20 aprel 2018




# Şaban ayının orucluları

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Mübarək Şaban ayı artıq daxil olmuşdur. "Üçaylıq" adlandırılan xüsusi mənəvi-ruhi dönəmin artıq 1 ayı geridədir. Qarşıda təqribən 2 ay mənəvi faydalanma fürsəti vardır. Və əslində Şaban ayı mübarək Ramazan ayı üçün giriş və müqəddimə səciyyəsi daşıyır.**

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



Ramazan ayındakı İlahi ziyafət üçün, insanın Şaban ayındakı edəcəkləri əməllərin, düşüncələrinin, yerinə yetirdiyi işlərin, etdiyi təfəkkürlərinin böyük əhəmiyyəti vardır. Uca Allahdan duamız budur ki, zehni, fikri, ruhi, qəlbi hazırlıqlara malik olmaq tofiqatını cəmi insanlara nəsib etsin!

### Fürsət məqamı

İnsanın özünə qayıdışı fövqəl əhəmiyyət kəsb edir. Bunu yaxşı bilən lənətlik iblis, gündəlik cari məşğuliyyətləri insanın gözündə o qədər böyüdür ki, bu mahiyyətcə xırda məsələlər onun üçün həyati hədəf rolunu oynayır. İblis (lən) istəyir ki, insan mənəvi fürsətlərdən lazımi qədər bəhrələnməsin. İblis istəyir ki, insan məsələlərə dinin-imanın istədiyi tərzdə yanaşmasın, əksinə, proseslərə nəfsani prizmadan yanaşmağa üstünlük versin.

İnsan Allahdan bağışlanmaq istəyir, Allahdan məğfirət istəyir. İnsan mənəvi yüksəliş diləyir, islahat istəyir Allahdan. Amma bu islahatın, bu yüksəlişin ümdə şərtləri çox vaxt unudulur. Unudulur ki, əsas məsələ - məhz mənəvi fürsətlərdən maksimum səmərəli istifadə etməkdir. O cümlədən bu fürsətlərin təqdim olunduğu zaman və məkan amillərindən faydalanmaqdır. Bu imkanlardan yararlanmayan insan, mübarək dinimizin fəzilətlərini qəbul edə bilməyəcək, yalnız dini ayinlərin zahiri tərəfini icra etməklə kifayətlənəcək.

Maraqlıdır ki, bir çox məsələlər, o cümlədən idman müsabəqələrinə, hansısa maraqlı hadisələrə insanlar nə qədər vaxt ayırırlar. İnternetdən tutmuş, dövri mətbuatadək onları maraqlandıran mövzu barədə məlumatları toplayır, sistemləşdirir, yadda saxlayırlar. Bu, özlüyündə normal haldır. Amma insan bundan az olmayaraq, öz taleyüklü işləri ilə məşğul olmalıdır. Öz ruhi-mənəvi tələbatlarını ödəyəcək məsələlərə diqqət yetirməlidir. Belə olmadıqda, ömrünü-gününü bihudə işlərdə xərcləyib bitirər.

Toplumda bu əlamətdar tarixlərin, vaxt baxımından gözəl fürsətlərin səviyyəli təqdimatı yox dərəcəsindədir. Burada iman daşıyıcılarının üzərinə böyük məsuliyyət düşür. Onlar bu mübarəkliyi daxillərində yaşatmalı və əməllərində təzahür etdirməlidirlər ki, cəmiyyətə bununla bağlı bir mənəvi mesajlar getsin, insanlar bir nümunə görüb, robotsayağı yaşamdan imtina etsinlər, öz missiyaları, hədəfləri, təyinat məntəqələri barədə düşünsünlər...

### "Şəbaniyyə münacatları"

İnsanın mənəvi işləri düzəlməyincə, onun hər hansı uğura çatması mümkün olmur. Zahiri nailiyyətlərdən söhbət getmir. İnsan məşq edib, yüksək idman göstəriciləri ortalığa qoya bilər, çoxlu məşğul olub, tədqiqat aparıb, ixtiralar və kəşflər edə bilər, müxtəlif istedadlar təzahür edə bilər. Amma bunlar öz-özlüyündə mütləq dəyərlilikdən xalidir. Bunlar o zaman qiymətlidir ki, İNSAN harmonik surətdə yaşasın, mənəvi-əxlaqi fundamental baza əsasında inkişaf etsin.

Bu baxımdan Şaban ayı - çox ciddi və məsuliyyətli dönəmdir. Çünki Ramazan ayındakı İlahi ziyafətin önüdür. Və şabanın fikri və ruhi hazırlığını həyata keçirmək üçün bu ayın dua və zikrləri böyük əhəmiyyət daşıyır.

Həzrət Peyğəmbərimiz (s) və əziz İmamlarımız (ə) mənəvi-ruhi yüksəliş baxımından ilin əlamətdar vaxtlarına, o cümlədən də şaban ayına xüsusi önəm verərdilər. Şaban ayını Məsumlarımız (ə) dua, zikr, təvəccö, ibadət və istiğfar ayı kimi tanıdardılar. Bu ayda "Şəbaniyyə münacatları" adlanan Uca Allahla bir ünsiyyət vardır ki, insanı - istəyən insanı, düşünən insanı, axtaran insanı mənəvi süfrənin kənarında əyləşdirə bilər.

"Şəbaniyyə münacatları" sanki Allahdan bir qəlb aydınlığı, qəlb diriliyi istəmək fürsətidir. Allah dərgahında mənəvi nemətlərdən bir qədər əldə etmək fürsətidir. İnsan sanki öz canında, qəlbində olan zülmət örtüklərini aradan götürmək istəyir. Və bu örtüklərin yox olması üçün bir fürsətdir "Şəbaniyyə münacatları".

Nur olan Allahdan nuraniyyət qəbul edə bilmək fürsətidir bu. Bir Allahdan ki, Özü Nurdur və Nurun özüdür, insanın qəlbində İlahi nuru qəbul etmək üçün müvafiq şərait yaranır.

### Mənəvi çayların təmizləyici missiyası

Bir haşiyə çıxaq ki, bu dua və zikrlərdə ümumilikdə dərin təsir potensialı mövcuddur. İnsan duanı edə-edə, zikri oxuya-oxuya onlardakı mənaları tədricən mənimsəyir və bir zaman yetişə bilər ki, insan bu mənalarla yaşasın, həyatını bu müddəalara uyğun qursun.

Götürək elə ötən Rəcəb ayının gündəlik duasını. Bəndə bu duada iqrar edir ki, hər bir xeyir Allahdandır və hər bir şərdən Ona pənah aparır. Bəndənin az, zəif əməllərin müqabilində bol-bol nemətləri onun üzərinə əta edən - Allahdır. İstəyənə də verəndir, istəməyənə də. Öz böyük rəhmətilə Onu tanıyana da verəndir, tanımayana da. Bu ayın bütün nemətlərindən faydalana bilməsə də, ibadət edən insan Allahın lütfü-inayətilə bu ayın bərəkətindən az da olsa, ruhuna hopdura bilir.

Bu ruhuna qəbul etdiyinin bərəkətindən şaban ayının fəzilətlərini dərk etmək və onlardan yararlanmaq hazırlığı əmələ gəlir insanda. Və səy etsə bəndə, Uca Allahın tofiqatı ilə, şaban ayından bu mənəvi paylardan apara bilər. Zira, mənəvi nemətləri qəbul etmək üçün insanın müvafiq tutumu olmalıdır. İnsan əvvəl gərək daxilini təmizləsin, özünü hazırlasın ki, Ramazan ayında ona doğru gələn İlahi nuraniyyəti qəbul etmək iqtidarına malik ola bilsin.

Sanki bir çaydır rəcəb və şaban ayları. İnsan hər gün nə qədər bacarırsa, baş vurur, yuyunur bu mənəviyyat çayında. Nə qədər bacarırsa, öz ruhunu təmizləyir bu çayda. Mübarək Ramazan ayına artıq yeni bir ovqatla, təmizlənmiş və riqqətli qəlblə çıxır bəndə...

### Hüseynsevərlər ayı

Hüseynsevərlər üçün xüsusi bir aydır şaban. Bu ayın 3-cü günü Şəhidlər Sərvəri İmam Hüseynin (ə) mövlud günüdür. Kərbəla qəhrəmanı Əbülfəzl Abbasın (ə) mövludu isə ayın 4-dür. Fədakarlığın, zülmə müqavimətin simvolu olan Həzrət Abbasın (ə) mövludu.

Şabanın 5-i isə İmam Hüseyn (ə) yadigarı, Aşura şahidi, Kərbəla müsibətini dünyaya car çəkən, zalım yezid istibdadını titrədən İmam Zeynəlabidinin (ə) - İmam Hüseynin (ə) oğlunun mövlud günüdür. Bəndəlik simvolu olan, səcdə simvolu olan Səccadın (ə) mövludu.

Bütün dünyada azadələrin simvolu olan bir şəxsiyyətin mövludu olan bir aydır şaban ayı. Baxsaq, görərik ki, bir bu 3 gündə nə böyük mənəvi potensial vardır. Ayın ortasında isə - "Nimeyi-şaban" adı ilə məşhur olan 15-ci gündə - Zəmanə Sahibi Həzrət Məhdinin (ə.f) mövludu günüdür. Bəşəriyyətin gəlişinin intizarında olan bir kəsin mövlududur "Nimeyi-şaban"da. Haqq-ədalət simvolunun, bəşəriyyəti zülmdən qurtaracaq bir mübarək ismin mövlududur o gün...

Bütün öz misilsiz xüsusiyyətləri ilə yanaşı, şaban ayı bu 4 mübarək mövlud günləri sayəsində dərkedilməz bir yüksəkliyə qalxır. Mümkün deyil ki, insan istəsin Allahdan, çalışsın, səy etsin və bu böyüklükdə mənəvi potensialın müqabilində əliboş qalsın. Amma insan öz işlərini proqramlaşdırmasa, özünü hazırlamasa, qəlbi ilə məşğul olmasa, səy etməsə mənəviyyat süfrəsinin yanında əyləşməkdən özünü məhrum edə bilər.

Allah-Təala cəmi insanlara Öz nəzərini salsın və bu ayın bərəkətlərindən bəhrələnməyi nəsib etsin!

### Peyğəmbərin (s) ayı

Əziz İslam Peyğəmbəri (s) buyurur: "Şaban - mənim ayımdır, Ramazan ayı Allahın ayıdır. Hər kim mənim ayımdan 1 gün oruc tutsa, Qiyamət günü mən onun şəfaətçisi olaram".

Açıq-aşkar bir yol göstərilir hər bir insana ki, Həzrət Rəsuli-Əkrəmin (ə) şəfaətçiliyini arzulayır. Bu ayın ehtiramını yüksək bilib, oruc tutan insan üçün Xətəmül-ənbiya - Peyğəmbərlərin Möhürü, Sonuncu İlahi Elçi (s) şəfaətçi olar Qiyamət günündə.

Həzrət Peyğəmbər (s) o adamın şəfaətçisi olar ki, buna ləyaqəti olsun, buna uyğun tutumu olsun, səviyyəsi çatsın. Allaha xatir xalis ibadət edən insan, bütün səhv və xətalarına baxmayaraq, ruhunu qorumağa çalışmışdır və buna görə Həzrət Rəsuli-Əkrəmin (s) şəfaətinə ümid bəsləyə bilir. Şaban ayının orucunun dərəcəsi görün nə qədərdir ki, insanı Peyğəmbərin (s) şəfaətçiliyini qazanmağadək yüksəldə bilir. Şaban ayının belə bir gücü, belə bir imkanları var.

Nəql edirlər ki, əziz İslam Peyğəmbərinin (s) özü Şaban ayını oruc tutardı və onu Ramazan ayına vəsl edərdi, birləşdirərdi.

Böyük İslam Peyğəmbərindən (s) buyrulur: "Şaban - mənim ayımdır. Bəs bu ayda öz peyğəmbərinizin sevgisini qazanmaq və Allaha yaxınlaşmaq üçün oruc tutunuz".

Çox dəqiq reseptdir ki, Rəsuli-Əkrəm (s) müsəlmanların nəzərinə çatdırır. O Həzrətin (s) məhəbbətini necə qazanmaq olar? Allaha yaxınlaşmaqla, xalis ibadətləri Allah üçün yerinə yetirməklə. Və Peyğəmbərimiz (s) buyurur ki, bu yaxınlaşma səyinin təzahürü - oruc kimi ibadətlərdir. Deməli, Şaban ayının orucu öz-özlüyündə mübarəklik yükü daşımaqla yanaşı, insan üçün Peyğəmbər (s) sevgisini qazandırır, Allaha təqərrübü, Allah yaxınlığı insana nəsib edir.

### Behiştin açarı

Şaban ayının orucu - behişt açarlarındandır. Həzrət Rəsulullah (s) buyurmuşdur: "Şaban - mənim ayımdır. Hər kim bu ayda bir gün oruc tutsa, behişt ona vacib olar".

Təsəvvür edək: bircə gün ixlaslı oruc, behiştə apraran bir vəsilə ola bilir. İnsan həyatında intibah prosesi həmin o bircə günlərdən, bircə saat və dəqiqələrdən başlayır. İnsan hər saat özünə nəzarət edir ki, günah etməsin. Göz günahı, dil günahı, qulaq günahı, qəlb günahı etməsin. Sonra bu özününəzarət artıq günlərə keçir, günləri əhatə edir. Nəhayət, bir gün gəlir ki, insanın özününəzarəti, ibadi durumda olması fasiləsiz bir prosesə çevrilir. Nə edirsə-etsin - ticarətlə məşğuldur, dərs oxuyur, valideyni ilə, övladı ilə, həyat yoldaşı ilə, qonşusu ilə ünsiyyət saxlayır, yaxşılıqlara dəvət edib, pisliklərdən çəkindirir insanları, öz məlumatlılığını, bilgisini artırır, dincəlir, idman edir, səyahətə gedir, ictimai həyatda iştirak edir - hər bir təzahüründə ibadətdə olur insan. Çünki, Allah istəyən kimi edir və Allaha görə edir. Həmin bu 1 saatlardan, 1 günlərdən başlayan şərəfli yoldur bu.

Şaban ayının orucunun Peyğəmbərimizin (s) məhəbbətini qazandıran, Allaha yaxınlaşdıran və behiştə aparan bir amil olması barədə Əhli-Beytdən (ə) silsiləvi surətdə nəql olunmuşdur. Altıncı İmam Həzrət Cəfər Sadiq (ə) öz babası 4-cü imam Həzrət Səccad (ə) barədə belə nəql edir: IElə ki, şaban ayı daxil olardı, Həzrət Zeynəlabidin (ə) öz əshabını yığardı və buyurardı: "Ey mənim əshabım! Bilirsiniz bu, nə aydır?! Bu, Şaban ayıdır. Və Həzrət Rəsul buyurmuşdur: "Şaban - mənim ayımdır. Bəs bu ayda öz peyğəmbərinizin məhəbbətini cəlb etmək üçün və Allahınıza yaxınlaşmaq üçün oruc tutunuz». Sonra İmam Zeynəlabidin (ə) Allaha and içərək buyurur ki, atam Hüseyn ibn Əlidən (ə) eşitdim ki, buyurub: "Əmirəlmöminin (Həzrət Əli (ə)) eşidib ki, hər kim Peyğəmbərin (s) məhəbbətini cəlb etmək və Allaha yaxınlaşmaq üçün şabanın orucunu tutsa, Allah Təala onu sevər və Qiyamət günündə öz kəramətinə yaxın edər və behişti ona vacib edər"".

### Şabanda ən gözəl əməllər

Şaban ayının orucunun yüksək fəzilətləri barədə dini mənbələrdə çox vurğulanmışdır. İmam Cəfər Sadiq (ə) öz yaxınlarından birinə buyurur: "Öz ətrafında olan kəsləri şabanın orucuna vadar et (təkidlə dəvət et)". O yaxını soruşur: "Sənə fəda olum. Məgər onun fəzilətində bir şey görürsən?". İmam (ə) buyurdu: "Bəli. Allahın Rəsulu (s) hər vaxt ki, şabanın hilalını görürdü, carçıya tapşırardı ki, Mədinədə nida etsin: "Ey Mədinə əhli! Mən Allah tərəfindən sizin üçün göndərilmişəm!". Sonra buyurardı: "Agah olunuz! Həqiqətən, şaban - mənim ayımdır. Allahın rəhməti olsun o kəsə ki, mənə mənim ayımda kömək edə - yəni oruc tuta"".

Carçı gəzərdi Mədinəni və insanları şaban ayının orucuna dəvət edərdi. Əslində bugünədək o çağırış səslənir və iman əhli Peyğəmibər (s) ayında Rəsuli-Əkrəmə (s) kömək etməyə - oruc tutmaqla öz qəlbini təmizləməyə, dinini yaşatmağa dəvət edilir. Allah cəmi müsəlmanlara bu nidaları cavablandırmağı qismət etsin!

Həzrət Əli (s) də həmçinin buyurardı: "O zamandan ki, eşitdim ki, Rəsulun (s) carçısı şabanda nida verdi, şaban ayının orucu məndən fövt olmayıbdır. Və ta o zamana qədər ki, sağam, Allahın izni ilə, inşəallah, (şabanın orucu) məndən fövt olmayacaq".

İmam Cəfər Sadiqdən (ə) soruşduqda ki, şaban ayında ən yaxşı əməllər hansıdır, o Həzrət (ə) sualı belə cavablandırmışdı: "Təsəddüq (sədəqə vermək) və istiğfar (tövbə etmək, bağışlanmaq diləmək). Hər kim bu ayda sədəqə verər, Allah Təala onu tərbiyələndirər".

İnsanı tərbiyələndirən, inkişaf etdirən - Allahdır. İnsanın əməli müqabilində onun qəlbinə müvafiq durum, müvafiq tərbiyə hopur. Və sədəqə - insanın qəlbinin İlahi tərbiyəsinə yardım edən vasitələrdəndir. Və sədəqənin azı-çoxu mühüm deyil, keyfiyyəti mühümdür. Kəmiyyəti az ola bilər, amma səmimi qəlbdən verilsə sədəqə, insanın özünə təsiri çox gözəl olar.

Allah-Təala bu ayda cəmimizi gözəl iş görənlərdən, Peyğəmbərə (s) dost olanlardan, Özünə yaxın olanlardan qərar versin! Amin!

YENİ MÜSAVAT

Son səhifə

N 85 (6974) 20 aprel 2018



# 70 yaşlı qadını rasizmə görə həbs etmək istəyirlər

Kembric sakini olan bir qadını eyvanından toxunma qorilla asdığı üçün nasizmdə suçlayıblar. Polislər 70 yaşlı Enn Fistin evinə gələndə bildiriblər ki, onlara pəncərədən asılan "qara bədənlə" bağlı şikayət olunub. Çünki kimsə bunu çox aşağılayıcı hesab edib. Fist isə hüquq-mühafizə orqanı nümayəndələrinə izah edib ki, toxuma işləri ilə məşğul olur və polislərə evindəki iki qutu yunu göstərib: "Qorillalar qara rəngdə olur və mən onu ağ rəngdə toxuya bilməzdim".

İnsidentdən sonra qadın deyib ki, o, oyuncaqlarından bəzilərini satır və alıcılarından heç biri bu günə qədər şikayət etməyib. Bundan başqa, Fist pəncərəsindən üzərində "şikayətçi ilə tanış olmaq istəyirəm" yazılmış bir elanı da asıb. Kembric polisinin mətbuat xidməti dəqiqləşdirib ki, oyuncağa görə hər hansı şikayət daxil olmayıb. Hüquq-mühafizə orqanları əməkdaşları isə qorilla fiqurunu "potensial rasist obyekti" adlandırıb.

# Pişiklər üçün gəlincik yatacağı

Tanınmış mebel istehsalçısı IKEA Kanadadakı pişik sığınacağında yaşayan pişiklər üçün gəlincik yataqları hazırlayıb. Kampaniya Torontoda yerləşən pişik sığınma evlərinə 10 yatacaq yeri, eləcə də 300 dollar məbləğində maddi yardım edib. Lenta.ru saytı "Metro"ya istinadən xəbər verir ki, pişiklər üçün yatacağın hazırlanması yeni ideya deyil. Bir neçə ay öncə Yaponiyada da bu, dəb halını almış və ev heyvanı sahibləri onlara xüsusi yataqlar hazırlayıb, onun fotolarını internetdə yaymışdılar. Torontodakı bu sığınacaqda isə pişiklər nəinki yatır, eyni zamanda soyuq döşəmədə üşüyəndə ora hoppanıb, istilənirlər. Sığınma evi kommersiya qurumu sayılmasa da, burada bütün sahibsiz heyvanlara yatacaq yeri yoxdur. Pişiklərdən bəziləri bu yatağı öz təyinatı üzrə istifadə edib orda yatdıqları halda, bir çoxları da, sadəcə, odeyalın altında gizlənməyi tərcih ediblər.



# Qadın özünü dördüncü mərtəbədən atdı, sevgilisi tutdu

İspaniyanın Qalisiya əyalətində bir qadın alt paltarlarında özünü yanan evin eyvanından aşağı atıb. Baş vermiş hadisənin videogörüntüləri Antonio Vazquez adlı istifadəçinin profili vasitəsilə yayılıb. Videogörüntülərdən də məlum olur ki, qadın binanın dördüncü mərtəbəsindən əynində ancaq alt paltarları ilə özünü yerə atır. "Daily Mail" qəzetinin xəbərinə görə, aşağıda isə qonşuları və sevgilisi odeyal tutaraq onu saxlamağa cəhd ediblər. Qadını tutublar və odeyala bükərək təcili yardım çağırıblar. 47 yaşlı qadın daha sonra xəstəxanaya çatdırılıb. Həkimlər ona döş qəfəsinin zədələnməsi diaqnozu qoyublar. Qadının hansı səbəbdən evdə o vəziyyətdə olması, yanğının hansı səbəbdən çıxması isə sual olaraq qalır.





# Arıqlamaq üçün 6 qabırğasını çıxardı

İsveç sakini 6 qabırğasını çıxartdırıb. Belinin 40 santimetr olması üçün belə bir addım atan Piksi Foks adlı qadın bu əməliyyat üçün 120 min dollar ödəyib. Bu barədə lenta.ru saytı xəbər verir. P.Foks deyir ki, cərrahiyyə müdaxiləsindən sonra hər gün sıx korset taxır, onu ancaq duş və ya fitnes məşqlər zamanı çıxarır. Qadın eyni zamanda sinəsini böyütdürüb, permanent makiyaj etdirib, botoksdan istifadə edib. "Mən indi daha bir nadir əməliyyat etdirmək istəyirəm, amma konkret hansını... demək istəmirəm" bunu da Foks deyib.

Piksi hazırkı görüntüsü multiplikasiya qəhrəmanı Cesika Rebbiti xatırladır. İsveç qadın xarici görünüşünü 2015-ci ilin noyabrından etibarən dəyişməyə başlayıb. Məqsədinə çatmaq üçün qadın pendir dietasına keçib və gündə 2-5 saat idman zalında keçirib.




**QOÇ** - Ailə üzvlərinizlə davranışlarda nəzakətli olun. Məhz belə olduqda özünüzə qarşı rəğbət oyada bilərsiniz. "Yalnız mən haqlıyam" ifadəsini tərgidin. İş günü olsa da, istirahətə vaxt ayırın.

**BUĞA** - Atdığınız hər bir addımın məsuliyyətini hiss edin. Bu, çıxaracağınız qərarların icrasında sizə böyük dəstək ola bilər. Əks təqdirdə gün ərzində müvəffəqiyyətə yetişə bilməyəcəksiniz.

**ƏKİZLƏR** - Maraqlı görüşlər yolunuzu gözləyir. Ola bilsin ki, yeni təkliflər də alasınız. Axşam təmiz havada gəzinməyiniz sağlamlığınıza xeyir gətirə bilər. Büdcənizdə artım mümkündür.

**XƏRÇƏNG** - Sevgi dolu bir gün yaşayacaqsınız. Yaxın adamların sizi başa düşməsi, o cümlədən səhvlərinizi bağışlaması ürəyinizcə olacaq. Nəzərdə tutmusunuzsa, nahardan sonra səfərə çıxın.

**ŞİR** - Nədənsə bu ərəfələr sizin üçün o qədər də ürəkaçan keçmir. Bu səbəbdən də riskli və qeyri-adi hərəkətlərə yol verməməlisiniz. Qonaq getmək, gəzintiyə çıxmaq çox səmərəlidir.

**QIZ** - İşlə özünüzü çox yormayın. Ulduzlar daha çox istirahətə yer ayırmağınızı tövsiyə edir. Saat 16-dan sonra yaxınlarınızla aranızda yaranmış anlaşılmazlıqlara aydınlıq gətirməyə çalışın.

**TƏRƏZİ** - Nahara qədər ümumi vəziyyətiniz qənaətbəxş olacaq. Nəzərdə tutduğunuz işlərin bir çoxunu gerçəkləşdirəcəksiniz. Sonrakı vaxtınızı isə daha çox sizi anlayan insanlarla keçirin.

**ƏQRƏB** - Sevgi amilinə daha böyük diqqət yetirin. Çünki iş gəldi-gedər olsa da, bu hisslər ilahidən gəldiyi üçün əbədidir. Gün ərzində sizə yaxın olanlarla mübahisələrdən yayının.

**OXATAN** - Hələ ki, mövcud durumunuz Göy qübbəsini qane edir. Əsası odur ki, hər hansı xoşagəlməzlik baş verməyəcək. Bu gün şəxsi işlərinizdə əsaslı dönüş etmək üçün aktivləşməlisiniz.

**OĞLAQ** - Hər mənada uğurlu gün yaşayacaqsınız. Ulduzlar bəxtinizin gətirəcəyini bəyan edir. Təzə xəbərlər də eşidəcəksiniz. Amma həmkarlarınızla təmkinli davranın ki, işdə passivlik yaranmasın.

**SUTÖKƏN** - Bir qədər mübahisəli ərəfədir. Daimi ünsiyyətdə olduğunuz adamlarla, ələlxüsus da həmkarlarınızla xoşagəlməz situasiyalara cəlb oluna bilərsiniz. Bələd olmadığınız ünvanlara getməyin.

**BALIQLAR** - Astroloji göstəricilərə görə, bu gün əməkdaşlıq zəminində uğurlarınız böyük olacaq. Aldığınız təkliflərin perspektivlərinə inanırsınızsa, imtina etməyin. Varlanmaq şansınız var.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Məşhursansa, ömrün qısa olacaq



Amerikada yayımlanan bir qəzetin ölüm elanları səhifəsi araşdırılandan sonra ortaya maraqlı bir nəticə çıxıb. Nəticələrə görə, daim göz önündə olan şöhrətli bir insan olmaq ömrü qısalda bilir. Belə ki, sənətçilər, idmançılar digər peşələrdə təmsil olunanlardan bir neçə il erkən dünyasını dəyişir. Araşdırmaçılar bildirib ki, onların gəldiyi nəticələr konkret faktlara əsaslanmasa da şöhrət insanın həyatını həqiqətən də oğurlayır. BBC-nin xəbərinə görə, avstraliyalı alimlər 2009-2011-ci illərdə "Nyu-York Times" qəzetində yayımlanan 1000 ölüm elanını araşdırıb. Məşhurların orta ömür həddi 77 il olaraq müəyyənləşib. Buna qarşılıq olaraq akademiklər, elm adamlarında orta ömür həddi 82 yaş olub. Məşhurların daha çox xərçəng, xüsusən də ağciyər xərçəngindən dünyasını dəyişdiyi də müəyyənləşib.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.